Rafiq Yusifoğlu



# ARZULAR KƏHKƏŞANI

84(5Aze)
Y 92

Rafiq
Yusifoğlu



# ARZULAR KƏHKƏŞANI

fond 2016

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 87222

Bakı-2015

Redaktoru Zahid Xəlil

Rafiq Yusifoğlu. Arzular kəhkəşanı. Şeirlər . Bakı, ADPU nəşriyyatı, 2015, 328 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, «Qızıl qələm», «Vətən», «Araz», «İlin ən yaxşı kitabı» və s. mükafatlar laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun bu kitabına onun son illərdə yazdığı təzə və gənclik illərində qələmə alınsa da indiyə qədər heç bir kitabına düşməyən şeirləri daxil edilmişdir.

© $\frac{17928519}{1646100}$ - 2015

F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
İNV. № 878222

© Rafiq Yusifoğlu



# DÜNYA GÖZƏLDİ...

## ULU YARADANIM

Ocağım od alıb qaynar közündən,
Ulu yaradanım, borcluyam sənə.
Qəflət pərdəsini çəkib gözümdən
Kimin kimliyini göstərdin mənə...

Kobud söz cəzadı qəlbi zərifə,
Şeytana uyaraq günah elədim.
Söz tapa bilmirəm Səni tərifə –
Mənə gizlinləri agah elədin...

Sanırdım o qızın yoxdu əvəzi,
Kəlməsi noğuldu, sözü nabatdı.
Cidanı çuvalda gizlədən kəsin
Saxlancı çevrilib gözünə batdı...

Qaranlıq dünyamda şimşəklər çaxar,
Məndən əsirgəmə səxavətini.
Düzmüş: «Südlə girən sümüklə çıxar» –
Kim dəyişə bilər öz xislətini?!

Qoyma uzaq düşüm sənin yanından,
Qılınc neyləyəcək ər təpəsinə?!
Qopub xəyanətlər burulğanından,
Ucalım mələklər mərtəbəsinə.

Nəğməyə çevirim mən ahlarımı,
Təmizlik bəxş elə yağışla mənə!
Yarəbbim, bağışla günahlarımı,
Günahsız sabahlar bağışla mənə!..

19.10.2013

## MİN ŞÜKÜR

Hələ qurumayıb gözümün yaşı,
Bulağa min şükür, çaya min şükür!
Sevdim güllü yazı, boranlı qışı,
Payıza min şükür, yaya min şükür!

Göylərə baxmaqdan yoruldum haçan? –
Sanki qəlbim deyil, quşlardır uçan.
Başımın üstündə daim nur saçan
Ulduza min şükür, aya min şükür!

Nəğməkar bir bulaq çətin ki, susa,
Yaxşı ki, ürəyim dönməyib buza!
Varımdı insana nə lazımdısa,
Xoşbəxt günə, ilə, aya min şükür!



Demə karvanımın üzü qışadı,
İçimdə payızla bahar qoşadı.
Sevdalı, sevincli ömür yaşadım,
Allahın verdiyi paya min şükür!

23.06.2012

## DÜNYANIN İŞİNDƏN BƏNDƏ BAŞ AÇMAZ

Qorxudan qaralıb çoxunun gözü –
Bərabər olacaq dərə dağ ilə.
Yamanca bərk imiş dünyanın üzü,
İşi də yox imiş dağılmaq ilə...

Qatara düzülüb aylar, fəsillər,
Yaza dönmək olmur ömrün qışından.
Dünyadan keçsə də neçə nəsillər,
Tük əskik olmayıb onun başından.

Həmişə yaşayır bir cavan kimi,
Hələ neçə körpə böyüdəcəkdir.
O, min il, milyon il dəyirman kimi
Gələni, gedəni üyüdəcəkdir.

Arabir çiçəyi, gülü solsa da,
Tükənmir söhbəti, sözü dünyanın.
Hamını qocaldıb yola salsa da,
Həmişə cavandı özü dünyanın...

Bəzən natəmizə qul etdi pakı,
Sevən qəlbimizi ağrıtdı dünya.
Özü dağılmadı, başımızdakı
Qiyamət xofunu dağıtdı dünya…

İstəsə, günəş də yerə nur salmaz,
Dərə neçə nəhəng dağ uda bilər.
Dünyanın işindən bəndə baş açmaz,
Dünyanı Yaradan dağıda bilər…

**21.12.2012**

## MÖCÜZƏLİ, SİRLİ DÜNYA

Bəxtəvərik, nə zamandı
Yaşayırıq yer üzündə.
Tufanlara sinə gərib,
Sanki deyil yer özündə…

Dərələrə sellər, sular,
Zirvələrə qar yaraşır.
Dodaqlara gülüş, nəğmə,
Budaqlara bar yaraşır…

Öz sehrli aləmi var
Arıların, böcəklərin.
Kim bilir axı dilini
Ağacların, çiçəklərin?!



Şəfəq saçan ulduzları
Göylərdə kim saya bilər?
Dünyanın gözəlliyini
Tanrı tək kim duya bilər?

Bulud dolanda görəsən
Ürəyimdən nələr keçir?!
Yağış yağanda nə üçün
Güllü çəmənləri seçir?

Buludlara vuran kimi
Göylər şimşək qılıncını,
Qan çilənir sanki yerə,
Görmürsən düşən damcını?!

Yox-yox, bu ilahi nurdu,
Torpağa göylərdən gəlib.
Öz dünyama qapılıram
Bu yerlərə hərdən gəlib…

Xəyalım quşlarla uçur,
Ruhum buludlara hopur.
Dənizlər kükrəyən zaman
Ürəyimdə tufan qopur.

O dağın başı buludda,
Kökü yerin təkindədi.
Onlar qoruyur torpağı,
Düz demirəm? –
Fikrin nədi?

Dağlarsız qərib sayardı
Çox güman ki, yer özünü.
Dənizlər kükrəyib, daşıb,
Tutmazdımı yer üzünü?!

Kainat bir möcüzədi,
Külək mənasız ötərmi?
Bu dünyanı dərk etməyə
İdrakın gücü yetərmi?!

Özgə kim görə bilər ki,
Ocaqda közün işini?!
Anlamağa ömür yetməz
Dünyanın uzun işini…

**25.11.2012**

## İYUL YAĞIŞI

Yağış yağır, qoca dünya
Gözəlləşir, təzələnir.
Durmuşam üzü dənizə,
Xatirələr çözələnir…

Elə bil səfər üstdəyəm,
Başlamışam yır-yığışa.
Bu boyda nəhəng dənizin
Ehtiyacı var yağışa!



Bu yağış göz yaşına yox,
Dürrə, inciyə bənzəyir.
Nura bələnmiş hər damla
Sevən qəlbimi bəzəyir.

O bulud hayandan gəlir
Qoşulub əsən yellərə?
Minnətçi düşüb bu yağış
Könlümdə solan güllərə.

Bu yağışın damlasında
Bərq vurur sevgimin nuru.
Şükür sənə, Ulu Tanrım,
İçim duru, çölüm duru!

**01.07.2012**

## İŞIĞA BƏLƏNMİŞ AĞRI

Çiçək işığa can atır,
Böcək işığa can atır.
Köksümüzdə dustaq olan
Ürək işığa can atır.

İçimizdəki ağrını
Biz işığa bələyirik.
O dünyaya gedənə də
İşıqlı yol diləyirik.

Göz aydınlığı veririk
Nurlu dünyaya gələnə.
«Qəbri nurla dolsun!» – deyib,
Dua edirik ölənə.

Bu etibarsız dünyada
Hər şey quru təsəllidi.
Zülmətdə qalan ürəyə
Sevgi nuru təsəllidi.

Yurdumuz nura möhtacdı,
Elimiz nura möhtacdı.
İçimiz nura möhtacdı,
Çölümüz nura möhtacdı…

Boğub könül arzusunu
Mən də özümə zülm etdim.
Üzü işığa getsək də,
Son məkanımız zülmətdi…

Günəş işığı neyləsin
İçində duman olana? –
Tanrı nuru kifayətdi
Qəlbində iman olana…

**02.08.2012**



## BİRCƏ GÜNAHIM VAR

Mən mələk deyiləm, adi bəşərəm,
Günaha batırır həyat adamı.
Nəfsin qulu olsam, adiləşərəm,
Qoruya bilmərəm təmiz adımı.

Sınaram,
ancaq ki, çətin əyiləm,
Bişmişəm zamanın qilü-qalında.
Başkəsən deyiləm, quldur deyiləm,
Zərrəcə gözüm yox dünya malında.

Adın var qəlbimin hər yarasında,
Bir eşq ağacıyam, barım sevgidi.
Az-çox hörmətim var el arasında,
Qazancım sevgidi, varım sevgidi.

Özümü görürəm sənin gözündə,
Salmısan qəlbimi oda, bilirsən.
Bircə günahım var bu yer üzündə, –
Səni sevməyimdi o da, bilirsən…

Ocaq çatanlar var mənim ahımdan,
Gölməni tay tutma dəniz sevgimə.
Tanrı özü keçsin qoy günahımdan,
Xeyir-dua versin təmiz sevgimə…

**20.07.2012**
**Ramazanın ilk günü**

## MƏNİM DÜŞÜNCƏM

İçimdə arzular
köz kimi işarır
həsrətli baxışların
yadıma düşüncə.
Qaranlıq qəlbimi
ay kimi nurlandırır
fikrim, düşüncəm…
Gözlərim önündən
səninlə birgə qalxdığım dağlar,
səninlə birlikdə köksündən
su içdiyim dərələr keçir.
Gözlərim önündən
nə qədər könül oxşayan
mənzərələr keçir.
Həmişə məəttəl qalsam da
dünyanın işinə,
Zəngin bir insana
çevrilmişəm
düşünə-düşünə…
Fikirlərimə borcluyam
istidə töyşümürəmsə,
soyuqda üşümürəmsə.
Sahibinə çevrilmişəm onun
nəyi düşünmüşəmsə,
kimi düşünmüşəmsə…
Mənim ürəyim
bəzən gümanlar,
bəzən şübhələr,



dumanlar içindədi.
Ancaq nə yaxşı ki,
mənim düşüncəm
Dünyanı gözəlləşdirmək
gücündədi…

**01.01.2013**

## HƏYAT GÖZƏLDİ

İçimi isidib odlu busələr,
Bəxtəvər olmuşam yenə bu sabah.
Şükür bu yağışa, şükür bu selə,
Şükür qəlbimdəki şirin əzaba!

Yarpaqlar saralıb, güllər solsa da,
Payızın bəzəyi qızıl xəzəldi.
Nə qədər acısı, dərdi olsa da,
Yaşamaq şirindi, həyat gözəldi…

**24.01.2013**

***

Payız xəzan qoşunuyla
meşələrə, bağlara
hücüm çəkdi.
Ağacların
yarpaq gözlərinə
əvvəl sarılıq,
sonra zülmət çökdü…

**22.01.2013**

## SEVGİ VƏ ÖLÜM

İkisi də
gözlənilmədən gəlir,
ikisi də yaza,
qışa baxmır! –
Ölüm də,
sevgi də
yaşa baxmır…

**22.01.2013**

## ŞƏRQ VƏ QƏRB

Şərqdən dünya başlayır,
Qərbdə dünya qurtarır.
Tanrı batan günəşi
Yenə Şərqə qaytarar…

**14.07.2013**

## GÜNƏŞ

Günəş nur saçan zaman
Görən nələr düşünür?
Bu qocaman dünyada
Təkcə günəş üşümür…

**2013**



## SÜKUT

Qulaqlarımı deşir
Sükutun səsi.
Bütün varlığımı titrədir
Sükutun nəğməsi…

**23.01.2013**

***

Sevgi üfüqlərində
Ümidlər puçur-puçur.
İnsan qanadla deyil,
İnsan arzuyla uçur…

**2013**

***

Sevirəm gecəni, qaranlığı mən,
Dolur asta-asta yuxu gözümə.
Günəşin halına acıyıram mən,
O yazıq həsrətdi gecə üzünə…

**29.01.2013**

***

Baharın ilk günü
Şabran meşəsindəki
ilk bənövşələri dərdim.
Daha mənim nə dərdim?!

**21.03.2013**



Köçərli adına Respublika Uşaq KİTABXANASI İNV. №

***

Dirinin ölüyə,
ölünün diriyə
nə minnəti?!
Fəxri xiyabanı
hökumət seçir,
Allahdır seçən
Cənnəti…
Əbədi ayrılığa
dözə bilməyənlərin
kirpikləri həmişə nəmdi.
Bu xiyabanın üstünün
Cənnət kimi
görünməyinə baxma,
Altı bəlkə də
Cəhənnəmdi…

**23.01.2013**

***

Bilirsən ki,
vədəsiz qırılan fidan
yenidən boy verib,
bitən deyil. –
Bu ağrılar, acılar
ürəyimdən itən deyil.
Vətəni qorumayan əsgər
əsgər deyil,
Əsgəri qorumayan vətən
vətən deyil…

**27.04.2013**



## CANGÜDƏN

Canı bir qəpiyə dəyməyənin
bir dolu cibi,
bir də gödəni var.
Canı bir qəpiyə dəyməyənin
bir alay cangüdəni var…
İstəyirəm ki,
yolumun üstündən
tikanları, qanqalları
təmizləyim.
Ancaq heç kəsdən,
heç kimdən qorxum yoxdu,
Çünki mənim cangüdənimdi
kasıblığım, təmizliyim…

**12.01.2013**

***

Elə bil uçqunun
altında qalmışam,
elə bil dünya
başıma uçub.
Yerin üstündə özümə
yer tapa bilmirəm,
Elə bil bir nəhəng quş
yeri caynağına alıb uçub…

**2013**

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 87222

## TÜLU, QÜRUB

Baba ilə nəvə
üz-üzə durub –
Biri tülu,
biri qürub...

19.10.2013

## QÜRUBLA SÜBH ARASINDA

Bizim sevgi günəşimiz
Qüruba enir, qüruba.
Sənsiz bir möhtəşəm şəhər
Elə bil qalıb xaraba.

Çiliklənmiş bir ayna var
Qəlbimin hər parasında.
Zülmətli bir gecə durur
Qürubla sübh arasında.

Göydə ulduzlar da qorxur
Canımdakı vicvicədən.
Daha mənə zaval yoxdu
Çıxa bilsəm bu gecədən...

26.03.2014

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 87822



***

Bir gün gələn
Bir gün getməlidi –
Ağılsız adamlar isə
əcəldən qaçmaq istəyirlər.
Qocaldıqca adamların ayağı
yer tutmur,
Ona görə də onlar
göyə uçmaq istəyirlər...

29.12.2013

## NƏVƏLƏR

Evin sakitliyinə,
sükunətinə
Qan uddurur nəvələr.
Babalara, nənələrə
Qocalığı, tənhalığı
unutdurur nəvələr...

20.04.2014

## TƏNHALIQLA BAŞ-BAŞA

Əbədiyyətə qədər
uzanacağına inandığım yol
qəflətən qırıldı
çəkilib tarıma...

Yenə də yol ayrıcında
tənhalığımla baş-başayam…
Sona qədər mənimlə
gedə bilməyənlərin acığına
yaşayam gərək,
sevdalı bir ömür yaşayam!

**23.07.2012**

## QƏM

Qəm –
körpə bir sevincin
bələyidi.
Qəm –
səngimək bilməyən
həsrət küləyidi…
Qəm –
üstünə xatirələr yazılan
kino lentidi.
Qəm –
sevinc heykəlinin
postamentidi…
Qəm –
Sevgi kəhkəşanının
şəfəq saçan ulduzudu.
Qəm –
sevincin duzudu…

**30.12.2013**



***

Acizik,
Quluq,
Bəndəyik! –
Ay aman,
biz nə gündəyik?!
Heç birimiz
açmağa qadir deyilik
Ömrümüzə vurulan
bu düyünü.
Elə bil böyüklərimizi
itirdiymiz üçün
Dünya da itirib
öz böyüklüyünü…

**12.01.2014**

***

İynədən barmaq qoruyan
Bir adi üskük deyiləm.
Heç kimdən artıq deyiləm,
Heç kimdən əskik deyiləm.

Mənim də tale ülkərim,
Mənim də günüm, ayım var.
Mənim də ağrım, əzabım,
Mənim də sevinc payım var.

Hamı kimi yaşayıram,
Demirəm nadir insanam.
Ömrüm boyu əyilmədim,
Qüdrətli, qadir insanam...

**18.05.2013**

## ŞAHDAĞI ŞAHLIQ ELƏYİR

Şahdağı şahlıq eləyir
Dağların boy sırasında.
Bazardüzü birincidi
Zirvələrin arasında.

Ancaq bu dağ öyünməsin –
Min qalalı, bürclüdü o!
Söykəndiyi dərələrə,
Təpələrə borcludu o...

**10.10.2013**

## ZİRVƏDƏN O YANDA

Hər yarpaq töküləndə
Bir boy ucalmışam mən.
Körpə bir uşaq idim,
İndi qocalmışam mən.



Ömrün zirvəsindəyəm,
Bu nə dərd, bu nə qürur? –
Bu zirvədən o yanda
Dərin bir ümman durur...

**10.11.2013**

***

Necə qalxdım bu yolu? –
Zirvədən baxmaq xoşdu.
Başım fikirlə dolu,
Qəlbim isə bomboşdu...

**17.11.2013**

***

Bakıya güllər gəlib,
Bakıda güllər qərib...

**2012**

## KÖHNƏ İL

Sağ ol, köhnə il,
Yetirdin məni
Təzə ilə.
Bilmirəm
necə dil tapacam
təzə ilə?!

**2013**

## AT BELİNDƏ

Çox şükür, son qoyuldu
Qəlbimdəki əzaba.
Köhlən atın belində
İl gəldi çapa-çapa…

Göydə uçur fişənglər –
Bir çölə bax aynadan!
Gərək bu at ilində
Özüm də at oynadam…

Gərək əyiləm, yatam
Köhlənimin yalına.
Düz çapa-çapa gedəm
Zəngəzur mahalına…

Köhlən atın belində
Bilirsən necə şadam?!
Adlayıb Həkəridən
Üz tutum Bərgüşada…

Çardaxlıdan keçərək
Çapım Qızıldaşacan.
Düşmənlərin başına
Yağacaqdır daş haçan?



Üz tutum Qarabağa,
Şuşanın gülsün üzü.
Kəhərim kişnəyəndə
Kövrəlsin Cıdır düzü…

Hənirim dərələrə,
Dağlara nəfəs versin.
Mürgüləyən qayalar
Nal səsinə səs versin.

Qərib evlər, məhlələr
Dilə gəlsin, danışsın.
Ocaqlar at nalından
Qopan qora alışsın.

Doğma adamlar üçün
Qəribsəyib bulaqlar.
Qəribsəyib yamaclar,
Qəribsəyib bu dağlar…

Ay aman, bu çəməndə
Necə gözəl qoxu var!
Bu yerlərdə at çapan
Babaların ruhu var.

Qoy bizə kömək olsun
Ulu Allah – Yaradan!
At muraddı, xalqımı
O yetirsin murada!

**01.01.2014**

## BUZ SARAY

Bezmişəm şaxtalı qışdan,
Ömrümdə yaz haçan olar?
Buzdan saray tikən kəsin
Sevinci yazacan olar…

09.01.2012

## NİYƏ DONUB NİYAQARA?

Yenə Şaxta,
Qalxıb taxta.
Şəlaləni salıb bəndə,
Çaşbaş qalıb
aciz bəndə.
Düşünür ki,
bu kükrəyən
Niyaqara,
təslim olub
niyə buza,
niyə qara?!
Ay aman,
şəlalə donub,
Qış sudan
buz heykəl
yonub…

10.01.2014



## QAR YAĞANDA

Qar yağanda göylərdən
dünya bəmbəyaz olur,
Ruhumuz qanadlanıb
uca dağlara uçur.
Qış şahlıq edəndə də,
ürəklərdə yaz olur,
Qəlbimizdə təptəzə
arzular çiçək açır…

14.01.2014

## ƏDALƏTLİ QIŞ

İmkanlılar maşına minib
şütüyürdülər
Şahdağın ətəyində
bardaş quran
qışın yanına.
İmkansızlar isə
həsrət-həsrət baxırdılar
qarlı mənzərələr göstərən
televiziya ekranına…
Qış gördü ki,
hamının imkanı çatmır
qalxmaq üçün Şahdağına, –
Özü enib gəldi
həsrətlilərin yanına…

04.02.2014

***

Od yağır göylərdən,
Quraqlıq səngimir.
Bu dünya elə bil
Dəyişib rəngini.

Soluxan güllərin
Nur gəlir gözünə.
Bu yağış dünyanı
Qaytarır özünə...

2014

***

Mən məni sadəlövh
sananlara baxıb,
xısın-xısın gülürəm...
Mən nəyə qadir,
nəyə layiq olduğumu
hamıdan yaxşı bilirəm.
Könül səltənətimdə
qurduğum uca sevgi qalasını
ala bilən olmayıb hələ.
Qəlbimin sehrli sarı simində
sevgi nəğməsi çala bilən
olmayıb hələ...

26.01.2014



## PAYIZIN ÇƏKDİYİ AH

Elə ki, saralan budağa baxdım,
Həsrət sarılığı köksümə axdı.
Öndə ayrılıq var, öndə tufan var,
Xəzəllər payızın çəkdiyi ahdı...

2014

## ULDUZLAR

Ulduzlara baxıb
ah çəkirəm –
Görəsən onların
hansı sevgilim,
hansı yarımdı?!
Bəlkə bu ulduzlar
çiliklənib göylərə səpilən
arzularımdı?

26.03.2014

***

Atalar deyir ki,
ovu bərədə vurarlar.
Fikir gələndə
hər işi atıb,
yazmağa dururlar...

26.03.2014

## ALLAHIN SEVGİ PAYI

*Ürək oxuyanda oxumaq ayıb olan işdirmi? Göylərdən insana Allah vergisi kimi göndərilən məhəbbət günah sayıla bilərmi?*

**Çingiz Aytmatovun «Gün var əsrə bərabər» romanından**

Qocalıq məni haqlasa da,
hələ düşməmişəm can hayına. –
Necə biganə qalım axı
Allahın sevgi payına?!
Bu yaşda məni
Sevgi haqladı! –
Nahaqdan özünüzü
yormayın,
Sevgi Haqladı…
Ürəyim –
Sevgi nəğməsi ötən
qırıq bir neydi.
Heç kəs qadir deyil
İlahi duyğuların üstünə
kölgə salmağa!
Məhəbbət də
təbii fəlakət kimi bir şeydi –
Bəndənin gücü çatmaz
onun qarşısını almağa…
Heç kəsin haqqı yoxdu
Məndən haqq-hesab
soruşmağa!



Məhəbbət –
Tanrı işidi,
Bəndənin nə haqqı var
Allahın işinə qarışmağa?!

**12.02.2014**

## BUNDAN DA GÖZƏL ÖMÜR OLURMU?

Çox şükür,
bu dünyaya gəlib,
mən özüm-özümü tanıdım!
Babalarım, nənələrim
əslim-kökümdü,
Nəvələrim –
qolum-qanadım!

Bu dünyada
vardır mənim də
öz evim-eşiyim.
Göylər mənim
ulduzlu seyrəngahımdı,
dəniz mənim
nəğməli beşiyim…

Dağları, dərələri görəndə
Az qalıram
qanad çalıb uçum!
Gözəllik önündə

qəlbim əsirsə,
mənim nə günahım,
mənim nə suçum?!

Çox şükür,
bu həyatda vardır
mənim də öz yerim,
mənim də öz çəkim!
Bundan da gözəl
ömür olurmu ki,
mən onun həsrətini çəkim?!

**09.07.2014**

## ŞAİRDƏN YAŞ SORUŞARLAR?!

Bardaş qurub bəbəyimdə,
Heç gözdən yaş soruşarlar?
Daş qədrini qaya bilər,
Kəsəkdən daş soruşarlar?

Gilənara nar deyirsən,
Ağ çiçəyə qar deyirsən,
Neçə yaşın var? – deyirsən, –
Şairdən yaş soruşarlar?!

**20.04.2014**



***

Mən tarixin o başından
Süzülüb gələn işığam.
Saçım-saqqalım dümağdı,
Elə bilirəm uşağam...

Mənim yaşımı soruşma,
İşığın yaşı olmur ha!
İçində sevgi yaşayan
Ürəyin qışı olmur ha!

**15.06.2014**

***

Arzularım cilvələnir
həsrət gölündə.
Bir də əlim yetməyəcək
ötən yaza, bilirəm.
Yaxam qalıb
üstündə cızmaqara elədiyim
kağızların əlində –
Nə cırıb ata,
nə də şeir yaza bilirəm...

**2014**

## NEÇƏ Kİ GÖZ YAŞI VAR

Qəlbimdəki sevginin
Milyon-milyon yaşı var.
Mənim bəxt üzüyümün
Xoşbəxtlik tək qaşı var.

İlləri verdim yelə,
Ömrümü vurdum selə.
Ən hamar yolun belə
Kəsəyi var, daşı var.

Simsiz kaman, tar olmur,
Hər budaqda bar olmur,
Həmişə bahar olmur,
Ömrün yazı, qışı var.

Göz yaşım çiçək-çiçək,
Har damlası bir çiçək!
İnsanlıq ölməyəcək,
Neçə ki göz yaşı var!...

**09.07.2014**



***

Bu dünyada nə varsa,
Ulu Tanrının işidi. –
Rəng –
gözlərin,
Dad –
dilin-dodağın,
Qoxu – ciyərlərin,
Səs –
qulaqların bəxşişidi...

**2014**

## HƏYATIN ƏSL LƏZZƏTİ

Sən daddıqlarını
Biz də dadmışıq,
Sənin kimi
Biz də murada çatmışıq!
Gəncliyinlə mənə yandıq vermə! –
Çəkməyə vaxtım da yoxdu
ötən günlərin xiffətini!
Hələ baba-nənə olmamısansa,
Deməli dadmamısan
həyatın əsl ləzzətini!...

**09.07.2014**

## ŞEİR BULUDU

Ağrılar, əzablar –
Şeir bulududu,
Qızılı şimşəklər –
Hicran qamçısı...
Vərəqlər üstündə
Həsrət çiçəklərinə dönür,
Bu yağışın hər damcısı...

**31.07.2014**

***

Yamanca kövrək olmuşam
Yaşın bu çağında,
bu vədəsində.
İndi duyğular,
düşüncələr
seli çağlayır
Xatirələr vadisində...

**12.06.2014**

***

Ötən günlərə
Çevirmə arxa:
Bir də gələcək
Su gələn arxa...

**25.03.2014**



## ELDAR BAXIŞA MƏKTUB

Çürüyən qəlbinə dərd salıb naxış,
Nə sözün başını bulayanlara? –
Qəbrin çatladımı, ay Eldar Baxış,
Dostun qardaş imiş balayanlara?!

Millətin adını ləkələyənin
Düşmən ocağında büstü var imiş...
«Kür-Araz deyərək kəkələyənin»
Başqa kəkələyən dostu var imiş...

Bizə də iş açdı «bu işdən keçən»,
Məktubun arxivə atılıb sənin.
Dostun da «hampadan, keşişdən keçən»
Sağalmaz azara tutulub sənin.

Yenə dodağını kəsməsin dişin,
Bu da Zori kimi «zoğallayırmış».
Bu da dalda yerdə «qara keşişin
Qara zurnasını sığallayırmış»...

Satqını tanıyır, millət oyanıb,
Hamının gözündə hiddət közərmiş...
Dostun Xocalını viran qoyanın
Əlindən öpməyə məqam gəzirmiş...

Bu yağış gözümün hiddət yaşıdı,
Təmanna umurdun sözün safından.
Şərəfli bir çoban min pay yaxşıdı
Şərəfsiz «dahi»dən, «söz sərrafı»ndan.

Vətən qeyrətiylə alovlanırdın,
Görəcəkli günlər qarşında imiş.
Zori Balayanı düşmən sanırdın,
Düşmən ocağının başında imiş...

Sözləri uydurma, yazdığı yalan,
Ona təsir etmir qoruq-qadağa.
Böyük bir budağın övladı olan
Kiçiklik edərmiş kiçik budağa!

Çevrilib kiminsə oyuncağına,
Dığa-mığaları başına yığıb.
Sənin kəndlərinə yiyə çıxana,
Sənin əziz dostun havadar çıxıb.

Axır ki, açıldı onun kələyi,
Kürkünə bit saldı xalqın üsyanı.
Ziyaya, Xəlilə rişxənd eləyib,
Başına and içir Matovesyanın.

Namərd diri-diri dəfn edib bizi,
Layiqdir gədələr xırxalanmağa.
Arxadan zərbələr məhv edib bizi,
Adam da qalmayıb arxalanmağa!



Xəyanət görəndə dünya dağılar,
Torpağın altından gözün parladı.
Atanın qəbrini harın dığalar,
Müqəddəs ruhunu «dost» murdarladı.

Hirsini yuyarmı dəli bir yağış? –
Gəlir üstümüzə bir qara kölgə.
Qəlbin daş olubmu, ay Eldar Baxış,
Sən də «daş yuxular» görürsən bəlkə?!

Bir gün doğanaqdan keçəcək örkən,
Bəlkə «əziz dost»un gəldi yanına.
Millətin üzünün suyunu tökən
Su tökür erməni dəyirmanına.

Bir bayquş ulayıb səsini yaydı,
Yudu içimizi hiddət yağışı.
Zori Balayanın gözləri aydın,
Qəbrinə od düşüb Eldar Baxışın...

**02.02.2013**

***

Bir toppuş
küçüyümüz var idi,
özümüzə hürə-hürə
it oldu.
Boynundan o qədər
orden-medal asdıq ki,
gözlərimizdə büt oldu.
Bu it oğlu it,
Bu büt oğlu büt
bir gün
özümüzü qapdı.
Qonşu köpəklərlə
həvirləşib,
rahatlıq tapdı.
Ancaq unutdu ki,
yatdığı qayanın kölgəsində
görəndə hərzə-mərzə
daş yuxular,
Ana torpaq lərzəyə gələr,
üstünə daş yıxılar...

02.02.2013

***

Neçə ki var haqsızlar,
İçimdəki haqq sızlar...

30.12.2013



## BÜLBÜL VƏ BAĞA

Bülbüldü gözəllik verən
bağa ! –
Bilmirəm onu necə
xoşbəxt eləyə biləcək
çanaqlı bağa?!
Çanaqlı bağa
öz sevgilisinə
çanaq axtarır,
Qanadlı bülbül isə
qonmağa ən uca
budaq axtarır...

11.01.2013

***

Bir söz deməmişdən əvvəl
Gərəkdir adam düşünə.
«Romanım, əsərim» deyib,
Elə döyürsən döşünə.

Sənin yazdığın kitabın
Nə cildi var, nə varağı.
El demişkən, utanmasan
Oynamağa nə var axı?!

27.04.2013

***

Zatıqırıq olan kəslər
Halal-haram nədir,
bilməz.
Vəfalıya könül bağla,
Qədirbilməz
Qədir bilməz!

2013

**YANĞIN**

Baxanın gözü,
danışanın sözü yanır.
Əvvəllər qiymətlər
od tutub yanırdı,
indi bazarın özü yanır…

02.02.2014

**XARİCDƏN GƏLƏN DANA**

*Eşitdim ki, xaricdən ölkəmizə xeyli dana gətiriblər.*
*İstər-istəməz xəyalımdan bu misralar keçdi:*

Kimin kimliyi bilinir
Bürünsə də min bir dona.
Bizdə danamı az idi,
Ay xaricdən gələn dana?!

14.06.2013



**HEYVAN HEYKƏLLƏRİ**

Üzü Nabrana
sarı gedirəm,
Bu, yol
Xaçmaz yoludu.
Şəhər dəvə ilə,
atla, pələnglə,
şirlə, ceyranla,
maralla doludu…
Təbiəti qorumağın
gərəkliyini
gec də olsa
duymuşuq.
Heyvanları öldürüb,
onlara heykəllər
qoymuşuq…

30.07.2014

***

Bilmir ki, bu millətin
Bir gün səbri dolacaq? –
Yüz yerdə villası var,
Bircə qəbri olacaq?!

30.08.2014

# TÜRKİYƏDƏ KEÇƏN GÜNLƏR

***

Məni göyüm-göyüm
göynətsə də,
artırıb yaşamaq eşqimi,
yaşamaq gücümü həsrət.
Çölümü cənub günəşi yandırır,
içimi həsrət....

**06.07.2012**
**Bodrum, Göltürkbük**

***

Çox şükür,
dağlarla qolboyun olan
bu dənizin gözəlliyini
yaddaşıma yığa bilirəm.
Hər şeyə, hər yana
içimdəki sevginin gözü ilə
baxa bilirəm.
Ətrin ciyərlərimə dolduqca
təbəssüm çiçəkləyir üzümdə.
Sənsən bu dünyanı
gözəlləşdirən gözümdə...

**06.07.2012**
**Bodrum, Göltürkbükü**



***

Görəsən niyə
bu yerin adını qoyublar
Göltürkbükü?
Burada gölmü
dağı büküb,
dağmı gölü büküb?
Gəmilər düymə kimi
düzülüb Egeyin yaxasına.
Dəniz xəncər kimi girib
dağın sinəsinə,
dağ yumruq kimi dirənib
dənizin boğazına....

**06.07.2012**
**Bodrum, Göltürkbükü**

## TANRININ SALDIĞI YOL

Dağlarla qol-boyundu,
Təbrik edin Egeyi.
Ayrı rəngi bəyənmir,
Masmavi bir don geyir.

Həm duru, həm duzludu
Suyu göz yaşı kimi.
Xoşbəxtdi, bəxtəvərdi
Egeydə üzən gəmi.

Nə hamardı su yolu,
Nə rahatdı su yolu.
Heç nə dağıda bilməz
Tanrı çəkən bu yolu…

Gəmilər ora üzür,
Gəmilər bura üzür.
Elə bil çiçəkləyib,
Bizim Egeyin üzü…

**07.07.2012**
**Bodrum, Türkbükü**

## DALĞALI EGEY

Egeyə bax, Egeyə,
Adamı heyran qoyur.
Dalğalı olsa belə,
Bulanmır onun suyu.

Yüngül dalğa yaradıb
Hərdən əsən küləklər.
Elə bil göy çəmənə
Qonub ağ kəpənəklər…

**08.07.2012**
**Bodrum, Türkbükü**



## QƏRİBƏ QƏDƏH

Türkbükündə dənizə
Uzanan yarımada,
Bir qədəhə bənzəyir,
Heyrətə gəlir adam.

Egeyin suyu duzlu,
Egeyin suyu təmiz.
Bir qədəhə sığarmı
O boyda mavi dəniz?!

**08.07.2012**
**Bodrum, Türkbükü**

***

Ürəyimdə sevgi
şahlıq eləyir,
Gözlərimdə həsrətin
gecələyib.
Ciyərimə hopan ətir
buradakı bütün çiçəklərin,
güllərin qoxusunu
heç eləyib…

**10.07.2012**
**Bodrum, Türkbükü**

***

Quş kimi
qanad açanda,
Təyyarədə uçanda
sənə dua elədim.
Dənizdə üzəndə,
Sahildə gəzəndə
sənə dua elədim.
Elə bilmə ki,
təkcə sözlərimdə
sənə dua var. –
Yollara dikilən
gözlərimdə
sənə dua var.
İçimdə boğulan səsdə
sənə dua var.
Çəkdiyim nəfəsdə
sənə dua var.
Ancaq arada
xəyanət olsa,
çətin ki, müstəcəb ola
elədiyim dualar…

**11.07.2012**
**Bodrum, Türkbükü**



## VƏTƏNDƏ QƏLBİMƏ ÇƏKİLƏN DAĞLAR

Gizli bir xəyanət köksümü dağlar,
Dərdə sirdaş olan qəlbim darıxmır.
Vətəndə köksümə çəkilən dağlar,
Məni qürbətdə də tənha buraxmır.

Çətin ki, qurtara əlimdən yaxan,
«Dürrü» nə vaxtacan qoruyacaqsan?
Mənim ürəyimi yandırıb-yaxan
Sirri nə vaxtacan qoruyacaqsan?!

Mənə dinclik vermir namərd suallar, –
Kimin ayağına verdin sən kimi?
Qəlbimdən didərgin düşdü son bahar,
İçimdə ağrılar bir an səngimir…

Nəyə qadirmişsən? – Mürgüdən oyan!
Yalanlar duz basdı könül yarama.
Səni mənim kimi anlayan, duyan,
Səni mənim kimi sevən arama!

«Sevirəm» gül kimi bitib dilində,
Necə inanırdım, gülüm, sənə mən?!
O boyda sevginin müqabilində,
Bu boyda yaralar vurdun sinəmə…

Simsar sanırsansa özünə məni,
Niyə aramızda sirr qalasıdı?
Hələ də anlaya bilmirəm səni,
İçin açılmamış sirr qalasıdı...

11.07.2012
**Bodrum, Türkbükü**

## MİN ŞÜKÜR

Quşlardan ucada
uça bilirəmsə,
balıqlarla birlikdə
üzə bilirəmsə,
dərələri, dağları,
meşələri, bağları
gəzə bilirəmsə,
Buna da min şükür!

13.07.2012
**Bodrum, Türkbükü**

## KİM OLACAQ

Elə bilirdim ki,
qəlbinin qırxıncı otağı
mənə məxsusdu;
Məndən sonra
ikinci, üçüncü «sahib»ləri
görüb, susdum...



Bu qədər ki, səxavətlisən,
içində daim əkin-biçin,
şum olacaq, «əzizim»!
Qəlbinin qırxıncı otağının
qırxıncı sahibi
kim olacaq, «əzizim»?

14.07.2012
**Bodrum, Türkbükü**

## QÜRBƏTDƏ VƏTƏN AĞRILARI

Mənim ürəyimdə matəmdi,
kiminsə ürəyində toydu.
Ağrıları içimdə
istirahətə gətirdim;
nə özü dincəldi,
nə məni dincəlməyə
qoydu...

14.07.2012
**Bodrum, Türkbükü**

## AĞRI TOXUMLARI

Səpdiyin ağrı toxumları
çox saf,
içimdəki «torpaq» isə
münbitdi.
Təki sən bəxtəvər yaşa,

mən bitdim,
mən bitdim...
Sevinc gözləyirdim,
qəm bitdi...

**14.07.2012**
**Bodrum, Türkbükü**

***

Arabir hicran külələkləri
əssə də,
bilməzdim aramızın
bu qədər
sərin olduğunu.
Qəlbimə elə yaralar
vurmusan ki,
təsəvvür eləyə bilməzsən
onların nə qədər
dərin olduğunu...
Gör kimə bərabər tutdun
əlimə su tökməyə belə
layiq olmayan
nadanın birini?
Heç nə, heç nə
doldura bilmir
o yaraların yerini...
Elə bilirdim ki,
məndən başqa kimsənin
fəth eləyə bilmədiyi qalasan.
Bilməzdim ki,
kimdənsə «intiqam» almaq üçün



qəlbinin qırxıncı qapısını da
ona qurban verməyə
qadir olasan.
Sən israrla sussan da,
suallarıma cavab istəyəcəyəm.
O dünyada belə
yaxandan yapışıb,
səndən haqq-hesab istəyəcəyəm...

**14.07.2012**
**Bodrum, Türkbükü**

## SEVGİ ZƏMİSİNİ BİÇƏN SUALLAR

Səndən cavab istəyəndə
acığın tutur;
elə sanırsan ki,
bilmirəm sözümün
məqamını, yerini.
Yaranı təmizləyib
sağaltmaq üçün
çıxarmaq lazım deyilmi
içindəki laxta qanı, irini?
Bilirsən qəlbimdə sənə veriləsi
nə qədər sual var? –
Hərəsi bir əyri orağa dönüb,
içimdəki sevgi zəmisini
biçir suallar...

**14.07.2012**
**Bodrum, Türkbükü**

## BODRUMDA TİKİLƏN EVLƏR

Dağların üstündə tikilən evlər
xələl gətirmir dağın dağlığına;
Elə bilirsən ki,
onun sinəsindəki
yalçın qayalardı
baxanda bu binaların
hamısının bəyazlığına –
ağlığına...

14.07.2012
**Bodrum, Türkbükü**

***

Sahildə dayanıb
nə yerə baxıram,
nə göyə;
Heyrətlə, sevgiylə
Egeyə baxıram, Egeyə! –
Yaddaşıma füsünkar
mənzərələr köçür.
Sahildə arabir
dalğa yaranırsa,
deməli yaxınlıqdan
iri gəmilər keçir...

14.07.2012
**Bodrum, Türkbükü**



## TƏYYARƏDƏN BAXIRAM

Təyyarədən İstanbula baxıram –
Varmı bu şəhərin bənzəri?
Üzərindən əskik olmasın
Tanrının nəzəri...
Qara dənizin üzünü
bəmbəyaz yaxtalar,
gəmilər bəzəyir.
Onlar dənizin üstünə qonan
kəpənəklərə bənzəyir...

22.08.2013
**İstanbul**

***

Təyyarədən
aşağıya baxıram
ağ-ağ buludlar elə bil
qara bələnmiş dağlardı...
Pambıq tayalarını xatırladan
bu qədər buludu əyirsən,
bütün dünyaya
bəmbəyaz köynək
toxumaq olardı...

22.08.2013
**İstanbul**

***

Sanki Egey
məni görəndə sevinir,
Dalğalar –
mizrab küləklərin çaldığı
bəyaz simdi elə bil.
Ləpələr –
dənizin dodağında
təbəssümdü elə bil…

**22.08.2013**
**Marmaris**

***

Yolları var dolama,
Gözəl yerdi Dalaman.
Gərəkdir bu yerləri
Xəyala dalam, anam!
Yolum bir də düşəcək
Bəlkə də Dalamana…

**22.08.2013**
**Dalaman**

***

Yola çıxan
gəmilər,
Gözlərimi
nəm elər.



Göz oxşayan
Marmaris,
Qəlbə salar
mərmər iz.

Yada düşsə
İçmələr,
Həsrətimdən
İç mələr!

**22.08.2013**
**Marmaris**

## İÇMƏLƏRƏ GEDƏN YOL

Marmarisdən İçmələrə gedən yol,
Səfər boyu məni heyran edən yol!

Sağda dəniz, solda yaşıl meşələr,
Göz oxşayan mənzərələr, guşələr.

Uca dağlar lövbər salıb dənizdə,
Meşələrin gözü qalıb dənizdə.

Nazlı-nazlı cilvələnir ləpələr,
Elə bil ki, yuxu görür təpələr.

Lal sükutu çıxıb yoxa dağların,
Sanki olub qəlbi yuxa dağların…

Dəniz mavi, meşə yaşıl, güllər al,
Gözəlliyin qarşısında güllər lal.

Hey uzanar İçmələrə gedən yol,
Məni heyran, məni məftun edən yol.

Nə yaxşı ki, taleyimdən küsmədim,
Bu yerləri görmək oldu qismətim...

**22.08.2013**
**Marmaris**

## SEVGİ DİLİ

Eyni dili var
gülüşün, təbəssümün.
Eyni dili var
baxışın, təmasın...
Sən sevgiyə tamarzı,
Mən sevgiyə tamarzı.
Sən görüşə tam hazır,
Mən görüşə tam hazır...
Təkcə sevənlər bilir
Məhəbbətin dilini.
Sevgi dəli eləyir ağıllını,
Sevgi ağıllı eləyir dəlini...

**22.08.2013**
**Marmaris**



***

Marmarisi gözəlləşdirən
təkcə bir-birindən gözəl
guşələr deyil.
Marmarisi gözəlləşdirən
təkcə mavi dəniz,
təmiz hava,
uca dağlar,
sıx meşələr deyil...
Marmarisi gözəlləşdirən
dünyanın hər yerindən gələn
sevdalı insanlardı.
Marmarisdə elə bil ki,
həmişə bahardı...

**22.08.2013**
**Marmaris**

## MİN İLLƏRDİ

Min illərdi heç nə tükənmir,
Min illərdi qurd durur,
qoyun durur...
Şimal adamları
bərk-bərk geyindirir,
Cənub adamları
çılın-çılpaq soyundurur...

**22.08.2013**
**Marmaris**

## İNDƏN BELƏ

Təyyarəylə süzə-süzə,
Arabayla gəzə-gəzə,
Gəmi ilə üzə-üzə
Gəlib çıxdım Marmarisə…
İndən belə zaval yoxdu
Qəlbə düşən mərmər izə…

**22.08.2013**
**Marmaris**

## DİMDİK-DİMDİYƏ

İki bülbül dayanıb
dimdik-dimdiyə.
Dünya ilahi nəğməyə bələnir
Dəyəndə dimdik dimdiyə…

**24.08.2013**
**Marmaris**

## CƏNNƏT ADASI

Gəmi ilə Marmarisdən
Cənnət adasına üzdük.
Dörd yanı ləzzətlə,
heyranlıqla süzdük.



Ancaq heç bu ada
o qədər də seçilmirdi
digər adalardan.
Doğrusu, baş açmıram
adalara ad qoyan
adamlardan…
Burda könül yaxır,
göz oxşayır hər yan. –
Adalara,
dənizin gözəlliyinə
baxırıq heyran-heyran…
Əslində gözəllikdi,
həyat eşqidi
qəlbimizi sevgi ilə dindirən.
Əslində insanların qəlbindəki
məhəbbətdi
hər yeri, hər yanı
cənnətə döndərən…
O yerdə ki, insan var,
sevgi var,
ora bəşər övladının
topdağıtmaz odasıdı…
Əslində Yer özü
Kainat dənizində bir
cənnət adasıdı…

**24.08.2013**
**Marmaris**

***

Yaxınlıqda olanda
Ucalığı dərk eləmək
deyil asan.
Böyük,
qəlbi dağlara
Gərək gendən baxasan...
Ağlayıb-sızlayırıq
qucaqlayıb qəbrini –
Yanımızda olanda
bilmirik
Böyklərin qədrini...

**28.08.2013**
**Marmaris**

## MARMARİS

Əbədi bir təbəssüm qonub
Bu şəhərin bənizinə.
Kişiləri
bu yerlərin
dağlarına bənzəyir,
Qadınları dənizinə...

**29.08.2013**
**Marmaris**



## EGEY DƏNİZİ VƏ DAĞLAR

Egeyi bir yol görən
Hüsnünə olar aşiq.
Dağlar ona yaraşıq,
O dağlara yaraşıq.

Yaradanın verdiyi
Mavi paydı bu dəniz.
Dağların arasında
Sanki çaydı bu dəniz.

Çırpınmağın, coşmağın
Xeyri yoxdu, duyub o.
Sanki uca dağların
Dizinə baş qoyub o.

Dağlar mühasirədə,
Dəniz düşüb kəməndə.
Özünü xoşbəxt sanır
Ay dənizdə çiməndə...

Dəniz dumduru, mavi,
Adalar yaşıl-yaşıl...
Egey dağlar qoynunda
Uyuyur mışıl-mışıl.

Dağları aşa bilməz
Kükrəsə dəniz belə!
Gözəl görünərdimi
Dağlarsız dəniz belə?!

**25.08.2013**
**Marmaris**

## İŞIQLI MAĞARA

Egeydə bir ada var,
Torpaq deyil – daş ada.
Bəzəkdi dənizə də,
Torpağa da, daşa da.

Qayanın köksü yarıq,
Burda var bir mağara.
Gecələr işıq saçıb,
Adamları çağırar.

Dənizçilər bir zaman
Onu sanıblar mayak.
Sonralar biliblər ki,
Fosforluymuş bu qaya...

Gün batanda nur saçan
Bu işıqlı mağara,
Zülmətədn qorxanları
Ağuşuna çağırar...

**25.08.2013**
**Marmaris**



## YAŞIL DƏNİZ

Bu dənizin yanında
Yaşıl bir dağ ucalır.
Bu dənizin suları
Sanki yaşıla çalır.

Dağa işıq düşəndə
Zərə bürünür dəniz.
Əksi düşür sulara,
Yaşıl görünür dəniz.

Bu dəniz ürəklərdə
Xoş duyğular oyadır.
Onu yaşıl eləyən
Sahildəki qayadır....

**25.08.2013**
**Marmaris**

## GƏLİB ÇIXDIQ MARMARİSƏ

Gəlib çıxdıq Marmarisə
Ondan-bundan sora-sora.
Burda dəniz cilvələnir,
Uca dağlar sıra-sıra.
Elə bil balığa dönüb,
Bu dənizdə nəvəm Sara.

Çox sevinir, gülür üzü,
Sudan çıxmır, üzür-üzür...
Anasının, atasının
Ürəyini üzür, üzür...
Buralar necə gözəlmiş,
Buludlar kimi dolmuşam.
Sevincimdən qanadlanıb,
Bir ağ qağayı olmuşam...

**26.08.2013**
**Marmaris**

## MARMARİSDƏ GƏZİRƏM

Marmarisdə gəzirəm
Oyanıb səhər-səhər.
Dağlara arxalanıb,
Dənizə baxır şəhər...

Yaraşıqlı binalar
Sahilləri bəzəyir.
Onlar dağın boynunda
Muncuqlara bənzəyir.

Bu nəhəng boyunbağı
Uzanır sahil boyu.
Sanki dağlar, dənizlər
Burda olub qol-boyun.



Yaşıllığa qərq olub
Uca dağlar, yamaclar.
Gəl-gəl deyir adama
Meşədəki ağaclar...

Al-əlvan boyalardan
Bir tablo yaradıb yaz.
Dəniz mavi, göy mavai,
Dağ yaşıl, şəhər bəyaz...

**26.08.2013**
**Marmaris**

## BU DƏNİZ

Bu dənizin şor suyu
Neçə gülü soldurub.
Dağa gücü çatmayıb,
Dərələri doldurub...

Bu dənizin gözləri
Yenə, yenə doymayıb.
Dağların arasında
Bircə boş yer qoymayıb.

Harda dərə görübsə,
Ora bol su göndərib.
Nəhəng-nəhəng dağları
Adalara döndərib...

**26.08.2013**
**Marmaris**

## DAĞLARA SIĞINAN DƏNİZ

Bu dəniz qorxmur gəlsə də
Havadan tufan qoxusu.
Dağa sığınan dənizin
Fırtınadan nə qorxusu?!

Əsən küləyə, tufana
Uca dağlar sinə gərib.
Egey əmin-arxayındı
Ləpələnir, nəfəs dərir…

Nazlı-nazlı cilvələnir
Nazlı-nazlı ləpələnir.
Sahildəki qayalara
Toxunaraq qəlpələnir.

Bu gözəllik baxanların
Gözlərinə işıq verir.
Dağlar dənizə, dənizsə
Dağlara yaraşıq verir…

**27.08.2013**
**Marmaris**



***

Marmaris bu dağlara,
Bu dənizə bəzəkdi.
Evlərinin hər biri
Elə bil bir pətəkdi…

Dağların yamacında
Binalar düzüm-düzüm.
Egeyə baxan zaman
Sevinir könlüm, gözüm…

Bulanmır ki, bulanmır
Bu dənizin suları.
Gün altında bərq vurur
Mavinin yüz çaları.

Çiçəklərlə bəzənib
Marmarisin bağları.
Dəniz su qollarıyla
Qucaqlayıb dağları…

**28.08.2013**
**Marmaris**

## YAYDA YIĞDIĞIM İŞIQ

Günəş işıq çiləyir
Göyün yeddi qatından.
Gah dənizdə çimirik,
Gah şəfəqlər altında.

Üzümüzdə təbəssüm
Egeyə baxırıq biz.
Sanki bədənimizə
Cərəyan yığırıq biz.

Burda udduğumuz nur
İl uzunu bəs edər.
Yayda yığdığım işıq
Qışda məni isidər…

28.08.2013
**Marmaris**

## MARMARİS GECƏLƏRİ

Göydən ulduzlar enir
Dağların qucağına.
Nurlu təbəssüm qonur
Egeyin dodağına.

Marmarisdə gecələr
Hər tərəf ürək açır.
İşıqlar yanan zaman
Sanki dağ çiçək açır…

**28.08.2013**
**Marmaris**



***

Ağ günlər müjdəsidi
Ağ dənizin busəsi.
Xatirələr oyadır,
Unutmaram bu səsi. –
Sanki şirin röyadı,
Su nəğməsi, su səsi…

**09.08.2014**
**Susesi.Bələk-Antalya.**

***

Su həyatdı,
Qayada,
Buludda
Su yaşayır…
Çayların şırıltısı
Qəlbimizi oxşayır.

Su kükrəyib daşanda
Dönür iti qılınca.
Səfərə çıxanların
Su atırıq dalınca.

Üzməyi də bilmirsən,
Bəsdi çəkdin özünü.
Belə getsə, tutacaq
Su dünyanın üzünü…

Dünya yaman dəyişib;
O getsə də,
Bu qalıb…
Nə yaxşı hələ bir az
Üzümüzdə su qalıb…

**10.08.2014**
**Bələk.Türkiyə**

## AĞ DƏNİZ

Hardasa yellər əsdi,
dalğalar şahə qalxdı,
Sanki külək gətirdi
təzə bir nəfəs sənə.
Nə özün ağsan sənin,
nə sahillərin ağdı,
Ağ dəniz söyləyirlər
nəyə görə bəs sənə?

Ümmanlar ümmanlara,
dağsa dağa bənzəyir,
Nəsə tapmaq istədim
tarixə nəzər salıb.
Tez-tez sənin qoynunu
ağ dalğalar bəzəyir,
Bəlkə də buna görə
adın Ağ dəniz qalıb…

**11.08.2014**
**Bələk.Türkiyə**



## BƏLƏK

Düzəngah, çılpaq dağlar
Bir-birini bəzəyir.
Bələk bir azca bizim
Naxçıvana bənzəyir.

Günəş qalxıb üfüqdən
Dörd yana nur ələyir.
Bələk arzularımı
Şəfəqlərə bələyir…

**11.08.2014**
**Bələk. Türkiyə**

## DAŞ VƏ ÇİÇƏK

Bir daş tapdım
Ağ dənizdən –
Üstündə çiçək
rəsmi çəkilmiş
kətana oxşadı…
O daş bir zaman
gülü duya bilməsə də,
indi onu
köksündə yaşadır…

**11.08.2014**
**Bələk. Türkiyə**

## TƏYYARƏDƏ DÜŞÜNCƏLƏR, YAXUD YERLƏ GÖY ARASINDA

Təyyarəmiz uçub gedir
Buludları yara-yara.
Buludlar qara-qara,
Fikirlər qara-qara...
Yerdən baxanda
göydəkilərə qibtə eləyirdim,
göydən baxanda yerdəkilərə.
Ucadan həsrətlə baxıram
adamlar gəzən
küçələrə, səkilərə...
Ayağım yerdən
üzülən andan
köksümdən ürəyim
qopub elə bil.
Uçduğum göylərin boşluğu
içimə hopub elə bil.
Təyyarə buludların əlində
elə bil topdu.
Onun təkərləri
yerə dəyən kimi
Alqış səsləri qopdu...
Kirpiklərimdəki sevinc yaşları
elə bil bərq vuran almazdı.
Nə yaxşı ki, yer var,
Yoxsa sığınmağa



yerimiz olmazdı...
Həyat eşqi bərq vurur
gözümün qarasında.
Çox şükür, mən də varam
Yerdə gəzən
adamların arasında...

**11.08.2014**
**Bələk. Türkiyə**

***

–Adın nədir, ay dəniz? –
Haray çəkdi, çığırdı...
Ağ dəniz elə bil ki,
Qəzəbindən ağardı...

–Ağ dəniz də deyirlər
Adıma, Aralıq da.
Ölkələr sıralanıb,
Qalmışam aralıqda.

Kin-küdurət görəndə
Bulud kimi dolmuşam.
Aralayan deyiləm,
Aralıqda qalmışam...

Hər milləti, hər xalqı
Qoynuma səsləyirəm.
Qardaşlığa, dostluğa
Çox ümid bəsləyirəm.

Dalğalanıb coşuram,
Suda sərhəd biilinməz.
İnsanlıq da dəniz tək
Sərhədsizdi, bölünməz...

**12.08.2014**
**Bələk. Türkiyə**

## ARZULAR KƏHKƏŞANI

Hey uçmağa can atır,
Ürəyim qanadlıdı.
Yaşamaq istəyirəm,
Həyat yaman dadlıdı.

Kim bilir bu dünyanın
Tarixini, yaşını?
Gözlərimdə bərq vuran
Arzular kəhkəşanı
Göylər tək ulduzludu...

Xoşbəxtlikdən bilmirəm
Heç yer nədir, göy nədir?
Dənizlərinin suyu
Gözümüzü göynədir –
Dünya yaman duzludu...

**11-12.08.2014**
**Bələk. Türkiyə**



## AĞDƏNİZLƏ ÜZ-ÜZƏ

Ləpədöyəndə dayanmışam,
Ağdəniz məni
qoynuna çağırır.
Guya mənə təslim olub,
Dalğaları ağ bayraq kimi
ağarır...
Özüm də məəttəl qalmışam
bu dənizin oyununa.
Ayaqlarımın altındakı
qumu yuyur ki,
məni dartıb apara qoynuna!
Dəniz dalğalarını
köməyəmi çağırmaq istəyir?
Guya ki,
Ağdəniz məni
ağ günə çıxarmaq istəyir...

**11.08.2014**
**Bələk. Türkiyə**

## AĞDƏNİZ, NƏ TƏMİZSƏN?!

–Ağdəniz, nə duzlusan? –
Dəniz kəsdi sözümü:
–Duzumla xəstəlikdən
Qoruyuram özümü...

–Ağdəniz, nə dərinsən?
–Dərinəm ki, təmizəm.
Dərinəm ki, əzizəm,
Dərinəm ki, dənizəm...

**11.08.2014**
**Bələk. Türkiyə**

## BƏLƏYƏ BAX

Bələyə bax, Bələyə,
Gözəl, dilbər məkandı.
Başdan-başa bazardı,
Başdan-başa dükandı...

Nə qədər mağaza var! –
Lap çaşıb qalmışam mən.
Bəs adamlar harada
Yaşayırlar görəsən?!

**12.08.2014**
**Bələk. Türkiyə**

## AĞ DƏNİZ BƏXTƏVƏRDİ

Antalyanın dağları bir gözəllik haləsi,
Əlin gəlməz bu yerin güllərini üzəsən.
Antalyadan görünmür Antalya şəlaləsi,
Onu görməkçün gərək Ağdənizdə üzəsən.



Şəlalə hey çağlayır, bir qanadlı at olur,
Baxıb mavi aynada öz füsünkar əksinə.
Şəlalə bəxtəvərdi, məhəbbətlə atılır
Qollarını gen açan Ağdənizin üstünə...

Günəş hey gülümsəyir, göylərdən nur ələnir,
Ağ yallı köhlənə bax: yerlə, göylə əlləşir.
Antalyadan baxanda Ağdəniz cilvələnir,
Ağdənizdən baxanda Antalya gözəlləşir.

Ürəklər məst olubdur çiçəklərin ətrinə,
Baxanda gözəlliyə xəyallara dalıblar.
Bu quşqonmaz dağların, Ağdənizin xətrinə
Bataqlığın üstündə gözəl şəhər salıblar...

Kim çalışsa, ucalar, kim sevirsə, sevilər,
Dörd yana boylanıram: sanki cənnət bağıdı!
Antalyaya baxıram, elə bil bəyaz evlər
Bataqlığın üstündə bitən suzanbağıdı...

Özü mavi olsa da, dalğası, duzu ağdı,
Ölkələri çağırır gözəllik yarışına.
Ağ dəniz bəxtəvərdi, özü ağ, üzü ağdı:
Şəhərləri, kəndləri toplayıbdır başına...

**13-14.08.2014**
**Antalya. Türkiyə**

## BƏLƏK BƏLƏK İÇİNDƏ

Bu gün Bələk bələnib,
Bomboz duman bələyə.
Günəş qorxur elə bil
Bu yerə od ələyə.

Heç kəs narahat deyil,
Hamı öz-iş gücündə.
Bələksə mışıldayır
Duman Bələk içində...

**15.08.2014**
**Bələk. Türkiyə**

***

Bu dünyada sevinclə qəm qoşadı,
Qəm öldürür, sevinc səni yaşadır.
Pulun varsa, hamı sənə baş əyir,
Pulun yoxsa, hamı sənə daş atır...

PS. Pul varsa, giriş,
Pul yoxsa, sürüş!

**15.08.2014**
**Bələk. Türkiyə**



## GƏMİ SƏYAHƏTİ

Gedir dağlara sarı
Gəmimiz üzə-üzə.
Ağ dəniz cilvələnir,
Hər tərəf gülür üzə.

Dağlara can atırıq
Təzə çiçək dərməyə.
Biz dənizlə üzürük,
Gur şəlalə görməyə.

Bu gözəllikdə dəniz
Sanki bəs etmir bizə.
Nəyəsə baxmaq üçün
Gedirik üzə-üzə...

**15.08.2014**
**Bələk-Antalya. Türkiyə**

## ŞƏKİL

Əslində
şəkil çəkdirmək istəyi
əbədi yaşamaq
arzusunun nəticəsidi. –
Ehtiyac yoxdu
gələcək nəsillər üçün
şəkil çəkdirməyə.

Çünki insanın
xatirə şəkli
onun övladı,
nəvəsi, nəticəsidi...

**15.08.2014**
**Bələk. Türkiyə**

***

Atalar deyib ki,
iş görənlə gördürən
yarıdır.
İnsanların əli ilə
şəhərlər,
kəndlər salan Allah
Xariqələr yaradır...

**16.08.2014**
**Bələk. Türkiyə**

## RUHLAR DİYARI

Heç nədən baş açmıram,
Çoxdan ömür yarıdır.
Mənə elə gəlir ki,
Cənnət – ruhlar diyarıdır...

**18.08.2014**
**Bələk. Türkiyə**



## GÜNƏŞ VƏ MƏN

Günəş hələ çıxmayıb,
Üfüq qırmızı-sarı.
Minib xəyal atımı
Çapıram günə sarı...

Üfüq boyu gəribdir
Öz qızıl qanadını,
Mənə doğru səyirdir
Günəş də öz atını.

Mən çapıram, o çapır,
O çapır, mən çapıram.
Başım üstə duranda
Sanki dinclik tapıram.

Tutub zər şəfəqlərdən
Qalxmaq istəyirəm mən.
Düz günəşin gözünə
Baxmaq istəyirəm mən.

Bir də görürəm günəş
Minib qızıl atına,
Gündoğandan birbaşa
Səyirdir günbatana...

Nuru bizi isidir,
Özü əlçatmaz – uca.
İndi də at çapıram
Mən onun arxasınca…

Hey çapıram, çapıram,
Çata bilmirəm ona.
Bir günlük səfərimiz
Beləcə yetir sona…

Günəş dağlar dalında
Görünməz olan zaman,
Dörd yanıma baxıram:
Həmin yer, həmin məkan…

Gün batanda, sanmayın
Elə mən də batmışam.
Baxıram ki, qayıdıb,
Evimizə çatmışam…

**16.08.2014**
**Bələk. Türkiyə**

## MÜĞƏNNİ VƏ BOŞ YER

Müğənni oxuyur,
elə bil hər şeyi unudub.
Üzünü tamaşaçılara yox,
zaldakı boş yerə tutub…
Müğəni özünü didib-tökür



boş yerə.
Oxuyur
üzünü tutub boş yerə.
Unudub ki,
insanların üzü dönükdü.
Onun təsəvvüründə
zaldakı boş yer
salonun özündən də
böyükdü…
Müğənni oxuyur,
Dağ boyda bir
həsrət yükü daşıyır
çiynində-kürəyində.
O boş yer boyda
bir boşluq var
biçarənin ürəyində…

**16.08.2014**
**Bələk. Türkiyə**

***

Sara nəsə düşünür,
Sual verməkdən doymayır.
Deyir ki,
ay baba, nə yaxşı ki,
adamın iki valideyni olur;
biri işə gedəndə,
o biri səninlə oynayır…

**17.08.2014**
**Bələk. Türkiyə**

## BU GÜN

Bu gün Ağdəniz coşdu,
Üzümüzə ağ oldu.
Fırtına qopdu birdən,
Hər dalğası dağ oldu.

Girəmmirik dənizə,
Baxa-baxa qalmışıq.
Sahildə dayanaraq
Xəyallara dalmışıq.

Belə etsən, qarşında
Çətin dura dağ, dəniz!
Əsib coşma bu qədər,
Ağ eləmə, Ağdəniz!

Sığal çəksin köksünə,
Yoxmu bir dostun, yarın?
Kaş sənin də olaydı
Öz Xəzrin, Giləvarın...

**18.08.2014**
**Bələk. Türkiyə**



# HAVADA EŞQ QOXUSU VAR

## SƏNİ MƏNƏ QAYTARACAQ BU YAĞIŞ

Zalım hicran ürəyimi didəndə
Yollarımız dirəndi sərt yoxuşa.
Mən hönkürdüm sən görüşə gedəndə,
Göz yaşlarım qahmar çıxdı yağışa.

Bu gün sən də heç deyildin özündə,
Həsrət odu ürəyimi dağladı.
Bu ayrılıq yaş qoymadı gözündə,
Buludlara qoşularaq ağladın.

Olan oldu, daha məni sən unut,
Ürəyimə qəm çökmüşdü o axşam.
Yollarına yağış səpən o bulud
Gözlərimdən nəm çəkmişdi o axşam...

Neyləyəcək bizə tale qarğışı –
Ürəyimiz bir ahənglə vuranda?
Mənim ruhum sandığın o yağışı
Göz yaşların leysan etdi bir anda.

İstəmirəm saralasan, solasan,
Qismət səni həyatıma gətirdi.
Qoymadı ki, küçədə tək qalasan,
Yağış səni evinizə ötürdü…

Bilmirəm ki, heç yer nədir, göy nədir,
Elə bilmə qurtaracaq bu yağış.
Hər damlası ürəyini göynədir,
Səni mənə qaytaracaq bu yağış

25.06.2012

## SƏNİN GÜNAHINI BAĞIŞLADIM MƏN

Görmək istəmirəm gözü nəm səni,
Ayrı ocaq çatma mənim közümdən.
Ürəyinəm sənin, gözünəm sənin? –
Baş aça bilmirəm özüm özümdən.

Sözlərim dilimin qaldı ucunda,
Əlvida deməyə dilim gəlmədi.
Yol azmış bir qızı yol ayrıcında
Tullayıb getməyə əlim gəlmədi…

Eşqin dağlarını, dərəni, düzü
Görürəm bəmbəyaz qar tutduğunu.
Sən demə kor imiş sevginin gözü, –
Buraxa bilmirmiş kor tutduğunu…



İnci asılmasa kirpiklərindən,
İnciyən ürəyim dönərdi daşa.
Sənin günahını bağışladım mən
Sənin gözlərindən çağlayan yaşa!

Sevə bilərdimmi hər bənövşəni?
Hər gül açardımı mənə qoynunu?
Bir kola sığınan tər bənövşənin
Ətri unutdurdu əyri boynunu…

Həsrətin əlində qalıbdır yaxam,
Zərif bir çiçəyə zülüm yaraşmır.
Ağır sınaqlardan sıyrılıb çıxan
Dəli bir sevdaya ölüm yaraşmır…

19.06.2012

## XOŞBƏXTLİK ZİRVƏSİ

Ruhumuz, cismimiz
bir-birinə qovuşub
elə ucaldı ki,
Daha yolumuzun üstünə
ayrılıq çıxa bilməz.
Bizim xoşbəxtlik zirvəmiz
elə ucadı ki,
bir kimsə ora
qalxa bilməz…
İnsan sevdiyinə qovuşanda
xoşbəxtlik libasına

bürünürmüş, İlahi!
O uca zirvədən baxanda
Dünya necə gözəl
görünürmüş, İlahi!!!

21.06.2012

## BİZ YENƏ DƏ GÖZ-GÖZƏYİK

Eşq gülləri açılanda
Giley-güzar xəzəl oldu.
Biz yenə də göz-gözəyik,
Dünya yenə gözəl oldu...

21.06.2012

***

Dərmək mənə qismət olub
Eşqinin ilk nübarını.
Nəfəsimlə sağaltmışam
Ürəyinin qübarını...

2012

***

Mənim sevdalı ömrümdə
Şirin bir xatirəsən.
Mənimlə nə qazanmışdın,
Mənsiz nə itirəsən?!

2012



***

Mənimçün darıx,
Mənimçün inlə!
Sevən qəlbimin
Səsini dinlə!

Olmasın sənin
Gecən-gündüzün,
Hər an gözümü
Axtarsın gözün.

Fürsət düşən tək
Qaç gəl yanıma!
Qoy şirinliyin
Hopsun qanıma!

Qəlbin mənimçün
Titrəsin, əssin!
Köksüm üstünə
Köksün tələssin!

Sən varsan əgər,
Nə dərdi-sərim?
Dodaqlarımla
Çiçəkmi dərim?

Qulaqlarımda
Titrəsin səsin.
Hava soyuqdu,
Köksümdə isin!

Mənim çiçəyim,
Solmaz gülümsən.
Bəsdi ağladın,
Hər an gülümsə!

Göz yaşlarına
Dünya dəyərmi?
Mənimçün nə var
Səndən dəyərli?!

**İyun 2012**

***

Taleyin qisməti güldü üzümə,
Sənin gülzarından çiçək dərdim mən.
Yuxu gedəcəkmi mənsiz gözünə?
Dəli olmazsanmı mənim dərdimdən?!

**2012**

***

Səndən ayrılmağım
on dəqiqə deyil,
indidən içində
qiyamət qopub.
Ətrin təkcə
mənə bağışladığın
kağızların üstünə deyil,
ciyərlərimə hopub...

**04.07.2012**



***

Nəhayət, bir gün qızışıb,
«ürəyi daş olmuşa»
qaya əridən
sözünü dedinmi?
Mənimlə bir yerdə olmaq
bezdirib səni, –
Mənsiz olanda necə,
xoşbəxt idinmi?
Bilsəydin ki,
mənsizlik ürəyini
rahatlığa bələyəcək,
imdad diləyərdinmi
içini göynədən
məhəbbətdən?
Bilsəydim ki,
mənsizlik səni
xoşbəxt eləyəcək,
səni məhrum edərdimmi
bu səadətdən?!

**05.02.2012**

***

Elə bil ki, mənim
sevgi dünyamadan
birdəfəlik qovulmusan.
Ayrılıq günlərində için-için
qovrulmusan.
Bəzən zəhərli qazı da

təmiz hava sanmısan,
Mən havaya
qalxmamışdan
sən havalanmısan…

05.02.2012

***

Bu günüm elə bil
əcaib-qəraib bir yuxudur. –
Özüm də bilmirəm içimdəki
nə qorxudur?
Keçmişin məni ağrıdır,
Gələcəyin məni qorxudur…

18.07.2012

## QURUMAQDA OLAN AĞAC VƏ ONA DOĞRU AXAN SU

Mən susuzluqdan
qurumaqda olan
qocaman bir ağacam,
sən uzaqdan mənə sarı
axan susan.
Ürəyim ağrılardan
çat-çatdısa,
çətin ki, bu ağrılara dözəm,
çətin ki, susam!
İçinə sarılıq çökən



yarpaq gözlərimlə
yolunu gözləməyin
əzablarına dözürəm.
Sən isə
aşsüzənə bənzəyən
arxdan sızıb,
yol boyu pöhrələrə
həyat verdiyin üçün
Mənim su payımın hamısı
çatmır mənim özümə…

18-21.07.2012

## ÇƏMƏN, DƏNİZ, SƏN VƏ MƏN

Daha
sevdiyim çəmənlərə
baxa bilmirəm. –
Çiçəklərin
şehlə silələnən gözləri
məni göynədir,
məni ağrıdır…
Daha sevdiyim dəniz də
gözümdən düşüb;
elə bilirəm ki,
dalğalananda
mənə kinayə ilə
dişini ağardır…

Heç nə olmayıbmış kimi
içində fırtınalar oynayan
gözümə baxırsan.
Mən daha
çəmənə, dənizə
baxa bilmirəm,
sən necə mənim
üzümə baxırsan?!

19.07.2012

## YALAN MƏLHƏMLƏRİ

Hər bir qadına
bəzəkdi
onun isməti,
vəfası,
sədaqəti...
Vurduğun yaralar
elə dərin,
üstünə qoymaq istədiyin
yalan məlhəmləri
elə zəhərlidi ki,
Allah kimsəyə
göstərməsin
bu məşəqqəti...

19.07.2012



***

Bu qədər
uydurma sözləri
haradan tapırsan? –
Ərkyana səni
Danladım,
dansıdım.
O qədər yalan
demisən ki,
indi heç özün də
bilmirsən
doğru hansı,
yalan hansıdı?!

24.07.2012

## MƏN OLMASAM

Axı niyə məndən uzaq qaçırsan? –
Səni sonsuz məhəbbətlə sevən mən.
Sanırsan ki, gücün yetər hər şeyə,
Bir az düşün, çox özünə güvənmə!

Aramızda təmiz sevgi olmasa,
Nə mən bu cür mən olardım,
nə sən sən.
Həyatında mən varam ki, güclüsən,
Mən olmasam, axı kimsən,
nəsən sən?!

21.07.2012

***

Həyatına gələn bir yad
Doğmaları yad eləyib.
Çaşıb qalmışam, nə əcəb
Bu qız məni yad eləyib?!

22.07.2012

***

Yalanlara don tək necə geyirsən?
Xəyanətə sürüklədi kim səni?
«Heç kəs məni başa düşmür» - deyirsən,
Bəs sən necə, duyursanmı kimsəni?

Şüşəydimi çilikləyib qırdığın? –
Dirigözlü açanlar var səhəri.
Bəs sən necə, ürəyimə vurduğun
Yaralardan olmayıbmı xəbərin?

Elə bilmə daha səni duymuram,
Ürəyimi nurlandırır xəfif qəm.
Təksən deyə səni tənha qoymuram,
Simsar tapsan, həyatından gedəcəm.

Küskün-küskün baxma mənim üzümə,
Seçdiyinlə xoşbəxt yaşa, şən yaşa.
Sən getsən də, tək qalmıram, üzülmə! –
Bəxtəvərəm dərdlərimlə baş-başa...



Sona yetməz bir dastanı bitirdin,
Qınamıram külə dönüb sönəni.
Qazancın nə? – Əvəzində itirdin
Baş qoyaraq hönkürdüyün sinəni...

27.07.2012

## TALEYİN İSTEHZASI

Kiminsə qəlbini
asanlıqla fəth eləmisən,
Mənimsə qəlbimi
alınmaz qala bilirsən.
Bu da taleyin istehzasıdı –
Nə onun yanına
gedə bilirsən,
nə mənim yanımda
qala bilirsən...

11.08.2012

## DAĞ VƏ KÜLƏK

Sən iblisin elçisisən,
Mən isə
elə bilirdim ki,
mələksən.
Mən qocaman bir dağam
sevgi səltənətində,
Sən isə bir ünvansız

küləksən…
Bir zaman
gətirdiyin təzə hava ilə
köksümdəki
soluxan çiçəklər
cana gəlirdi.
Ancaq əsib gəldiyin kimi,
əsib gedəcəyini də bilirdim…
Xəyallara dalmışam
qəhərimi uda-uda…
Həmişə əsməyə
öyrəncəkli olan
çətin ki bir ünvanda
qərar tuta…

23.07.2012

## KÖHNƏ YURDUN QƏDRİ

Tezliklə duyacaqsan ki,
sığınmaq istədiyin adam
adi insandı,
nadir deyil.
İçindəki sevgi, qayğı,
diqqət ehtiyacı
o qədər böyükdü ki,
hər oğul səni
xoşbəxt eləməyə
qadir deyil…



Quzunun taleyinə
parçalanmaq düşüb,
sən isə günahı
qurdda biləcəksən.
Bəlkə də
köhnə yurdun qədrini
təzə yurdda biləcəksən…

18.08.2012

## QƏRİBƏ DUYĞULAR

*Bodrumda hava çox isti idi, Bakı isə bizi yağışla qarşıladı və bu mənim içimdə qəribə duyğular oyatdı…*

Oynayan yanmazmı odla, atəşlə? –
Baxma yollarıma küskün baxışla.
Bodrum yola saldı qaynar günəşlə,
Bakı qarşıladı məni yağışla…

Daha lüzüm varmı fəğana, aha? –
Sözlərin zəhər tək hopub qanıma.
Qınamaq haqqımı itirdim daha,
Sən də indən belə məni qınama!

Su səpmə köksümə çəkilən dağa,
Sevmirəm ayrılıq yağışlarını.
Özün gəlməsən də qarşılamağa,
Elçi göndərmişdin göz yaşlarını.

Bahar övladıydım sənin yanında,
Vədəsiz haqladı qarlı qış məni.
Elə solmuşam ki, eşq xəzanında,
Çətin ki, dirçəldə bu yağış məni!

Kimə güvənirsən, bilmirəm kimə?
Qapqara buludlar hey ağlayırdı.
Elə bil təbiət ölən sevgimə
Hıçqıra-hıçqıra yas saxlayırdı…

**15.07. – 20.08.2012**

## BİR GÜN

Bir gün mürgülü vicdanın
səni məhşər ayağına
çəkməyəcəkmi?
Bir gün gözlərin
kor olmayacaqmı
üstünə su ələdiyin
ocağın tüstüsünə?
Özgənimi
isitmək istəyirsən
köksündə mənim
qaladığım ocağın istisinə?!

**20.08.2012**



## UĞRUNDA ÖLƏ BİLƏCƏYİM EŞQ

İstədiyim atı minib,
İstədiyim yerə
çapa bilmədim.
Özüm kimi inana,
güvənə biləcəyim
bir insan tapa bilmədim…
Görəsən rastıma çıxacaqmı
güvənə biləcəyim eşq?
Hardasan,
yolunu gözləyirəm,
ay uğrunda
ölə biləcəyim eşq?!

**20.08.2012**

## TƏNHALIQ

Duyursan ki,
məni itirmək
o qədər də
olmayacaq asan.
Ancaq bilirsən ki,
doğru yoldasan!
Onu da duyursan ki,
yanında yüz adam
olsa belə,
mənsiz tənhasan!

Elə mən də
sənin günündəyəm,
elə məni də özün kimi
kimsəsiz, tənha san!
İndən belə nə əvvəlki
qış kimi qışımız,
nə əvvəlki yaz kimi
yazımız olacaq…
Tənhalıq ömür boyu
alın yazımız olacaq…

**21.08.2012**

## GET

Get,
həsrətli gözlərin
içində şimşəklər oynayan
buludlar kimi
dolmasın.
Get,
baxışların heç zaman
arxada qalmasın!
Get,
hər şeyə
arxa çevirib get!
Get,
ülvi bir sevgini
şahlıq taxtından
devirib get!



Təzə sevgi,
təzə həyat xətrinə
ağrılara, acılara
sinə gərməlisən!
Onsuz da nəyəsə
sahib olmaq üçün
nəyisə qurban verməlisən!
Get,
heç nəyin
dərdini çəkmədən get!
Get,
içinə
peşmançılıq zülməti
çökmədən get!!!

**21.08.2012**

***

Sən mənim açdığım
bir cığırsan, -
üstündən özgə keçsə,
ölərəm.
Sən mənim kəşf etdiyim
bir bulaqsan, -
suyundan özgə içsə,
ölərəm…
Mən səni heç zaman
tənha qoymaram,
Suyundan içərəm,
içərəm,

doymaram,
Bir qətrəni də
kimsəyə qıymaram...

28.09.2012

## QORXURAM

Gözümə üfürüb qara tüstünü,
Həsrət buzlarını döndərdin selə.
Sevgini dəfn edib, onun üstünü
Bəzədin yalanlar əklili ilə.

Azdın öz yolunu bilmirəm nədən? –
Səni qızdırmadı qaynar bir ocaq.
Ülvi bir sevgiyə xəyanət edən
Xoşbəxtlik üzünə həsrət qalacaq...

Dinlə ürəyimdən qopan harayı,
Sevgi çiçəkləri hələ solmayıb.
Yalanlar üstündə sevgi sarayı
Ucaltmaq kimsəyə nəsib olmayıb...

Özün qurmalısan öz həyatını,
Haqqın var yanımdan çıxıb getməyə.
Qorxuram atılan bədbəxt qadını
Xoşbəxt eləməyə gücüm yetməyə...

06.10.2012



## SƏNƏ ZƏNG GƏLƏNDƏ

Sənsiz bu kainat deyil gözümdə,
Hava buludludu, hey çisəkləyir.
Sənə zəng gələndə mənim üzümdə
Ağrı qönçə tutur, qəm çiçəkləyir...

Əllərin titrəyir, dəyişir rəngin,
Ağrılar üstümə gələn ordudu.
Qara telefonun hər dinən zəngi
Ayrılıq himninin bir akkordudu...

Söylə, qorxutmurmu şimşəklər səni? –
Necə çıxacaqsan borcumdan mənim?
Bir gün aparacaq o zənglər səni,
Quş tək uçacaqsan ovcumdan mənim...

Harayım yaracaq sərxoş havanı,
Səsimi dağlar da eşidəcəkdir.
Bir vaxt sığındığın isti yuvanın
Həsrəti qəlbini üşüdəcəkdir...

16.10.2012

## SEHRLİ YUMAQ

Namərd ayrılığa necə göz yumaq? –
Sərgərdan qalmışıq yol ayrıcında.
Bir vaxt yumaq idin, sehrli yumaq,
Mənim əlimdəydi iki ucun da...

Bir vaxt bu dünyanın xoşbəxti idim,
Bəxtəvər sanırdın özünü sən də.
Qəlbimi bu eşqə mən qurban dedim,
Gözümdən çəkməzdin gözünü sən də.

Səni mənim kimi duymayıb heç kim,
Köksümə baş qoyub hönkürəsiydin.
Sən mənim ovcumda ulu bir eşqin
Pənah gətirdiyi yer kürəsiydin...

İndisə xəyalın harasa uçur,
Kiminsə gözləri telinə düşüb.
Yanımda olsan da, ipinin ucu
Hardasa, kiminsə əlinə düşüb...

Zəmimin yad əllə biçilməyini
Görəndə mat qaldım, qəlbim ağrıdı.
Hər gün çözələnib kiçilməyini
Görmək heç bilirsən necə ağırdı?!



Eşqə paltar tikmək olmaz yamaqdan,
Dərdli bir bülbül tək qəlbim oxuyur.
Baş tacı olmağa layiq yumaqdan
Kimsə özü üçün corab toxuyur.

Sevgi dünyamızda yaz qışa dönüb,
Bir söz deyən kimi qəlpələnirsən.
Qara bulud kimi yağışa dönüb,
Hansı çəmənəsə səpələnirsən...

Sən mənim yanımda körpə uşaqsan,
Amma ürəyimdə çatmısan ocaq.
Sən mənim yanımda sirli yumaqsan,
Özgə əlindədi bir ucun ancaq...

Mehriban gözlərin süzülən kimi
Həsrətim əriyib su olacaqdır.
Əlimdən son ucun üzülən kimi
Dünyanın üzünü su alacaqdır.

Buraxan deyiləm əlimdən səni,
Dartınsan, ortadan qırılacaqsan.
Silə bilərəmmi könlümdən səni? –
Qayıdıb boynuma sarılacaqsan...

**16.10.2010**

## XOŞBƏXTLİK ZİRVƏSİ

Bu vaxta qədər
kimsənin səadətinə
göz dikməmişəm.
Kimsənin qismətində
gözüm yoxdu.
Sən xoşbəxtliyin
elə bir ucqar nöqtəsinə
qalxmısan ki,
orada üçüncü adama
yer yoxdu...
bəmbəyaz qara bələnən
ən uca yerin özü də
qar kimi soyuqdu.
O zirvədə yol qurtarır,
o zirvədən o tərəfə
yol yoxdu...
Dayandığın yer
çox hündür olsa da,
aşağılara baxanda
sənə rahatlıq verəcəkmi
könlünün qubarı?
Zirvə çox uca olsa belə
günəş əridə bilmir
onun başındakı qarı...

22.10.2012



***

Acı olsa da,
həqiqət təşnəsiyəm,
sevmirəm şirin yalanı.
Bir də ki
bir çiçəklə
bahar olurmu?
Təmənnası
ilahi sevgi olanın
sevgisiz qurulan bir evdən
oğurlayacağı bir şey varmı?

22.10.2012

***

Mənim sevgi gülzarımdan
Elədilər sürgün səni.
İtirirəm zərrə-zərrə,
Qətrə-qətrə
hər gün səni...

2012

***

Bir gün boğazından
kükrəyib daşan qəhəri
sən uda biləcəksənmi?
Mənimlə keçirdiyin
günləri, ayları
unuda biləcəksənmi?
Hər səhər, hər axşam
yollara baxacaqsan,

Hər səhər, hər axşam
Gözlərin dolacaq.
Mənli xatirələr
əbədi cehizin olacaq...

2012

***

Səndəmi tarixə döndün? –
Yoxsa səni
keçmişdə qoyub,
gedəcəyəm gələcəyə?!
Mənli olan keçmiş
mənsiz gələcəkdə
sənin gününü
qara eləyəcək...

2012

***

Sevdiyin, güvəndiyin
adamın xəyanəti
ən zəhərli oxmuş dünyada.
Əgər hər şeyi belə tez
unutmaq mümkündüsə,
deməli sevgi
yoxmuş dünyada...

2012



***

Məni qorxudan
üç şey var:
Əbədi sükut,
Əbədi səssizlik,
Əbədi sənsizlik...

2012

***

Məhəbbət yolunda
qoşa şam kimi yanırıq,
bir-birimizə qovuşuruq
əriyə-əriyə.
Bu günümüz
keçmişlə gələcəyin
görüş yeridi;
sən irəliyə baxırsan,
mən geriyə...

14.11.2012

## QOCA VƏ CAVAN

Sən cavansan, mən qoca.
Sən tülusan, mən qürub.
Sənin ürəyində arzular,
Mənim ürəyimdə
xatirələr yuva qurub...
İkimiz də gözləyirik
taleyin üzümüzə
güləcəyini.

Mən sənə baxanda
keçmişimi görürəm,
Sən mənə baxanda
gələcəyini…

14.11.2012

***

Səbr diləyirəm
sənə Tanrıdan,
Kor kordu – gözünə
mil çək, nə bilər?!
Ətri, təravəti
soruş arıdan,
Çiçəyin qədrini
milçək nə bilər?!

19.11.2012

***

Üz-üzə, göz-gözə,
dodaq-dodağa
Olsaq da, həmişə
həsrətəm sənə.
Kaş qəlbim qəlbinə
olsun sadağa,
Kaş qalan ömrümü
həsr edəm sənə…

19.11.2012



***

Layiq olan yar tapmadım
Qəlbimdəki məhəbbətə.
Öldürdülər inamımı
Düz ilqara, sədaqətə…

Uzaq-uzaq üfüqlərə
Dikmişəm həsrət gözümü.
Heç bilmirəm nə vaxtacan
Aldadım özüm özümü?!

24.11.2012

## «HEYRANAM SƏDAQƏTİNƏ»

Mənim məhəbbət
nəğmələrimi
özümə tuşlanan
Xəyanət silahına
döndərmisən.
Ürəyim əsə-əsə
sənə yazdıqlarımı
Ürəyin əsə-əsə
özgəyə göndərmisən –
Heyranam
«sədaqətinə»!
Xəyanətə

dözməyən ürəyim
Qiyam etdi!
İndi içimdə əsl
Qiyamətdi...

**27.11.2012**

***

Sənə sevinmək yaraşır,
Göz yaşı tökmə, ürəyim!
Sənə layiq olmayanın
Dərdini çəkmə, ürəyim!

Çörəyi dizinin üstə
Olanlara çörək verdin.
Ciyərinə təzə nəfəs,
Sinəsinə ürək verdin.

Hər gedənin arxasınca
Göz yaşı tökməyə dəyməz.
Sənə layiq olmayanın
Dərdini çəkməyə dəyməz...

**2012**



## ÖLƏN SEVGİ

Xəyanəti bağışlamaq
Bilirsən ki, deyil asan.
Hər gün yanımda olsan da,
Sən məndən çox uzaqdasan.

Dönüb arxaya baxmadan
Həyatından gedəcəyəm.
Səni sənli günlərimlə
Bir yerdə dəfn edəcəyəm...

Mən səni bahar sanırdım,
Ömrümün qışına döndün.
Sən mənim ölən sevgimin
Gəzən baş daşına döndün...

Zaman dərdə məlhəm olur,
Bu ağrılara dözəcəm.
Hər gün çiçək əvəzinə
Qəbrinə şeir düzəcəm...

**01.12.2012**

## İLİN ƏN UZUN GECƏSİ

Ağır-ağır gələn bulud
Ya qar, ya yağış gətirir.
İlin ən uzun gecəsi
Özü ilə qış gətirir...

**21.12.2012**

## BU QIŞIN İLK GÜNÜ

Bu qışın ilk günü
xəyalımdan nələr keçdi?
Bu qışın ilk günü
elə bil dünyasyını
dəyişən sevgiyə
kəfən biçdi.
Dezdamona ilə Yaqonu
qonaq çağırdım
xəyanət xərçəngindən
ölən sevginin
yasına...
Bu ilin son qışından
salam verdim
ömrümə gələn ilin
yazına...

**22.12.2012**

***

Öz yolundan sapmağın
bir tale qəzasıdı.
Uğursuz ailə –
Təmiz sevgiyə
xəyanətin cəzasıdı...

**28.12..2012**



***

Məndən intiqam
almaq istəyəndən
həyat özü intiqam aldı. –
Çamurun içindən
mənim ucalığıma,
paklığıma baxıb
yana-yana qaldı...

**29.12.2012**

***

Adam gec-tez öyrəşir
Qürbətin suyuna,
havasına.
Bəzən quşlar da
dönmək istəmir
öz köhnə yuvasına...

**2012**

***

Qəlbini ələ almaq
istədiyin adamı
nəvazişlə mədh
eləyərlər.
Ürəyi üsyanla,
döyüşlə yox,
ürəyi sevgi ilə
fəth eləyərlər...

**18.03.2011**

***

Kiminlə olursansa ol,
Mən yoxamsa,
tənhasan.
Kiminlə oluramsa olum,
Sən yoxsansa,
tənhayam.
Eşqin göylərində
sən güneşsən,
mən ayam.
Sevgiylə baxa bilsən
gözlərimə
görəcəksən ki,
təpədən dırnağa
hikmətəm,
təpədən dırnağa
mənayam!

2012

***

Qəlbinin sevgiyə ehtiyacı var,
Səni məhəbbətlə dindirəcəyəm.
Bəlkə də yenidən ömrünə gəlib,
Qışını bahara döndərəcəyəm.

Varsa qismətində ülvi məhəbbət
Hönkürən könlünü kiridəcəyəm.
Sənin ürəyində yığılıb qalan
Həsrət buzlarını əridəcəyəm.



Özün öz gözündən düşmə, amandır,
Dünyanı qınama bir də, gözəl, sən!
Əgər baxa bilsən mənim gözümlə,
Görərsən dünya da, sən də gözəlsən.

Seçə biləcəksən xalisi, qəlpi,
Gözlərin yollardan yığışacaqdır.
Qəlbini göynədən dərdlər, ağrılar
Əriyib, sozalıb yox olacaqdır…

24.01.2013

***

Gücün çatsaydı,
susdurardın
içindən boylanan
sevginin səsəini.
Gücün çatsaydı,
biryolluq dəfn eləyərdin
mənli günlərin xatirəsini…
Dərək eləsən bilərsən ki,
mən sənin qismətinə düşən
topdağıtmaz dövlətəm,
varam.
Mən sənin ruhunun,
cisminin hər zərrəsində
varam.
Yorulmadınmı
bahar buludu kimi
boşalmaqdan,

dolmaqdan?
Çıx get, bir şey çıxmaz
iki ürək arasında
sərgərdan qalmaqdan, –
Daha mən də bezmişəm
sevgi heykəllərinə
postament olmaqdan…

22.01.2013

***

Bir şey dəyişəcəkmi
yaxanı cırsan,
saçını yolsan?!
Daha sən
mənim üçün
ləçəyinə çirkab
çilənmiş çiçək,
keçilmiş yolsan…

15.01.2013

***

Demirəm ki,
qəlbimdə nisgilim,
qubarım yoxdu.
Ancaq daha sənə
etibarım yoxdu.
Yadıma
elədiklərin düşəndə
Başımda



şimşəklər çaxar.
Məni qınama,
«İlan vuran
ala çatıdan qorxar»…

24.01.2013

***

Sevgisinə xəyanət edən
insanın qəlbini
peşimançılıq xəncəri deşər.
Sığallayan əllərin
qədrini bilməyənlərin
qismətinə
Təpikləyən ayaqları
öpmək düşər…

24.01.2013

***

Sap kimi
qəlbimə sancdığın
iynələrin içindən,
sazaq kimi
canımdan keçirsən.
Bir vaxt iri addımlarla
yanıma gəlirdin,
İndi iri addımlarla
yanımdan keçirsən…

14.01.2013

***

Bu üzündən baxanda
o üzü görünən
büllur kimiyəm,
heç nəyi pərdələmirəm.
Ancaq içimdəki
sevgi əzablarını
daha özümə
dərd eləmirəm…

15.01.2013

## HƏR ANI QƏNİMƏT BİLƏSƏN GƏRƏK

Qırma ürəyimi, incitmə məni,
Nə vaxt haraylasam, gələsən gərək.
Sən mənimlə keçən hər saniyəni,
Hər anı qənimət biləsən gərək.

Sanma sənə sevgim tükənib daha,
Sənsiz eləməsin qoy Allah məni!
Bu günün işini qoyma sabaha,
Səndən ayıracaq bir sabah məni…

Bir gün qar düşəcək uca dağlara,
Qönçə tutmayacaq gülün bir daha.
Çıxıb gedəcəyəm lap uzaqlara,
Mənə yetməyəcək əlin bir daha…

27.02.2013



***

Fikrin uzaqlarda, yol çəkir gözün, –
Yağış neyləyəcək solan çiçəyə?
Üfürmə kül altda işaran közü,
Keçmişə boylanma, süz gələcəyə!

Səfər arzusuyla göynəyir için,
Özgə taleyinə yazılmaqdasan.
Bir eşq dəniziydin bir vaxt mənimçün,
İndi zərrə-zərrə azalmaqdasan…

Sən əlində çıraq gəzib hər yanı,
Məni axtarsan da, arzun solacaq.
İçi mirvariylə dolu dəryanın
Yerində qupquru səhra qalacaq…

04.04.2013

***

Deyəsən kimliyimi, qız, qanmısan,
Ona görə də məni qısqanmısan…

***

Yolunu gözləyənin var,
niyə dayanmısan, di get!
Ölən sevginin üstündə
əkliləmi dönməlidi
onun göndərdiyi
«koskoca buket»?!

***

Gözlərimi
gözlərinə dikmişəm,
əllərim əllərindədi.
Fikrinin uzaqlarda
uçduğunu
əllərimi hiss etməyən
əllərin dedi...

11.04.2013

## BU EŞQ HEKAYƏSİ

Bu eşq hekayəsi niyə bitmədi?
Məlhəm yox köksünə çəkilən dağa.
Mənim sevgimin də gücü yetmədi
Yaralı qəlbini ovundurmağa...

Qəlbində saxlama, sözünü udma,
Yolub at gözünə dəyən gülləri!
Hələ qabaqdadır, bunu unutma
Başına, dizinə döyən günlərin...

Götür, geri apar gətirdiyini,
Etmə ürəyimi giley tapdağı.
Biləndə nələri itirdiyini
Gözündən düşəcək təzə tapdığın...

12.04.2013



## QUZU, ÇOBAN VƏ ÇƏMƏN

Sən çoban sevən quzuzan,
Mən çiçəkli bir çəmənəm.
Sanırdım ki, bu xoşbəxtlik
Qismət olub bircə mənə...

Gözündən kədər boylanır,
Bir kimsə deyil vecinə.
Həsrət sarılığı çöküb
Bəbəklərinin içinə...

Meyvələri dəriləcək
Uca budaq əyildimi! –
Mat qalmışam, bir quzuya
Bir çoban bəs deyildimi?!

Otlarımı qırpa-qırpa
Gözlərin baxır uzağa.
Sən onları düşünürsən,
Mənsə tənha, yalqızağam...

Bilmədin çəmən qədrini,
Taleyində oyun oldu.
Bir çobana quzu idin,
Bir çobana qoyun oldun...

Uzaq yollara baxmaqdan
Qara gözlərin göynəyir.
Otumu yedin, köksümdə
Dırnaq izlərin göynəyir...

Səndən kabab çəkəcəklər
Uysan onların sözünə.
Bir gün həsrət qalacaqsan
Çiçəkli çəmən üzünə…

13.04.2013

***

Bu get-gəl dünyasında
etibar yox heç kimə,
İçimə yağış yağır,
başımda şimşək çaxır.
Heyf, layiq olmadın
mənim uca eşqimə –
Minnətdarlıq duyğusu
məhəbbət deyil axı?!

13.04.2013

***

Dönüb göydə suala,
İncəldibdir ayı qəm.
Nə sən mənə layiqsən,
Nə mən sənə layiqəm.

Dönüb əyri orağa
Ay hisslərimi biçər.
Bablı babın tapmasa,
Günü ah-vayla keçər…

2013



***

Lüzüm yox fəğana, aha,
Yolumuz ayrıldı daha.
Mən sənə arxa çevirib,
Tutdum üzümü Allaha…

04.06.2013

## MƏNSİZ DÜNYA

Keçir ürəyindən günəş şeirimin
Hər titrək misrası bir şüa kimi.
«Mənsiz yaşamağa öyrəş» şeirimi
Hər gün oxuyursan bir dua kimi.

Bir vaxt görürdüm ki, göynəyir için –
Közərən duyğular susandı məgər?
Sevdalı gözümə baxanlar üçün
Mənsiz dünya tapmaq asandır məgər?!

Hər kəlməm, hər misram həsrət qoxulu,
Səndən üz çevirsəm, bəbəyin dolar.
Mənim sözlərimi hər gün oxuyub,
Mənim gözlərimi unutmaq olar?!

Könül verərlərmi ruhuna yada? –
Mən tanıtmadımmı özünə səni?
Tənha qalmazsanmı mənsiz dünyada,
Yanan tapılarmı közünə sənin?

Verən olacaqmı mənim yerimi?
Səni qınamazmı çıxdığımız dağ?
Bilmirəm mümkünmü mənim şeirimi
Hər gün pıçıldayıb məni unutmaq?

Ayın, günəşin də göynəyər içi
Dumansız dünyada, çənsiz dünyada!
Köksünə baş qoyub ağlamaq üçün
Adam olacaqmı mənsiz dünyada?

Ah çəksəm, ahımdan alışar su da,
Sevgimlə əbədi baharam, gülüm.
Udduğun havada, içdiyin suda,
Qoxladağın güldə mən varam, gülüm!

Ruhun qovrulmazmı həsrət közündə?
Unutmaq olarmı bu qədər asan?
Mənsiz bir yer varmı bu yer üzündə
Gedib bir küncündə daldalanasan?!

31.07.2013

***

İnsan –
Zamanın əleyində
adicə qumdu...
Doğmasının çiyninin üstündən
özgəyə gizlicə
təbəssüm payı göndərən
Cəhənnəmə məhkumdu...

25.09.2013



## SƏN YOXSAN DAHA

Mən el bilirdim sevən qəlbimdə
Əbədi bahara, yaza dönmüsən.
Köksümün üstündə nəğmə oxuyan
Bir sirli, sehrli saza dönmüsən...

Elə bilirdim ki, qaynar ocaqsan, –
Soyuyub, soyuyub buza dönmüsən.
Səni qaya sanıb arxalanmışdım –
Ovulub, ovulub toza dönmüsən.

Bir damla yaş olub düşdün gözümdən,
Vüsalın ucuzmuş, həsrətin baha...
Küləklər xəzəl tək apardı səni,
Sən yoxsan,
sən yoxsan,
sən yoxsan daha!!!

Olmadın sevdalı qəlbimə layiq,
Köksümdən məhəbbət quş olub uçdu.
Yarpaqlar bilmədi yazın qədrini,
Xəzan yellərinə qoşulub uçdu...

Sevgi yağışları yağacaq yenə,
Çəməndə çıxacaq dizə çiçəklər.
Gümanım ömrümə gələn yazadı –
Mənə bəxş edəcək təzə çiçəklər...

25.09.2013

## BAŞINI KOLA SOXAN QUŞ

Başını kola soxan quş,
Bədənindən xəbərin varmı?
Məni avammı sanırsan? –
Qaratikan çinarmı?!
Hər kəlmən,
hər sözün yalandı –
Budur qəlbimi ağrıdan.
Oğru deyilsənsə əgər,
Niyə qorxursan doğrudan?!
Hələ həqiqəti danırsan –
Yalançı olanlara yadam.
Səmimi ola bilərmi
Təmiz, saf olmayan adam?!

**21.10.2013**

***

Dilimi dinc saxlaya bilərəm,
Düşüncəm isə
deyil susan.
Sözlərim sənə zərrə qədər
təsir eləmədi,
bildim ki, hansı yolun
yolçususan.
Heç nə olmayıbmış kimi
üzümə baxırsan,
Mənimsə yaralı ürəyim



özünə gəlməyib hələ.
Sən ağlasaydın
mən sevinərdim,
bilərdim ki, içindəki
insanlıq duyğuları
ölməyib hələ…

**25.10.2013**

***

Bu günün işini qoyma sabaha,
Mənsiz göynəyəcək ürəyin, için.
Sevinc tapammırıq bir yerdə daha,
Gedək darıxmağa bir-birimizçün…

**05.11.2013**

***

Qəlbimə dağlar çəkdi
Bu sevginin süqutu.
Mənə rahatlıq vermir
Telefonun sükutu.

Çat-çat ürəyim deyil
Dərdə dözmək gücündə.
Yalqızam, tək-tənhayam
Adamların içində…

**17.11.2013**

***

Heç nə qurbansız ötüşmür,
Kədəri güldürməlisən.
Adını qorumaq üçün
Sevgini öldürməlisən.

Şüşə kimi çiliklənd,
Çırpıldı qəlbimiz daşa.
Başın rahat olsun deyə
Həmişə sevgisiz yaşa!

**17.11.2013**

***

Dağılıb sevgi qalam,
Dərd qoymur tənha qalam...

**17.11.2013**

## SƏN

Sən –
bir bardaq susan,
Hər gün qurtum-qurtum
içilirsən.
Sən mənim gözlərimdə
hər gün zərrə-zərrə
azalırsan,
kiçilirsən...



Sən –
kirpiyimdən qopan
son gilə yaşsan.
Sən – mənim sevgi
sarayımdan qopub,
özgə divara hörülən
daşsan...

Sən –
başımın üstündən keçib,
yağışını özgə çəmənə
boşaldan buludsan.
Sən özün də
unudulacaqsan,
səni sən edən
köhnə yurdu unutsan...

**27.11.2013**

***

Ürəyin çat-çat olacaq
Kimsəsiz qalan yurd kimi.
Yalquzağa dönəcəksən,
Ulayacaqsan qurd kimi...

Ətrimi gətirsin deyə
Yellərə yalvaracaqsan.
Aylara yalvaracaqsan,
İllərə yalvaracaqsan.

Ancaq il geri dönərmi?!
Ancaq ay geri dönərmi?!
Hər şey irəli can atır,
Axan çay geri dönərmi?!

Bulud gözlərin dolacaq,
Başında şimşək çaxacaq.
Mənli günlərin xiffəti
Səni yandırıb yaxacaq...

Ürəyində indən belə
Sevda gülü bitməyəcək.
Sənə tumar çəkən ələ
Əlin bir də yetməyəcək...

30.11.2013

## ÇIX MƏNİM HƏYATIMDAN

Haqqın yox bir sözümü
Sənin iki etməyə!
Dilin də var yanımda
Sənin dil-dil ötməyə?!

Deyirəm daş yağaydı
Səni gördüyüm günə.
Kaş ki, qalxa biləydim
Mən nəfsimin fövqünə...



Özünə bəzək vurma,
Pissən, hamıdan pissəyn.
Mələk qiyafəsində
Evlər yıxan iblissən.

Xəyalın uzaqdasa,
Mənim yanımda qalma.
Aydan arı sevgimin
Üstünə kölgə salma.

Çıx mənim həyatımdan,
Əzabımı artırma.
Məni xirtdəyiməcən
Günahlara batırma!

30.12.2013

## ÇIX GET

Nəmli kirpikləri sıx get, nə olar?
İzini ömrümdən yığ get, nə olar?
Bu qədər əzaba dözə bilmirəm,
Çıx get, həyatımdan çıx get, nə olar!

03.01.2014

## OLAR

Qədəmlərin dəyən yerdə
Tikan dönüb yonca olar.
Sən çıxsan dərəyə, düzə,
Çəmən güllü xalça olar.

Xəyalım – yelkənsiz gəmi,
Dəryadı gözümün nəmi.
Üzümü turşudan kimi
Şəkər dönüb alça olar.

Buludlara boyun bükər,
Nuru öləziyən ülkər.
Səndən üz döndərsəm əgər
Dünyan param-parça olar…

04.01.2014

## EHTİYAC QALMIR YALANA

Xəyalımdan nələr keçir
Ocaq yanıb köz olanda?
Dünya dəyişir rəngini
Aramızda söz olanda.

Əllərim havada qalır,
Ürəyim boşalır, dolur.
Gözlərim bəxtəvər olur
Gözlərinə göz olanda.



Nə hala saldın özünü? –
Yerə dikmisən gözünü,
Yalan qızardır üzünü
Ötənlərdən söz salanda.

Nə deyim gözü dolana? –
Yollar dirənib dalana.
Ehtiyac qalmır yalana
Adam özü düz olanda.

07.01.2014

***

İçindəki ağrıları
göz yaşıyla
yuyub gəldin,
Bildin kimin kimliyini,
bir gün cana doyub gəldin.
Niyə gözlərin yol çəkir,
bəbəyində qəm sayrışır?
Üzündəki təbəssümü
uzaqlarda qoyb gəldin…

11.01.2014

***

Nəydi axı qəsdi, keçdi?
Taleyindən küsdü, keçdi…
Məhəbbət bir külək kimi
Üstümüzdən əsdi, keçdi…

10.02.201

***

Bəslədiyim çəmənzara
Bir gün xəzan yolu düşdü.
Eşqin təzə sünbül tutan
Zəmisinə dolu düşdü.

Döndü göz tökən səmuma
Səhər mehi, həsrət yeli.
Məhəbbətin körpüsünü
Apardı xəyanət seli...

26.01.2014

***

Sən mənim keçb gəldiyim
Alçaq təpə, tozlu yolsan.
Bir də geri dönməyəcəm,
Nə qədər saçını yolsan.

Mən zirvələrə qalxanda
Çiçək kimi solacaqsan.
Təzə-təzə yolçuların
Tapdaq yeri olacaqsan...

26.01.2014



## SƏNİN BİRCƏ SÖZÜN

Sevgi əridərmiş dumanı, çəni,
Güllərin xətrinə yağış yağarmış...
Bir sözün özümə qaytardı məni,
Bir sözün içinə dünya sığarmış...

Əgər sevmirsənsə, yanıma gəlmə,
Qəlbimi yenidən salma həvəsə.
Məni xoşbəxt edib o bircə kəlmə,
Durmuşam sözünlə nəfəs-nəfəsə.

Dilsiz qayalar da dinə bilərmiş,
Həsrət şöləsi var közün içində.
Söz görüş yerinə dönə bilərmiş,
Yaşamaq olarmış sözün içində...

Ayrılıq dönərmiş bir yalquzağa,
Heyf, qanadlanıb uça bilmədim.
İllərlə qaçsam da səndən uzağa,
Mən öz taleyimdən qaça bilmədim...

Aldım göz altına dostu, düşməni,
Mən piyada oldum, sənsə, yar, atlı.
Önünə bənd vurub sevgi çeşməmin
Özüm də bilmədən dərya yaratdım...

Baxırsan uzağa, gözlərin dolub,
Sel gəldi, şəhəri, kəndi dağıtdı.
Sənin bircə kəlmən qumbara olub,
Mənim ucaltdığım bəndi dağıtdı…

01.03.2014

## YUXU

Mən səni
yuxumda gördüm,
Sən məni
yuxuda bəxtəvər
elədin.
Qəlbimin zülmətini
Köksünün nuruna
bələdin…
Oyandım yuxudan –
Daha qollarım belinə
Əllərim əlinə
yetmir.
Əgər bu yuxu idisə,
niyə dodaqlarımdan
dodaqlarının dadı,
niyə ciyərlərimdən
saçlarının ətri getmir?!

25.03.2014



***

Gözlərin kimi nur saçan
İşıqlı ulduz nə gəzir?
Ömrüm-günüm, yer üzündə
Səndən gözəl qız nə gəzir?

Ömrünü bala döndərən
Şirin sözlərimdi, ay qız.
Səni belə gözəl edən
Mənim gözlərimdi, ay qız…

2014

***

İnsanların doğması var, yadı var,
Damağımda əzabların dadı var.
Ürəyimdə qəzəb, hiddət odu var. –
Ədalətin özü yoxdu, adı var…

02.03.2013

## HƏZZ ZİRVƏSİNDƏN TƏSKİNLİK VADİSİNƏ

Hər şeyin üstündən
çalın-çarpaz xətt çəkmək
o qədərmi asandı? –
Köksümə vurduğun
yeddi yaradan
yeddi bənövşə
boylandı…
Gör başıma nələr gətirdin

ömrün bu vaxtında,
bu vədəsində? –
Ən ali həzz zirvəsinə
ucalan insan
necə aram tapa biləcək
təskinlik vadisində?!

**27.03.2014**

## ƏN UCA ZİRVƏ

Buludlar,
Bəyaz qar
Ən uca zirvələrin
bələyidi.
Əslində ən uca zirvə
dəlicəsinə sevdiyin,
ancaq fəth edə bilmədiyin
insanın ürəyidi…

**20.04.2014**

## İNTİQAM VƏ HƏZZ UMACAĞI

Çətin ki, bizi
xilas eləyən tapılsın –
üzmüşük çox dərinə!
Nifrətimizlə məhəbbətimiz
Qaynayıb-qarışıb
biri-birinə.



Mənim kimi sevdalı bir insan
tapa bilməzsən,
istəyirsən bütün dünyanı
dolan, gəz.
Unutma ki, nifrətdə
intiqam umacağı var,
sevgidə həzz…

**20.04.2014**

## BELƏ GETSƏ

Belə getsə, şübhəsiz,
Məni itirəcəksən,
Şimşəklər oynayacaq
Gözünün qarasında.
Başın daşa dəyəndə
Hey köks ötürəcəksən,
Məni sərgərdan qoyma
Gəllə get arasında.

Qucaqlayıb dizini
Xəyala dalacaqsan,
Yuxu da dolmayacaq
Yaşla dolu gözünə.
Bilirəm, əvvəl-axır
Sən həsrət qalacaqsan
Səni səndən çox sevən
Bir insanın üzünə…

**18.04.2014**

## ŞEYTANLA NƏFƏS-NƏFƏSƏ

Gözlərimdən yuxu qaçır,
Gözəl görcək, əsir qəlbim.
Başıma min oyun açır,
Gözəlliyə əsir qəlbim.

Gecə-gündüz tapmır aram,
Çırpınır günah içində.
Zoqquldayır könül yaram
Yuva qurub ah içimdə…

Mənim sevdalı qəlbimi
Gündə salır bir həvəsə.
Necə xoşbəxt olum axı
Şeytanla nəfəs-nəfəsə?!

Göylərə meydan oxuyan
Nə vaxtsa fağır olacaq.
Şair qəlbinə dəyənin
Cəzası abır olacaq.

Elə bil sevda göylərim
Aysız-ulduzsuz gecədi.
Mələk sənin tək imişsə,
Gör onda şeytan necədi!

**20.04.2014**



## MƏHƏBBƏT ƏZABI

Bağlasam da üzünə
Pəncərəni, qapını,
Çöldə qoya bilmirəm
Məhəbbət əzabını.

Şəfəq kimi bərq vurur
Gözlərimin yaşında.
O, keçib, düz əyləşir
Ürəyimin başında…

**20.04.2014**

## SEVGİ DƏYİRMANI

Nə vaxtsa bir ilahi eşq
Ürəyimi böyüdəcək.
Mənim sevgi dəyirmanım
Hələ çox dən üyüdəcək…

**20.04.2014**

## CÜT LAÇIN

–Mən şeir sevməmişdim
Sizi görənə qədər –
Anladım: -Bu vaxtacan
ömür sürmüşəm hədər…
Ürəyim tir-tir əsir,
çox xoşbəxtəm indi mən,

Şeirdə həyat varmış,
sevgi varmış sən demə!
– Odlu misralarımın
qızıl közünə qızın,
Çəkinmə, gəl yaxına,
adam qaçmaz xeyirdən.
Bir əsrarlı, sehrli
şeirə bənzəyən qızıın
Niyə xoşu gəlməyib
bu vaxtacan şeirdən?
Buludlar bir köhləndi,
şimşək qızıl üzəngi,
Göylər də qəlbim kimi
ağlayır için-için.
Allahın yaratdığı
elə bir nəğməsən ki,
Ürəyim tir-tir əsir
səni oxumaq üçün.
Kaş qayıda biləydik
Qubadlıya, Laçına,
Vətənin göylərində
dönəydik cüt laçına!

**28.05.2014**



## XATİRƏLƏR SƏLTƏNƏTİ

Sevgi köhlənimizi
bəmbəyaz buludlar arasında
çapdığımız yadındadımı?
Bir sınıq divanın üstündə
Hicrana divan tutduğumuz,
Eşq məbədi yapdığımız
yadındadımı?
Unutmaq olarmı
o titrəyişləri,
o pıçıltıları,
o həyəcanları?
Unutmaq olarmı
Yaddaşımıza əbədi hopan
o anları?!
Yoxsa nəfəsimin ətrini
unutmusan?
Sənə doğma olub
yadın dadımı?
O sevdalı günlərimiz,
O bəxtəvər anlarımız
yadındadımı?
Yaddaşımız sevgi məbədidi
Xatirələr səltənətində.
Hər şey, hər şey əbədidi
Xatirələr səltənətində...

**15.06.2014**

***

Ürəyimdə nur saçır – demə sevgi köhnəlir, –
Ulduzlar gündən-günə gözəlləşir, İlahi!
Yaxşı ki, yorulmayıb mənim sevgi köhlənim,
Bu qızlar gündən-günə gözəlləşir, İlahi!

Hər gələn özü ilə gətirir təzə nəfəs,
Bizim taleyimizə təzə çiçəklər gəlir.
Sevməsək, qoca dünya dönüb olardı qəfəs,
İndi görüşümüzə sevən ürəklər gəlir...

15.06.2014

***

Sevgimi,
ağrılarımı,
əzablarımı
sözə büküb
şeirə döndərdim
və onları
sənə göndərdim...

2014

***

İçində çayırlar bitdi,
Sevgi cığırımız itdi...

2014



***

Gözlər öz-özünə dolmur, bilirsən,
Sevgi çiçəkləri solmur, bilirsən.
Hara gedirəmsə, səni görürəm,
Bu qədər təsadüf olmur, bilirsən...

Çiçək nə umur ki, qoca arıdan?
Bilmir ki, karvanım keçib yarıdan?
Bəlkə bu nəyəsə bir işarədir? –
Tez-tez görüşdürür bizi Yaradan...

05.07.2014

## EŞQ QOXUSU

Nə qəlbimin rahatlığı,
nə gözümün yuxusu var,
İçimdə bir nakam sevgi,
qəfil hicran qoxusu var.
Yenə gözlərim yol çəkir,
yenə ürəyim atlanır,
Dalğalarla üz-üzəyəm,
havada eşq qoxusu var!...

25.07.2014

***

Hisslərə, duyğulara
qandal vuran
Qəribə bir
ölkəyə dönmüşük.
Uzaqda ola-ola
doğma idik,
yaxında ola-ola
ögeyə dönmüşük...
Əngin üfüqlərə
can atan quşu
öz əlimizlə
salmışıq qəfəsə.
Bir-birimizdən
çox uzağıq,
dayansaq da
üz-üzə,
göz-gözə,
nəfəs-nəfəsə...

**31.07.2014**

***

Gözlərinə həsrət
buludları çökən
bəxtəvər olarmı?
Hisslərinə,
duyğularına
çəpər çəkən
bəxtəvər olarmı?

**31.07.2014**



***

Bir də əllərin
dəyməyəcək əlimə,
Bir də adın
gəlməyəcək dilimə! –
Uğrunda qurban
verilməyən sevgi
məhkumdu ölümə!
Fikir eləmə!...

**31.07.2014**

***

Bir təmiz sevginin axırına
öz əlmizlə
daş atdıq.
Əvəzində bizi
xoşbəxt eləyə bilməyən
təmiz adımızı
yaşatdıq...

**31.07.2014**

***

Mənim payızımda, yazımda sənsən,
Tale qimətimdə – yazımda sənsən.
Gah əzab verirsən, gah həzz verirsən –
Günahım da sənsən, cəzam da sənsən...

**2014**

## SEVGİ XƏZANI

Məndən üz döndərsən əgər,
Sızlayarsan ömrün boyu.
Sənə halal edərəmmi
Ovcumdan içdiyin suyu?!

Güc-bəlayla sağaltdığım
Yaraların qanamazmı?
Birgə gəzdiyimiz dağlar,
Düzlər səni qınamazmı?

Xəyanətin solduracaq
Eşqin çiçəkli yazını.
Belə getsə, yaxındadır
Ayrılıq, sevgi xəzanı...

21.09.2014

***

Qalxa biləcəksənmi
tale qəddini əysə?
Şirin xəyallara da
dala bilməyəcəksən!
Əgər sevgi bağçana
yad bağban əli dəysə,
Xəzanın qarşısını
ala bilməyəcəksən!

2014



## VAXTIM HANI DARIXMAĞA

Gözlərimə getmir çimir,
Ay nurunda dəniz çimir.
Hey baxıram ləpələrə,
Həsrətin yaxır içimi.

Saçımda zamanın zehi,
Üzümdə sabahın mehi,
Diz qoyub yerə, öpürəm
Çiçək gözündəki şehi.

Qalxıb başı qarlı dağa,
Boylanıram sola, sağa.
Dünya elə gözəldi ki,
Vaxtım yoxdu darıxmağa...

31.10.2014

## BİR DƏSTƏ GÜL OLSAYDIM

*«Bir dəstə gül olaydım,*
*Asılaydım yaxandan».*
*Bayatıdan*

Taleyinə başqa adla
yazılmaq istəmirəm,
Bir dəstə gül olub
yaxandan
asılmaq istəmirəm.

İstəyirəm ki,
səni görəndə yaxından,
ciyərlərimə gül-çiçək ətri yox,
sinənin öz ətri çöksün.
Bir dəstə gül olub
asılsaydım yaxandan,
Dəyərini bilərdimmi
o yaxanın altındakı
sevdalı köksün?!

**03.11.2014**

## İNTİZAR GÜLLƏRİ

Təmiz bar verərmi zəhərli torpaq?
Mayası haramlar çətin düzələ.
Eşqin budağında nur saçan yarpaq
Ayaqlar altında dönüb xəzələ...

Budaqlar neçə yol boşaldı, doldu,
İlğıma bənzəyən günlərim itdi.
Könlümdə bir sevgi saraldı, soldu,
Gözümdə intizar gülləri bitdi...

Don vuran irmaqlar kəsib səsini,
Kül bir də qızıl don geyərmi görən?
Bir ölən sevginin tarixçəsini
Yazmağa, yozmağa dəyərmi görən?

**03.11.2014**



## RÜBAİLƏR

***

Yuxumda çiçəkli bir bağ görmüşəm,
Göylərə baş çəkən bir dağ görmüşəm.
Qəlbimin kömür tək qaralan vaxtı
Köksündə közərən ocaq görmüşəm.

***

Çiçəyim, yaxanı aç, arıyam mən,
Köksünə can atan ac arıyam mən.
Qırxıncı otağa tələsir ürək,
O gizli qapının açarıyam mən.

***

Sevda dağlarımda qarsansa əgər,
Ömür ağacımda barsansa əgər,
Necə kəsə bilər bəndə yolumu,
Mənim taleyimdə varsansa əgər?!

***

Nurlu görməmişdim ay üzü belə,
Mənə qibtə edir Ay özü belə.
Sənsən bu dünyanı gözəlləşdirən,
Sevirəm çisginli payızı belə...

***

Bəlkə yazılmışam alın yazına? –
Bil ki, zaval yoxdu tale yazana!
Gələn bənövşə ol, novruzgülü ol
Mənim həyatımın təzə yazına!

***

Açılan nə vaxtsa solur, unutma!
Bulud əvvəl-axır dolur, unutma!
Böyük dənizlərin fırtınası da,
Elə özü boyda olur, unutma!

***

Hisslərim çəkilib yenə tarıma,
Yad mizrabmı dəysin könül tarıma?
Səni çıxarıbdır mənim qarşıma,
Şükürlər edirəm ulu Tanrıma!

***

Ata ocağında qarımaq olmaz,
Susuz ağac kimi qurumaq olmaz.
Paklığın rəmzidi təmiz məhəbbət,
Onu yalanlarla qorumaq olmaz.

***

Ona baxıb tez-tez məni anarsan,
Dərdiyim gül, yar, odana yaraşır.
Niyə məndən gen gəzirsən, əzizim,
Təklik təkcə Yaradana yaraşır.

**01.12..2014**



## ƏGƏR

Qalxa biləcəksənmi tale qəddini əysə? –
Şirin xəyallara da dala bilməyəcəksən.
Əgər sevgi bağına yad bağban əli dəysə,
Xəzanın qarşısını ala bilməyəcəksən...

**2014**

***

Gör hardan-haraya ətir saçmısan?
Qəlbimi mən necə yara göndərim?
Mənə yeddi yerdən cəbhə açmısan,
Bilmirəm üzümü hara döndərim?!

**02.03.2013**

***

Gözlərini bir yol görən
ömrü boyu röya bilməz,
Bilirsən ki, mənim kimi
səni kimsə duya bilməz.
Qəzəblənib çəkmə məni
ayrılığın sınağına,
Gözəlliyə baş əyəni
dərd diz üstə qoya bilməz...

**30.11.2014**

## OY, NƏ QƏŞƏNG QIZDI BU

*Nəğmə*

Eşqimizin üstündən
Sərin küləklər əsdi.
Əllərindən tutanda,
Əlimi soyuq kəsdi,
Elə bil ki, buzdu bu!
Oy, nə qəşəng qızdı bu!

Xəyalım qanadlanıb,
Hey ona sarı uçur.
Gülümsəyir üzümə,
Bərq vurur, şəfəq saçır,
Elə bil ulduzdu bu,
Oy, nə qəşəng qızdı bu!

İçimdə fırtına var,
Qəlbimdə ocaq çatıb,
Ağ-qaralı ömrümə
Sanki təzə rəng qatıb.
Şəkərdi bu, duzdu bu,
Oy nə qəşəng qızdı bu!

**28.11.2014**



***

Nə vaxdandır dəli könlüm
Özündə, sözündə deyil.
Gözlərində qalıb gözüm,
Bu dünya gözümdə deyil.

Vaxt olur ki, qapınıza
Düşən izimdən küsürəm.
Hamı ilə barışıram,
Özüm özümdən küsürəm...

**2014**

## XOŞBƏXTLİK QATARI

Bir qatar yola düşüb
Xoşbəxtlik diyarına.
Ağlı olan kəs gərək
Bu fürsətdən yarına!

Vaxt varmı fikirləşib,
Qaşlarını çatmağa?
Nə qədər can atan var
O qatara çatmağa.

Sənə getmə deyənin
Qulaq asma sözünə!
Bir içindəki eşqə,
Bir də güvən özünə!

Nə olsun ki, alnına
Dəli rüzgar, qar döyür!
Xöşbəxtliyin öndədi,
Yüyür, dayanma, yüyür...

Geciksən bu qatara
Pis olacaq halın, qaç!
Qorxma dedi-qodudan,
Ayaqları yalın qaç!

Geciksən, ömrün boyu
Qəlbində dağ qalacaq.
Arzuların qönçəsi
Açılmamış solacaq.

Yüz ildi bu qatarın
Dalınca hey gedirəm.
Yoxsa da dizlərimdə
Bir damcı hey, gedirəm...

İçində fırtınalar
Qoparacaq bu qatar.
Səni xoşbəxt diyara
Aparacaq bu qatar...

**03.12..2014**

***

Tufan alsa bu sevginin üstünü,
Gözlərinin altına al pis günü...



## ÜMMAN TƏŞNƏSİ

Əsir-yesir edib bu ürək məni,
Bilirəm, sənin də göynəyir için.
Ovundura bilmir bir ləçək məni,
Ürəyim titrəyir gülüstan üçün.

Yanğımı söndürməz hər yağan yağış,
Ürək öz dərdini kimə söyləsin?
Mənə bəs eləmir ani bir baxış,
Ümman təşnəsinə damla neyləsin?

**01.12..2014**

## TEZ OL, GƏL YANIMA

Yazdığım nəğmənin hər sözü, sətri
Sənə ünvanlanıb, yoxdur əvəzin.
Mənim çöl dünyamda gül-çiçək ətri,
Mənim iç dünyamda sənin nəfəsin.

Nigaran qoumusan niyə, de məni? –
Dağlarda dumanı, çəni görürəm.
Gözümü açanda çölü-çəməni,
Gözümü yumanda səni görürəm.

Yaşamaq nə gözəl, dünya nə gözəl! –
Yenə də həsrətin ağlımı alıb.
Yüyür gəl yanıma, duraq üz-üzə,
Həmişə gözləri bağlımı qalım?

**01.12.2014**

## NƏFƏS NƏFƏSƏ

Görən bir də dönəcəkmi
Geri o bəxtəvər anlar?
Sözlərimin mənasını
Yəqin o bəxtəvər anlar!

Uzaq düşmək istəsək də,
Araya çəksək də barı,
Aşıb hasardan bu üzə
Tökülür sevginin barı.

Göylərə uçmaq istəyən
Quşu salmışıq qəfəsə.
Sağalmaz könül yaramız
Durmasaq nəfəs-nəfəsə…

05.12.2014

***

Dərd hərdən ayaq tutub
Adam tək yeriyər də.
Çox boylanma göylərə,
Bəndənin yeri, yerdə!

***

Bir gör nə biçimdəsən! –
Çölümdə, içim də sən,
Axı necə gen gəzim,
Sən mənim içimdəsən!



***

Kim eşqdən güc almır? –
Sevməyən ucalmır.
İnsanlar qocalır,
Məhəbbət qocalmır.

***

Bu gün yoxdu çay verənim,
Təbəssümdən pay verənim.
Yar, yar deyə haray çəkdim,
Olmadı bir hay verənim!

***

Əvvəl-axır qəlbimizdə
Yatan duyğular dinəcək.
Həzzdən çəkdiyimiz ahlar
Sevgi himninə dönəcək…

***

Şükür,
sevgiylə yoğrulan
nəğmələrim
fil qulağında yatanları
ayıltdı.
Şükür,
perikən sevgimin
qarnquşları
öz yuasına qayıtdı…

2014

***

Mən sənin üçün
bir inci
olmaq istəyirəm,
hər yerdə,
hər məkanda
birinci
olmaq istəyirəm...

2014

**NİFRƏT VƏ MƏHƏBBƏT**

Fikirlər, düşüncələr
burulğanında üzüldüm.
Görəsən niyə
insanların çoxusu
ikiüzlüdü?
Nifrət və məhəbbət
bir dağın
iki yamacı,
bir almanın
iki üzüdü....

2014

***

Sən mənsiz heç nəsən,
Mən sənsiz heç nəyəm.
Hər şeyi sevgiyə
qurban vermək olar,
sevgini isə heç nəyə...

13.12.2014



**İŞIQ SÜRƏTİ**

İtən təbəssümü üzümə
qaytardın.
Göz yaşlarımı gözümə
qaytardın,
İçim sənə minnətdarlıq
duyğusu ilə doludu –
Perikən ilhamımı təzədən
özümə qaytardın.
Özümə qayıda bilmək
ən böyük arzum idi.
Sönmüş ocaq yerində
yeni ocaq çatmaq üçün,
Aramızdakı ayları-illəri
arxada qoyub
mənə çatmaq üçün
yalnız işıq sürəti lazım idi ...
O işıqsız xoşbəxt olmaq
çox çətin imiş.
O işıq sənin mənə olan
məhəbbətin imiş...

4.12.2014

***

Yayın bu cırhacırında
Soyuqluğun içimi
Elə bil qara bələyib.
Meramım təbəssümünün
işığında qızınmaqdı.
Dəniz sahilində

Günəş dərimi,
həsrət içimi
qapqara eləyib,
Ancaq sevgimin yanında
həmişə üzüm ağdı...

2014

## HÜZN ADASI

Bilmirəm tale məni
niyə tez-tez vurur dişənə?
Düşmüşəm sms yağmuruna;
nə daldalana bilirəm,
nə düşünə...
Qəlbində sevgi ocağı yanmırsa,
başından çıxan
bu tüstü nədi?
Mən bir hüzn adasıyam,
ancaq bilmirəm ki,
Xoşbəxtlik gəmilərinin
yanıma üzməkdə
qəsdi nədi?

07.12.2014

## YER

Mən həyatda da,
sevgidə də
öz yerimi yaxşı bilirəm.
Ona görə



yerini bilməyənlərə
acı-acı gülürəm.
Heç zaman
fürsət vermərəm
kimisə pərt eləməkdən
zövq alanların əlinə,
qoymaram ki, adım düşə
«burdan dur, orda otur»
deyənlərin
kinayəli dilinə.
Unutma ki,
yer göstərməzlər
yerini bilənə...

07.12.2014

## QISQANCLIQ

Qısqanclıq –
Havadan gələn
ayrılıq qoxusudu.
Qısqanclıq –
Sevdiyin insanı
itirmək qorxusudu.
Qısqanclıq –
məhəbbətin ögey bacısıdı.
Qısqanclıq –
sevginin şübhə qayçısıdı.
Qısqanclıq –
Könül göynəyi,
ürək acısıdı,

Qısqanclıq –
Gözlərimi göynədən
acı sudu.
Qısqanclıq –
Əzabla yoğrulmuş məhəbbətin
duzu, dadıdı.
Qısqanclıq –
Sevginin başqa adıdı.

07.12.2014

## TOY

Subaylığın sultanlığından
vaz keçin!
Özünüzə ləyaqətli,
sədaqətli
ömür-gün yoldaşı seçin!
İnsana kimliyini
dərk etmək üçün
Əsil-soy lazımdı.
Düşmənə
toy tutmaq üçün
bizə toy lazımdı!

2012



# ÜZÜ GƏLƏCƏYƏ

## ALTMIŞ BEŞ İLDİ Kİ...

Altmış beş ildi ki,
bu dünyanın havasını
ciyərlərimdə,
suyunu damarlarımda,
işığını gözümdə
daşıyıram.
Altmış beş ildi ki,
bu dünya ilə
üz-üzə, göz-gözə,
nəfəs-nəfəsə
yaşayıram...
Altmış beş ildi ki,
çayların şırıltısını,
yarpaqların pıçıltısını
dinləyirəm.
Altmış beş ildi ki,
sevgi əzabı ilə
inləyirəm...
Altmış beş ildi ki,
tikirəm,
qururam,
əkirəm...
Altmış beş ildi ki,
bu dünyanın,

bu insanların
dərdini çəkirəm.
Altmış beş ildi ki,
düşmüşəm yolların ağına.
Altmış beş ildi ki,
gedirəm dağların,
yamacların, dərələrin,
çəmənlərin ayağına...
Altmış beş ildi ki,
bu dünyanın çaylarında,
göllərində,
dənizlərində çimirəm.
Altmış beş ildi ki,
dayanmadan yol gedirəm,
yoruldum demirəm...
Allah izn versə,
indən belə əlli də,
yüz də yaşayaram.
Sevgi olub ürəkdə,
işıq olub gözdə yaşayaram...
İstəyirəm ki, məni sevənlər
məni heç zaman
öz yanlarında
yox görməsin.
Allah bu dünyanı mənə,
Məni bu dünyaya
çox görməsin!

**03.09.2014**



## GEDİRƏM

Altmış dörd qalıb arxada,
Altmış beş yaşa gedirəm.
Qəlbimdə bahar havası
Mən üzü qışa gedirəm.

Sevginin balını daddım...
Qədəm-qədəm, addım-addım
Nə tez bu zirvəyə çatdım? –
Dayanıb huşa gedirəm...

Sən varsansa, güləcəyəm,
Hara desən, gələcəyəm,
Xoşbəxtəm ki, gələcəyə
Səninlə qoşa gedirəm...

**14.09.2014**

***

Lümlüt qalan budaqlarda
Qərib, tənha quş nə gəzir?
İlk baharla son baharın
Arasında qış nə gəzir?

**2014**

***

Külək vıy-vıy vıyıldayır,
Elə bil ki, qurd ulayır.
Külək nə isə istəyir,
Ağac başını bulayır...

**2014**

## DÜNYANIN MİNNƏTİ OLSUN

Mən getsəm, dünyaya qaranlıq çökər,
Soyuyub buz olar qaynar bir ocaq.
Mənim kirpiklərim yumulsa əgər,
Dünya gözlərimdə dəfn olunacaq.

Ayrılıq möhnəti qəlbimi sarsa,
Dözməyib, fırtına qoparacağam.
Getsəm, bu dünyada yaxşı nə varsa,
Götürüb özümlə aparacağam...

Biganə qalarmı heç arı gülə?
Mənim gözəllərlə heç aram dəyər?!
Dünyanın minnəti olsun ki, hələ
O da ömür sürür mən varam deyə!

**14-19.09.2014**

## BUDAQLARDAN ULDUZ AXIR ELƏ BİL

Payız yağış elçisini göndərdi,
Quru yeri çəmənzara döndərdi.

Yay çəkildi, taxta çıxdı son bahar,
Günlər, aylar gedir üzü sabaha...

İlğım kimi yoxa çıxdı, itdi yay,
Yaya dönüb çəkildi yay, getdi yay.



Bulud örtdü ulduzların üzünü,
Payız gəldi, sildi yayın izini...

Sarı yarpaq budaqları bəzədi,
Şəfəq saçan bir ulduza bənzədi...

Yel əsdikcə yağış yağır elə bil,
Budaqlardan ulduz axır elə bil...

**21.09.2014**

## AĞ SAÇLAR

İnsan ömründə
bircə dəfə
uşaqlıq, gənclik,
Bircə dəfə
ətirli yaz olur.
Qara günlər
yaxınlaşdıqca,
saçlar ağarır,
bəmbəyaz olur...
İnsan istər-istəməz
qocalığa könül verəndə
onun başını
ağ saçlar bəzəyir. –
O ağ saçlar
təslim rəmzi olan
ağ bayrağa da bənzəyir...

**08.08.2014**

***

Dünyanın yaşını
sanma bilən var,
Hər gün doğulan var,
hər gün ölən var...

2014

***

İsti evdəki dibçəkdə
gül açılıbsa,
yazdı məgər? –
Xalqın tanımdağı
xalq yazıçıları,
xalq şairləri,
xalqın tanımaq
istəmədiyi
xalq artistləri
azdı məgər?!

14.10.2014

***

Xanımını da,
uşaqlarını da
götürüb döyüşmək üçün
getdi Suriyaya, Hələbə.
Özü öldü, arvadı
dostunun arvadı oldu, –
Kimə lazım idi
Bu misilsiz sonluq,
Bu misilsiz «qələbə»?!

2014



## GƏLƏCƏYİN SƏSİ

*Qusarda idim. Uşaqlıq dostlarımdan biri – Miroğlar müəllim zəng eləyib dedi ki, nəvəm səninlə danışmaq istəyir. İkinci sinifdə oxuyan, üzünü görmədiyim Səbanın titrək, həyəcanlı səsi ilə dinlədiyim «Üçrəngli bayraq» şeirim mən. çox duyğulandırdı...*

Balaca bir uşağın
kövrək səsi ilə dinlədim
«Üçrəngli bayraq» şeirimi.
Bayrağımız sancılan
ən uca zirvələrdə
təsəvvür elədim yerimi...
Kirpiklərimdən iki damla
şeh asıldı,
Ürəyim
nanə yarpağı kimi əsdi.
Xəyalım bizsiz qalan
ulu yurd yerlərimizə
tələsdi...
Üçrəngli bayraq
onun üçün qəribsəyən
vətən göylərini bəzədi.
Üçrəngli bayraq
Şuşanın, Xankəndinin,
Ağdərənin, Ağdamın,
Cəbrayılın, Füzulinin,
Kəlbəcərin, Laçının,
Zəngilanın, Qubadlının
başının üstündə

Göyqurşağına bənzədi...
Bu duyğular, bu həyəcanlar
ümid ocağını közərdən
bir körpə nəfəsi idi.
Bu duyğular, bu həyəcanlar
Həsrətdən çat-çat olan
bir ürəyin bəsi idi.
Bu duyğular, bu həyəcanlar
ürəyimə damla-damla axan
yaşamaq həvəsi idi.
Elə bil dinlədiyim
körpə bir uşağın yox,
gələcəyin səsi idi...

**9 noyabr 2014. Qusar**

***

Şahdağının qarlı zirvəsi
Elə bil sehrli bir aynadı.
Günəş çıxan kimi
onun üstündə
şəfəqlər oynadı...
Şahdağının səxavəti
ürəyimi dağa döndərdi. –
O, Günəşin önünə
güzgü tutub,
işığı hələ gün tutmayan
yamaclara, dərələrə
göndərdi...

**09.11.2014, Qusar**



***

Şaxta qırova çevirib
Şəbnəmi – gecə şehini.
Şaxta məşşatəyə döndərib
Ayazlı gecənin mehini.
Yamyaşıl payız çəməni
elə bil bəmbəyaz
gəlinlik paltarına
bürünüb.
İlahi, bu qırov düşən çəmənlər
sübh şəfəqlərinin altında
necə gözəl görünür!
Bir azdan əsəcək
ılıq səhər yelləri.
Bir azdan çəmənin
ağ gəlinlik paltarını
soyunduracaq,
Günəşin ipisti
şüa əlləri...

**10.11.2014, Qusar**

## GÖZƏLLİK KARVANI

Şahdağının başının üstünü
bəmbəyaz qar örtüyü
bəzəyir.
Şahdağı uzaqdan baxanda
xıxırdılmış bir ağ dəvəyə
bənzəyir...
Bəlkə də Şahdağı

nə vaxtsa olubmuş
sıralanmış bu dağların
sarvanı.
Bəlkə də nə vaxtsa
yerindən qalxsa
bu dəvə dağlar,
yenidən yola düşəcək
möhtəşəm bir
gözəllik karvanı...

**10.11.2014, Qusar**

## QUSARDAN QAYIDIRAM

Qusardan şəhərə qayıdıram,
Ürəyimi yaşamaq hissi ilə
doldurur,
yol boy sıralanan
qarlı dağlar,
payıza meydan oxuyan
yamyaşıl yamaclar.
Sağımda, solumda sıralanıb
yarpaqları qızılı rəngə çalan
kollar, ağaclar...
Yol boyu payız
sarı-sarı göz yaşları
səpir üstümə.
Yol boyu
yarpaq kimi
budaqdan ayrılmaq qorxusu



durur qəsdimə.
Ürəyimi riqqətə gətirir,
sarı simə bənzəyən
budaqların
səssiz fəryadı,
rəssam payızın
rəng seçimi.
Bu dünyadan
yığıb getmək istəmirəm
öz köçümü. –
Şükranlıq hissi
doldurub içimi:
Deyirəm nə yaxşı ki,
bu dünya var,
nə yaxşı ki,
mən varam!
Maşınım yarpaq
yağışına düşüb,
Elə bil mən
payızın içi ilə şütüyüb
üzü gələcəyə sarı gedən
əbədi baharam...

**10.11.2014**

## SƏN MƏNİM ÖMRÜMÜ UZAT, ALLAHIM!

Güman sənə qalıb, bizə et kömək,
Görüm doğma yurdu azad, Allahım!
Gözümdə qalmasın bir arzu, dilək,
Sən mənim ömrümü uzat, Allahım!

Necə kam almamış dünyadan köçək?
Ömür kitabımız hələ ağ qalıb.
Hələ dərmədiyim nə qədər çiçək,
Hələ çıxmadığım neçə dağ qalıb...

Viranə yurd yeri könül dağlayır,
İgidlər, bağlanan yolları açın!
Həkəri, Bərgüşad mənsiz çağlayır,
Yolumu gözləyir Kəlbəcər, Laçın.

Cəbrayıl, Füzuli tənha darıxır,
Zəngilan ilanlar yuvası olub.
Hər gecə başımda şimşəklər çaxır,
Tənha bulaqların gözləri dolub.

Ocağı soyuyub bizim ellərin,
Nə qədər yarımçıq tikili qalıb.
Hər il Çardaxlıda açan güllərin
Gözləri yoluma dikili qalıb.



Tar-kaman gələcək dilə Şuşada,
Qəmli könülləri güldürəcəyəm.
Nə qədər işim var hələ Şuşada,
Hələ Qubadlıdan gül dərəcəyəm.

Araz sahilinin tər bənövşəsi
Mənim həsrətimdən solub, İlahi!
Torpağa gömülüb çinar meşəsi,
Kötüklər baş daşı olub, İlahi!

Gözümün önünü tutsa da duman,
Yaşamaq həvəsim sönməyib hələ.
Doğma bulaqlardan su içən zaman
Gözlərim bulağa dönməyib hələ.

Çağlayan çayların kefi çağ deyil,
Dağlar doğma hənir eşitsin gərək.
Üşüyən kəndləri od-ocaq deyil,
Bizim nəfəsimiz isitsin gərək.

Güman sənə qalıb, bizə et kömək,
Görüm doğma yurdu azad, Allahım!
Gözümdə qalmasın bir arzu, dilək,
Sən mənim ömrümü uzat, Allahım!

**12.11.2014**

## GÜL VƏ BÜLBÜL

Əsrlər boyu
qızılgül rəngi,
gözəlliyi, ətri,
Bülbül isə
ecazkar səsi ilə
könülləri oxşayıb.
Əsrlər boyu insanların
güllə, bülbüllə bağlı
duyğuları, düşüncələri
mahnılarımıza,
nağıllarımıza,
dastanlarımıza
hoparaq yaşayıb…
Gülə baxanda,
bülbülü dinləyəndə
həssas insanın
qəlbi titrəyib,
gözləri dolub.
Onun üçün
Gül təmizliyin, paklığın,
Bülbül isə sevginin,
sədaqətin simvolu,
rəmzi olub.
Əslində isə
gülün sevdiyi gül,
Bülbülün sevdiyi
bülbüldü –
Təbiət yaxşı bilir



öz işini.
Əslində bülbül
nəğmə oxuyanda
gülü yox,
sevdiyi bülbülü
düşünür…
Həmişə insanın ürəyində
gül kimi gözəl, ətirli,
bülbül kimi ecazkar
nəğmələr ötmək
həvəsi olub.
Onun üçün
«Gül kimi» – ən təmiz,
«Bülbül kimi» – ən sevdalı
sözünün əvəzi olub .
Əsrlər boyu insan
ləzzətlə dərib
öz düşüncəsinin barını.
Gülün bülbülü,
Bülbülün gülü
dəlicəsinə sevməsi
onun gözəl görkəmi, ətri
gözəl səslə
qovuşdurmaq istəyindən
yaranıb…

**14.11.2014**

## MƏN BİR AĞACAM

Mən dünyagörmüş
bir ağacam,
neçə-neçə dərdə dərman,
xəstəliyə əlacam.
Mən gözü, könlü tox
bir ağacam,
Çətin ki,
kiməsə əyiləm,
Çətin ki,
kiməsə əl açam...
Mən insanları sevən
bir ağacam,
qoy mənim
hissiz-duyğusuz
olduğumu
düşünməsinlər.
Havalar isti olanda
yaşıl yarpaqlarımı
çətir eləyirəm ki,
kölgəmdə dincəlsinlər,
Havalar soyuyanda
Yarpaq yaylığımı
başımdan açıb
yerə sərirəm ki,
dibimdə əyləşənlər
üşüməsinlər...

22.11.2014



## PAYIZ DÜŞÜNCƏLƏRİ

Xiyabanda tək-tənha
gəzə-gəzə
için-için yanıram,
özüm boğuluram
öz tüstümə.
Elə bil payız ağlayır,
bəbəklərindən
sarı-sarı damlalar
yağır üstümə...
Gözlərim kimisə
görməyə tələsir,
Ürəyim köksümdə
bir sarı yarpaq kimi
tir-tir əsir...
Boylanıram uzaqlara,
elə bilməyin ki,
duyğularım korşalıb,
hisslərim keyləşib.
Parkdakı skamyaların
üstündə
bir vaxt gözəllər
əyləşirdi,
indi xəzəllər
əyləşib...

22.11.2014

## BU GÜN DÜNYA ÇOX GÖZƏLDİ

Zaman çapır öz atını,
Bizsə onun tərkindəyik.
Niyə belə darıxırıq? –
Elə bil ki, sürgündəyik...

Biz yavaş-yavaş illəri,
İllər bizi salır yola.
Bu gün dünya çox gözəldi,
Sabah necə ola-ola!

**23.11.2014**

## İŞ-GÜC

Soruşursan ki,
Necədi dost-tanışın
işi-gücü?
-Gücü olanların
işi yoxdu,
İşi olanların
gücü...

**25.11.2014**



***

Min şükür
bu dünyanın
yağışına, qarına,
dumanına,
çisəyinə.
Min şükür
bu dünyanın
ayağıma dəyən
daşına,
kəsəyinə!
Sevən, əzab çəkən,
ağlayan, gülən
adamların biriyəm!
Çox şükür ki,
Ağrıya-ağrıya da olsa
yaşayıram,
diriyəm!
Heç ilanlar mələyən səhrada
dodaqları çat-çat olan
təşnə üçün pis su,
yaxşı su olurmu?
Daha yaxşı yaşamaq
olardı deyirsən, –
bundan da
yaxşısı olurmu?

**26.11.2014**

## İŞIĞA DOĞRU

Bütün canlıların içində
bir işıq ehtiyacı var.
Həmişə işığa doğru
can atır
güllər, çiçəklər,
kollar, ağaclar...
Zülmət – arzuları da,
bitkiləri də soldurur.
Günəş şüa əllərini uzadıb,
bitkiləri yerin altından
göyə qaldırır...
Evlərimiz
həsrətli qollar kimi
işığın önündə açılıb
pəncərə-pəncərə.
Şüalar bənzəyir
zülmətin bağrına
sancılan xəncərə...
İşıq gələcəyə səsləyir
bizim arzular köçümüzü.
İşıq sevgiyə dönüb,
nurlandırır içimizi...

01.12.2014



## İBADƏT

İnsanı insan kimi saxlayan
qəlbindəki iman, inam,
məhəbbətdi...
Bu dünyada görülən
bütün yaxşı işlər
Tanrıya ibadətdi...

12.12.2014

***

Həyatın dolanbac
yollarında
Nə yoruldum,
nə təntidim.
Çəkdiyim zəhmət
mənim şəxsiyyət
heykəlimin
postamentidi.

02.12.2014

***

İşğal altındakı Şuşada
Bulaqlar, sular quruyur.
Görür ki, bizdən haray yoxdu,
Torpaq üsyan edir,
özü-özünü qoruyur...

03.12.2014

***

Ulu yurd, məni bağışla,
yanında çox qısadır dilim!
İndi uşaqlığım kimi
Uşaqlığım keçən yerlərə də
çatmır əlim...

01.12.2014

## YOLDAN ÇƏKƏNLƏR

Bilmirəm niyə əti ətimizdən,
qanı qanımızdan olanlar
Millətin üstünə
zülmət kimi çökürlər? –
Hamı bilir ki, onlar
yol çəkmirlər,
yoldan çəkirlər...

01.12.2014

## QƏRİB MİSRALAR

Şeir kitabımdan
didərgin saldığım
nə qədər beyt,
nə qədər misra var!
Görən harda gecələyir
şeir qatarımdan
ayrı düşən
qərib misralar?

01.12.2014



***

Dünyadan dost-tanış köçür,
Gündən-günə təklənirik.
Tənhalığın əzabıyla,
Ağrısıyla yüklənirik.
Körpələrə baxan zaman
Yaşamaq eşqimiz artır,
Görüb nəvə-nəticəni,
Təzədən ürəklənirik...

01.12.2014

## DÜNYA

Dünyaya hansı gözlə
baxırsansa,
o da sənə həmin gözlə
baxacaq...
Hirslənsən,
bəbəklərində
şimşəklər çaxacaq,
Ağlasan,
gözlərindən
yağışlar yağacaq...

Bir gün bu dünya səni
yaxından tanımaq üçün
özü istədiyi kimi
danışdıracaq,
özü istədiyi kimi
dindirəcək.

Ondan üz döndərsən,
o da səndən
üz döndərəcək.
Səni çığırda-çığırda
o biri dünyaya
göndərəcək...
Dünyanın üzünə gülsən,
o da sənin üzünə güləcək,
Dünyanın qədrini bilsən,
O da sənin qədrini biləcək.

01.12.2014

## ATASIZ, ANASIZ DÜNYA

Babalar, nənələr,
atalar, analar bizi
o dünyada gözləyir;
övladlar, nəvələr isə
bizi yaşamağa səsləyir!
Qadir körpə əlləri
əlimizi buraxmır ki,
buraxmır.
Nə yaxşı ki,
onlar var,
adam atasız,
anasız dünyada
darıxmır...

01.12.2014



## QOCALAR

Hər adama qismət olurmu
ömür yollarında ucalmaq?
Hər adama qismət olurmu
ləyaqətlə yaşamaq,
ləyaqətlə qocalmaq?
Ömrün müdriklik çağına
çata bilmək
tale işi, bəxt işidi.
Nəvələr, nəticələr
doğmalarını itirib
tənha qalan qocalara
tale bəxşişidi.
Qocalar –
xeyir-bərəkət rəmzidi,
ailənin güvəndiyi dağdı.
Ağsaqqal hamıdan
yaşlı olsa da,
daxilən küsəyən uşaqdı...
Qocalar məclislərimizi
bəzəyirlər.
Qocalar dəstədən ayrı düşən
qərib durnaya bənzəyirlər.
Gördüklərini görüb,
dərdiklərini dəriblər,
Onların nəyə ehtiyacı var axı?
Bircə qayğı, diqqətdi
onların umacağı.
Füzuli demişkən,

Əgər bizdə olsaydı ixtiyar,
Olmazdıqmı onlar kimi
dünyagörmüş,
müdrik,
ixtiyar?!
Ağsaqqal hər şeyin dadını bilir,
Ağsaqqalın gözü-könlü toxdu.
Bircə əzrayıldan başqa
heç kəsin onlarla işi yoxdu...

02.12.2014

## PİLLƏLƏR

Bilirsən nələr çəkirəm?
Bilirsən necə yaşayıram?
Taleyimə pilləkən
olmaq yazılıb,
Yaranandan beləcə
yaşayıram.
Məni tapdalayanları
nə danışdırıram,
nə dindirirəm.
Onları pillə-pillə
qaldırıram,
Onları pillə-pillə
endirirəm.
Elə bilməyin ki,
ayaq səslərini
mahnı kimi dinləyirəm.
Gecə gündüz



təpiklər altında inləyirəm...
Ağrılardan
qıvrılıram sola,
qıvrılıram sağa...
Görəsən insanları
bu qədər ucaldanlar
layiqdimi tapdalanmağa?

03.12.2014

## ƏL ÇƏKİN YAXAMDAN

Bu adamların işi-gücü
yoxdu deyəsən,
Hər gün sənə
məsləhət verirlər
zəhlə tökə-tökə.
Kök olanlara
arıqla deyirlər,
arıq olanlara kökəl!
Min şükür,
süfrəmdə hər şeyim var:
yağım, balım,
lavaşım, kökəm...
Əl çəkin yaxamdan,
kefim kökdü ki,
kökəm!

03.12.2014

## ÖMÜRDƏN DÜŞƏN YARPAQLAR

Ötən günlər
ömür ağacından düşən
yarpaqlara bənzəyir.
Ancaq nə yaxşı ki,
budaqlarımızı yeni-yeni
tumurcuqlar bəzəyir…
Ötən günlər
havaya atdığımız,
havayı atdığımız
güllələrdi elə bil.
Ötən günlər
bizi ömrün zirvəsinə qaldıran
pillələrdi elə bil.
Nə yaxşı ki, üstümüzü
xəzan almır heç zaman.
Nə yaxşı ki,
budaqlarımız lüm-lüt qalmır
heç zaman…
Ötən günlər
ağrılı-acılıdı,
həzindi, kövrəkdi.
Ömürdən düşən yarpaqlar
xatirələr səltənətimizə
bəzəkdi…

05.12.2014



## SƏBR AĞACI

Özündən çıxma,
sel kimi sahilləri aşma!
Çaşma! Çaşma!
Kimsəni acılama,
kimsənin ayaqlarına dolaşma.
Çaşma! Çaşma!
Düşmənə fürsət vermə,
Dost-tanışla savaşma!
Çaşma! Çaşma!
İnsana bəzəkdi
Səbr, hövsələ.
Mənliyini, ləyaqətini, insanlığını
ən çətin anlarda belə
qoru, hifz elə!
Heç zaman şeytanın
fitnəsinə uyma!
Heç zaman səbr ağacını
Qurumağa qoyma!
Səbrsizlik –
xoşbəxtliyin güvəsidi.
Səbrsizlik –
Bütün günahların nüvəsidi…
Səbr ağrılara mərdiklə
dözmək həvəsidi.
Unutma ki,
Dünyada faydalı nə varsa,
səbrin meyvəsidi…

05.12.2014

## RUHLAR

İllərin ayrılığına dözə bilməyib qürbətdə dünyasını dəyişən, ruhları doğma yurda qayıdan soydaşlarımızın xatirəsinə

Ulu yurd, övladlarını
pərən-pərən saldılar,
Ulu yurd, başının
üstünü sar aldı.
Səndən ayrı düşənlərin
yolunu gözləməkdən
gözünün kökü saraldı…
Ulu yurd, bağışla,
sənin dağlarında,
düzlərində bir daha
gəzə bilmədik.
Ulu yurd, sən torpaqsan,
daşsan ayrılığa dözdün,
biz insanıq dözə bilmədik.
Ulu yurd, yanında
dilimiz çox qısadı,
danışa, dinə bilmirik.
Sənin həsrətin
bizi odlara atıb,
gecə-gündüz
yanırıq, yanırıq,
sönə bilmirik.
Axır ki, kül olanacan
yanıb qovrulduq,



axır ki,sönməkdən başqa
çarəmiz qalmadı.
Gördük ki, cismən yanına
qayda bilmirik,
Ruha dönüb qoynuna
dönməkdən başqa
çarəmiz qalmadı…
İndi isə doğma kənddə
gecələməyə
ev-eşiyimiz də qalmayıb,
hər şey, hər şey məhv olub,
qapıda qazımız, ördəyimiz,
toyuğumuz, cücəmiz,
itimiz, pişiyimiz də qalmayıb…
Uçub dolana bilsək də
kəndin xərabə küçələrində,
onlara ayağımız,
yağıların xirtdəyinə
əlimiz çatmır.
Təskinliyimiz isə
bircə budu ki,
Ruhu düşmən gözü
görmür,
ruha düşmən gülləsi
batmır…

**12.12.2014**

## ADAMSIZ EV VƏ EVSİZ ADAM

Nə vaxtdı ayrı düşmüşük,
Həyət-bacamızdan,
ev-eşiyimizdən.
Nə vaxtdı səbr dayanıb
keşiyimizdə!
İnsan xəyala dalanda
xoşbəxt günlərini
göz önünə gətirir...
Yanıqlı-yanıqlı köks ötürür.
Elə bil evsiz-eşiksiz,
yurdsuz-yuvasız qalanda
adam adamlığını,
İçində adam olmayanda
ev evliyini itirir...

13.12.2014

***

Yorulmaq bilmədən yol gedənlər
Mütləq mənzil başına çatasıdır.
Keçmiş – gələcəyin babası,
Bu gün isə – onun atasıdır...

13.12.2014



## YAŞAYIR

Bir qismət düşüb hərəyə,
Ağac var, dönüb dirəyə.
Dağ var çevrilib dərəyə
Dərə düz olub yaşayır.

Min şükür olsun o çağa,
Kişiyə dönüb o çağa!
Düşsə təzə bir ocağa,
Kömür köz olub yaşayır.

Ömrümüz çay kimi axır,
Köçəsiyik əvvəl-axır,
İnsan insanlıqdan çıxır,
İnsan söz olub yaşayır...

30.11.2014

## DİLİMDƏ SÖZ PUÇURLAYIR

Dağlar, düzlər gəl-gəl deyir,
Ölürəm gəzməkdən ötrü.
Meşəni məst eləyibdir
Yemşan çiçəyinin ətri.

Gözəllikdən cuşa gəlib,
Quşlar veribdir səs-səsə.
Gül-çiçəkli bir çəmənlə
Durmuşam nəfəs-nəfəsə.

Belə də gözəllik olar,
Yaş gözümdə puçur-puçur…
Kəpənək qanadlarına
Minib baxışlarım uçur…

Məni heyrətə gətirir
Hər qanadın cizgiləri.
Bulaqların aynasında
Ağ buludlar güzgülənir.

Səhər mehi işindədi,
Yarpaqlar hey pıçıldayır,
Elə bil mən də ağacam,
Dilimdə söz puçurlayır…

07.12.2014

## DEYİMLƏR

***

Qanan üçün
hər şey hikmət,
mənadır.
Ağır yerə,
yüngül göyə
can atır…

***

Gör bu necə «sabunlanır»? –
yox dəsmalı, yox sabunu!
Sözlər dilmdə göynəyir,
Onu deyim, yoxsa bunu?

01.12.2014



***

Yeri yaxşı görmək üçün
Gərək göylərə uçasan.
Ana torpağı unutma,
İnsan, nə qədər ucalsan!

***

Sözü toz tək sovurma,
Gülü qönçəykən dərmə.
Mənə nə verirsən ver,
Bircə məsləhət vermə.

***

Sevinməsin mərdiməzar,
Namərd etməz mərdi məzar.

***

Kim yolunu azar,
Onu tapar azar…

***

Sataşma ağsaqqala,
Ayağın ağsaq qalar!

***

Dur yığış, vaxtıdır!
Yır-yığış vaxtıdır!

***

Onda varsa belə duyum,
Sevgilimdən necə doyum?

***

Olan olub keçən il,
Vurma üzə keçəni,
İşıqlı sabahı var
Hər qaranlıq gecənin…

# ÖTƏN GÜNLƏRDƏN YADİGAR NƏĞMƏLƏR

## ÖZÜMLƏ SÖHBƏT

O kimdir ağlayır hey için-için? –
Sil bircə ürəkdən dərdi, qübarı.
Sözün gərəksizsə insanlar üçün,
Özün insanlara gərək ol barı!

Bircə büdrəyənin qolundan yapış,
Bir qəlbisınığa ver ürək-dirək.
Çıx evdən, hamıya qaynayıb qarış,
Şair el içində yaşasın gərək.

Müqəddəs bir işin get arxasınca,
Hörmətlə çəksinlər sənin adını.
Çağlayan sulardan şeir yazınca,
Su ver, bir təşnənin söndür odunu.

Gərəksiz sözlərdən bezibdir masa,
Niyə keçirirsən ömrünü hədər?!
Palaz şeirlərin, eh, heç olmasa
Faydası olaydı bir palaz qədər.



Başını axşamdan qoyma balınca,
Dad gözəl dünyanın yüz nemətini.
Masa arxasında işsiz qalınca,
Get oxu həyatın şeiriyyətini.

Sənətkara alqış, sənətə alqış! –
Yazma söyləmirəm, qüdrətinə bax!
Əgər öləcəksə qırxı çıxmamış,
Gəlməsə yaxşıdı dünyaya uşaq...

**15.06.1974**

## VARAQLAR ÜSTÜNDƏ

Ürəyim dolubdur, ancaq bilmirəm
Xəlvətcə bir guşə tapım haradan?
Dərdimi yazmağa tələsir qələm,
Neyləsin səs-küydə yazıb-yaradan?

Elə bil ürəyim dil açıb deyir:
Mövzular başına, dost, qəhət deyil.
Batıra bilmirsə sözün səs-küyü,
Heç onu yazmaq da məsləhət deyil.

Şirin xatirələr dönər gileyə,
Varaqlar üstündə çatılar qaşım.
İlham pərisini eşidim deyə
Dalar səssizliyə ömür yoldaşım.

Qəlbimdə alışan kəlmələr bəzən
Kağızın üstünə enməmiş sönər.
Varaqlar üstündə yol gedərəm mən,
Hər misra bir təzə cığıra dönər.

Sözdən bağlayanda ətirli boğça,
Əlimi zəhmətin alovu qarsar.
Zəif misraları cızıqladıqca,
Açdığım cığırı sanki ot basar.

Bəzən bir zəhərli gülləyə dönüb,
Xəbis ürəkləri dəlib çıxaram.
İki sevən gəncin peyman etdiyi
Hicra bir guşəyə gəlib çıxaram.

Hərdənbir tarlaya, hərdən zavoda
Zəhmətkeş əlləri gedib sıxaram.
Siqaret tüstüsü dönər buluda,
Bəzən meyxanaya gəlib çıxaram.

Bəzən qocaların söz məclisinə
Gedib, hikmət dolu sözlər yığaram.
Üşümüş inamım bir az isinər,
Yenə ürəklənib yola çıxaram.

Haraya getmədim mən bu həyatda? –
Bəzən toyxanaya, bəzən də yasa.
Mənasız olardı bəlkə həyat da
Kədər, qəm sevinclə əkiz olmasa.



Fikrimi dağıdar cahilin biri,
Qəzəbdən saçlarım gümüşü olar.
Şeirimə həyatın adddım səsləri,
Bir də körpələrin gülüşü dolar.

Gedirəm, arabir silib tərimi
Getdikcə önümdə yollar açılar.
Qucaqlamaq üçün ilham pərimi
Hər yandan həsrətli qollar açılar...

**30.04.1973**

## İMZAM

Bəzi şeirə hörmət
İmzaya görə.
Bəzi imzaya hörmət
Şeirə görə.
Hansı yaxşıdı
Söylə görək?!
Heç nə söndürə bilməz
Qəlbimdəki həvəsi.
Ya Yusifin oğlu deyin,
Ya Seyidəlinin nəvəsi.
Elə həminki Rafiqəm,
Həmin ürək, həmin qələm.
Qoy ən ağır zəhmət gözə durmasın,
Ürəkdə qalmasın bir arzu, bir kam.
İmzamın çiynində şeirim durmasın,
Şeirimin çiynində dayansın imzam...

**13.05.1973**

***

Demirəm o qadın dünyada təkdir,
Nə olsun ki, məni anam doğubdur?!
Övlad gələcəyə inam deməkdir,
Analar övlad yox, inam doğubdur.

Az-çox tanınmağım, adıma hörmət
Ellərdən aldığım ən xoş ənamdır.
Mən belə deyərdim edib cəsarət,
Rafiq Yusifoğlu – Rafiq İnamdır…

15.04.1973

## MƏNƏ ELƏ GƏLİR

Sözlərim onları titrədə bilmir,
Nə deyir o ötən çağlar sükutla?
Dinləyir sözümü eh, neçə ildir
Dərələr sükutla, dağlar sükutla.

Həm arzu, həm də ki, bir inamdı bu,
Mən şeir deyəndə ən gur səslərin
Tonu da bir anda alçalmalıdır.
Dilsiz qayalar da pozub sükutu
Haçansa bir dəfə əl çalmalıdır…

26.06.1973



## İNAMIN GÜCÜNƏ

Qızlar söz deyəndə biri-birinə,
İşıqlı kəlmələr qanıma hopar.
Baxışlar dəyəndə biri-birinə,
Həsrətli gözlərdən qığılcım qopar.

Çırpınan ürəyim az qalar uça,
Ellərə səadət daşıyıram mən.
Dönsəm də ildırım vuran ağaca
İnamın gücünə yaşayıram mən…

08.08.1974

***

Pozulubdur yaşıdların sırası,
Harda qalıb o saçların qarası?
Dönməzlərin, igidlərin içindən
Oğul gərək oğulları arasın.

Qurub-tikən qadir əlim olubdur,
Nəğmə deyən azad dilim olubdur.
O, codların codu idi bir zaman,
Baş açmıram, niyə həlim olubdur?

Yağacağam, qara bulud kimiyəm,
Biçən gərək, bol məhsullu zəmiyəm.
Mən sahildə dayansam da, elə bil
Dalğaların qucağında gəmiyəm…

10.08.1974

***

Sözlərim kimisə gətirib dilə,
Bir az da gözünə tərif qatıblar.
Yenə maraq dolu bir məktub ilə
Mənim ünvanıma qarmaq atıblar.

«Qaynar gözlərimin işığı sönüb,
Möhtacdır bəlkə də o, qələminə.
Sənin şeirlərin mizraba dönüb,
Toxunub könlümün sarı siminə.

Gözümün işığı zəif olsa da,
Ayıra bilirəm yaxşını, pisi.
Məni avam bilmə, salıram yada
Babam Cavanşiri, nənəm Tomrisi.

Vədəsiz ensə də tor gözlərimə,
Yəqin ki, görərəm üzümə gülsən.
Vallah, işıq gələr kor gözlərimə
Əgər zəhmət çəkib evimə gəlsən.

Al, bu da ünvanım, ancaq itirmə,
Qədəm bas evimə yaxın dost kimi.
Sən Allah, sözümə pis məna vermə,
Açmaq istəyirəm sənə dərdimi.»

O, imdad istəyir, axı mən kiməm?
Şairəm, ürəyim tutulub yasa.
Elə çağırır ki, guya həkiməm,
Ölüm yatağında xəstədir osa.



Məndən nə istəyir o bədbəxt ana?
Görəsən cavandır, yoxsa qocadır?
Gedim, ya getməyim həmin ünvana? –
Fikirlər başımda haça-haçadır.

Şübhələr könlümü çəkir min yerə,
Bu gecə gözümdən qaçıbdır yuxu.
Qorxuram gördüyüm ayrı mənzərə
Poza qəlbimdəki bu məsumluğu.

Məni qoysalar da lağa, loğaza,
Nə həvəs, nə də ki, maraq əskilər.
Versin bütün şəhər ağız-ağıza –
Filankəs gedibdir filankəsgilə.

Narahat qəlbimdən bir ağrı qopub,
Kədər var insanın gülüşündə də.
Şair şeir tapıb, gözəllik tabıb,
İraq, üzdən iraq, it leşində də...

Sözlərim kimisə gətirib dilə,
Bir az da gözünə tərif qatıblar.
Yenə maraq dolu bir məktub ilə
Mənim ünvanıma qarmaq atıblar...

**14.02.1974**

## QARADAĞ

Yurdumdakı yüksəlişi görəndə
Ayaq tutub yeriyibdir Qaradağ.
Kərpic-kərpic ucaldıqca ağ evlər,
Kərpic-kərpic əriyibdir Qaradağ.

Tər axıtdıq, əzab çəkdik neçə il,
Şəhər etdik neçə kəndi, qardaşım.
Hər mərtəbə bir misradır elə bil,
Hər bina bir şeir bəndi, qardaşım!

İşlərimiz axıb gedir yağ kimi,
Yağış olub səhralara yağ, ay dost.
Şairsənsə, sən də Qaradağ kimi
Əriyərək vərəqlərə ax, ay dost!

**05.12.1974**

***

Şirin hesab elə hər vaxt acını,
Tənqiddən qorxmağın nə mənası var?
El-aləm bilir ki, bar ağacını
Meyvəsinə görə yoluşdurarlar...

**03.06.1973**



## KİŞİLİK

Düzü, qəribədir, gördüm yuxumda,
Biri kişilikdən dəm vurur yaman.
Bir anda gözümdən qaçdı yuxum da,
Yaxşı ki, ayıldım elə bu zaman.

Gördüm ki, fikirlər könlümü didir,
Götür-qoy elədim azı neçə yol.
Düşündüm, g.rəsən kişilik nədir? –
Nə gözəl deyiblər: «Ac ol, kişi ol!»

Kişinin nəfəsi dağı əridir,
Kişilik insanın olur canında.
Kişi tanıyıram, ərlər əridir,
Kişi var kişidir arvad yanında.

Xəyanət – kişinin sinəsinə ox,
Kişi həqiqət tək düz olmalıdır.
Kişilər təkcə öz namusuna yox,
Bütün namuslara göz olmalıdır.

Qeyrət kişi üçün ən ağır yükdür,
Hər işdən kişilik işi duyulmaz.
Kişilik mərdlikdir, mərdanəlikdir,
Hər başı papaqlı kişi sayılmaz.

Yaxşı əməllərə həmişə göz dik,
Kişilik ürəyə köz salmamaqdır.
Deyirəm bəlkə də əsl kişilik,
Elə kişilikdən söz salmamaqdır...

**1969**

## SƏRHƏDSİZ MƏHƏBBƏT

İstəsən silahla qabağına dur,
Yenə də döndərə bilməzsən geri. –
Məhəbbət heç yerdə sərhəd tanımır,
Gəzir yer üzünü Füzuli şeiri…

Hər zaman şövq ilə o gəlir dilə,
Heç zaman dəyişmir sözünün tonu.
Bir də ki, ən sayıq sərhədçi belə
Yolundan saxlaya bilməzdi onu…

**27.06.1973**

## «ŞƏBİ-HİCRAN»I DİNLƏYƏRKƏN

Kükrədi bir dəniz,
Haray saldı dalğalar.
Hücum çəkdi sahillərə
qatar-qatar…
Sığmadı bir salona,
Sığmadı bir şəhərə,
Sığmadı bir ölkəyə –
Od düşdü yerə, göyə.
Nələrə qadirmiş insan?
Hər səs – bir odlu dalğa.
Xor – səs dənizi.
«Şəbi-hicran» – tufan…

**16.11.1973**



## «KARVAN» GEDİR

*S.Hacıbəyovun xatirəsinə*

Bu dünyaya karvan gəlir,
Bu dünyadan karvan gedir.
Bu dünyaya insan gəlir,
Bu dünyadan insan gedir.
Bu gün onu yola saldıq
son mənzilə,
Yanaqlara süzüldü yaş
gilə-gilə.
Onun odlu ürəyindən
Yola düşən odlu «Karvan»
Dolanır ki, oba-oba,
Oymaq-oymaq,
Ölkə-ölkə,
Sarbanını tapa bəlkə…
Bilmirəm ki, yaradanlar
Niyə belə cavan gedir?
Qəbristanda sarban yatıb,
«Karvan» gedir,
«Karvan» gedir…

**25.09.1974**

***

Kimsə unudub varlığını,
ürəkdən çalır...
Dəyirman daşı kimi fırlanan
qramafon valı
Nəğmə üyüdür elə bil.
Xoş bir ahəng
heyrətə salır məni.
İynə düşüb səs cığırına
Ürəklərə qovur nəğməni...

30.09.1974

## MƏNİM DİLİM

Həsənoğluya

Əsrlərcə saymadılar
Bizim doğma dilimizi.
Bir şey yazmaq istəyəndə
Saxladılar əlimizi.

Sən dedin ki, öz xalqımın
Qüdrətini gərək bilim.
Şeir yazdın – başdan-başa
Musiqiymiş mənim dilim...

Bir-birinə qoşulduqca
Sözlər haray qopardılar.
Könül açan misraların
Elə müjdə apardılar.



Qələminin qüdrətiylə
Yad söz itdi ilim-ilim.
Atalıykən, analıykən
Yetim idi mənim dilim.

Dünyagörmüş nuranilər
Söylədilər əhsən, oğlum!
Öz dilində şeir yazıb
Dilə düşən Həsənoğlu

Ürəyinin qanı ilə
Misraları «əhmər»lədi.
Hünəriylə, qeyrətiylə
Yazanları dəhmərlədi...

Kişilərin arasında
Barmaq ilə göstərilən
kişi imiş...
O zamanlar
bizim dildə şeir yazmaq
Əsl oğul işi imiş...

26.04.1973

***

Böyük fikir
Dar sədləri keçə bilər.
Çəyirdəyi deşib çıxar
meyvə tumu
Safsa əgər...

17.10.1973

***

Şeir quşdur,
bir qanadı əruz,
bir qanadı heca.
Sərbəst onun quyruğudur;
Qanadsız, quyruqsuz
quş necə uçar?

**18.12.1975**

## TƏRİFLƏRİN ÇİYNİNDƏ

Dedilər ki, dahisən,
Sevinirik nə qədər
Eşidəndə adını.
Təriflərin çiynində
Aparıb dəfn etdilər
Onun istedadını...

**12.12.1973**

***

Gecə yazmaq istəmirəm,
Siz məni danlamayın,
Ay dostlar, nahaq yerə.
Birdən yuxum qarışar
Yuxusuz gecələrdə
Yazdığım şeirlərə...

**03.06.1977**



## SƏNƏT YOLLARINDA

Çiçəklər boy atdı yağış yağanda,
Yaxşılıq pisliyi əydi hər yanda.
Biri badalaqla məni yıxanda,
İkisi yapışdı qolumdan mənim.

Ucaldı, möhnətə kim sinə gərdi,
İstəyim – yaşayıb yaratmaq dərdi.
Daş da daşlığıyla dilə gələrdi
Xəbərdar olsaydı halımdan mənim.

Niyə bu həyatdan inciyək, küsək? –
Bizə töhfəsi var nə qədər desək.
Bədxah gah daş atdı,
gah da ki, kəsək,
Döndərə bilmədi yolumdan məni.

**20.08.1976**

***

Çoxdandır heç kimi salmıram oda,
Kəsilib şeirimin səsi, sorağı.
Nə vaxtdır yazmıram bircə misra da,
Həmişə püskürmür vulkanlar axı?!

**14.08.1973**

***

Mən bir fikir ağacıyam,
Ömrüm telə bağlıdır.
Mən bir fikir ağacıyam,
Köküm elə bağlıdır.

Ağ günlərə yetmək üçün
Hər zoğum bir yol olur.
Elin hikmət bulağından
su içəndə
Meyvələrim bol olur…

**26.02.1975**

***

Xışıldaya yarpaq kimi,
Həzin-həzin dinə şeirim.
İki ürək arasında
Bir körpüyə dönə şeirim.

Bir yanğılı onu içə,
Duyğularım dilə gələ.
Bir məhəbbət gəlib keçə,
Bu körpüdən ürək ilə…

**28.02.1975**



## KAŞ QATAR OLAYDIM

Yuxudan eləməz bu səs heç kimi,
Təkərlər mürgümə xoş ahəng qatar.
Gecə yol gedərəm, qızmar şiş kimi
Sancılar zülmətin bağrına qatar.

Qışqırsam harayım dağlara çatar,
Muştuluq aparın o doğma kəndə.
Kaş qatar olaydım, işıqlı qatar
Yaxın dostlarıma qoşulub mən də…

**20.07.1974. Qubadlı**

## BİR GÜNDƏ

*Ən güclü kəllər dahilərdir, nəfəs dermədən gündə 18 saat işləyənlərdir.*

*Jül Renar*

Qələmim çətinə düşməyib hələ,
Məni öz seyrinə çağırır aləm.
Saat yox, on səkkiz dəqiqə belə
Oturub yazmağa gəlmir hövsələm.

Məni imtahana çəksəydi həyat
Gözəl söz deməkdə mahir olardım.
Gündə işləsəydim on səkkiz saat
Yəqin elə mən də dahi olardım…

## DARIXIRAM

*Tutuldum şairliyin darıxmaq azarına.*
*S.Yesenin*

Yaman darıxıram, yaman, əzizim,
Tuta da bilmirəm bir yerdə qərar.
Kimisə, nəyisə axtarır gözüm,
Dinclik də bilmirəm düzü xeyli var.

Olubdur qəlbimdə dərd düyün-düyün,
Sevincim nə üçün qəmlə tutuşmur?
Dünənki istəyə çatıram bu gün,
Yenə də, yenə də nəsə çatışmır.

**19.12.1971. Yerevan**

## DÖYÜŞƏN ŞEİRLƏR

*Mənim başqa yolum yoxdur; nəğməm xalqımın düşmənlərinə qarşı amansızdır.*
*P.Neruda*

Çili yaralıdır,
Çili qan itirib...
Dost-düşmən dar ayaqda bilinir.
Öz qanında boğmaq istəyirlər Çilini.
İgidlərin qanıyla yoğrulmuş torpaq
Ayağa qalxacaq yenidən.
Səmada bahar şimşəkləri
çaxacaq yenidən.
Gələcək azadlığın sorağı...
Dünya bir kitabdır,



Çili ən qanlı varağı.
Sözlər döyüşür Çilidə
Həlak olmuş igidlərin yerinə.
Güllə batmır
Pablo Nerudanın şeirlərinə...
Şeirdə hikmət olsa,
Göz yaşını qurudar.
Gərək sözə qarışsın
Bəbəklərin nuru da.
İnamı olan insan
Qoymaz işi yarıda.
Sənətkar mahir olsa,
Olmaz sözün yeri dar.
Gərək əməlləriylə
İgid eli yarıda.
Şeirləri döyüşür,
Ölmüşsə də Neruda...

**18.07.1974. Qubadlı**

## KİPR

*«Dünyanın nəbzi» silsiləsindən*

İki yerə bölünüb Kipr,
Yarısı yunandır, yarısı türk.
Zərbə vursa yunan türkə,
Türk yunana,
Məhv olmazmı o müqəddəs
Kipr ana?!

**17.08.1974**

## İLK MUNCUQ

*«Dünyanın nəbzi» silsiləsindən*

Açıldı ağ günə təzə bir qapı,
Qırılıb töküldü
nəhəng bir təsbehin –
NATO-nun sapı.
Yerə düşdü ilk muncuq –
Yunan eli.
Axdı sevinc seli,
Dünyamızı sevənlərə
gətirdi pənah.
Gözünüz aydın, ay insanlar,
Başqa muncuqlar da qopacaq
bu gün-sabah...

**17.08.1974**

## DÜNYANIN NƏBZİ

Yaraları zoqquldayır,
Sürətlə vurur dünyanın nəbzi.
Bir mərmi partlayışı var
bu vurğuda.
Bu dərd yeni deyil,
Bu ağrı deyil yeni.
Siyasətçilər loğman kimi
tutmaq istyirlər
dünyanın nəbzini.
Gərək xəstə səs-küydən qoruna –



Təskinlik verir dünyanın övladlarına.
Gözlərdəki inama bax.
Sanki deyir:
Dünyamız sağalacaq...

**22.08.1974**

## ÖZÜNÜZ YARADIN

***Getdikcə daha çox insan yaxşı həyat sorağı ilə xaricə getmək üçün vətəni tərk edir.***
***Qəzetlərdən***

Xoş gün gəzirsiniz ölkəbəölkə,
Necə qurtaracaq bu işin sonu?!
Səadət tapdınız bir yerdə bəlkə? –
Kimdə nə yoxdursa, axtarır onu.

Sizin bu axtarış əbəsdir fəqət,
Səadət naminə ayrı yol seçin.
Vətəndən kənarda varmı səadət
Namuslu, qeyrətli vətəndaş üçün?

Ağ günlər uğrunda hər şeydən keçin,
Şad olub sevinər onda vətən də.
Dağ-daşa düşməyin səadət üçün,
Özünüz yaradın onu vətəndə...

**22.08.1974**

## ZƏNGLƏR

*«Dünyanın nəbzi» silsiləsindən*

Deyirlər Xrosimada
Səs-səsə verir
bütün saatlar
Hər gün saat
səkkiz on beş dəqiqədə.
Bu haray deyil hədər,
Bu həyəcan deyil hədər.
Sağalmayıb hələ,
Qövr eləyir
Xrosimanın yarası.
Kəsilmir zənglərin arası.
Bu səslər
Bütün dünyaya çatasıdır.
Bu səslər
Ürəklərdən qopan
həyəcan nidasıdır.
Zənglər xəbərdarlıq edir ellərə,
Zənglər kəmənd olmaq istəyir
Nadinc əllərə...

**30.08.1974**



## BİR GÜNÜN QİYMƏTİ

*Maoçu məhkəmə nümayişçilərdən on nəfərini otuz illik həbs cəzasına məhkum etmişdir.*

*Qəzetlərdən*

O gün adamların çıxmaz yadından,
Qeyrət bəzək olub əsl insana.
Ay vətənsevənlər, vətən adından
Həbs edib saldılar sizi zindana.

Hakim baş sındırıb hey gecə-gündüz,
Verdi hərənizə otuzca il iş.
Vətənə bağlanan bircə gününüz
Demə otuz ilə bərabər imiş...

**29.07.1976**

## ŞEKSPRƏ

Övlad üçün həmişə
Ata ürəyi əsər.
Hamlet – oğlunun adı,
«Hamlet» – yazdığın əsər...
Bir adda iki övlad,
Necə doğmadır bu ad?
Oğlun bir insan ömrü
Yaşayıb sonra köçdü.
Əsərin əsrlərin
Od-alovundan keçdi.

Ürəkləri özünə
Seçdi əbədi mənzil.
Oğlun köçdü, əsərin
Dünyadan köçən deyil...

**05.08.1975**

## XALQIN ÜRƏYİNİN NURU

9 May günü

Təki can sirdaşım qayıtsın deyib,
O xoşbəxt zamanlar dönsün yenidən –
Qələbə naminə əsirgəməyib
Mərd qızlar öz nişan üzüyünü də.

Hamısı döyüşüb, sayım hansını?
Hərəsi çovğuna düşən bir çiçək.
Qəhrəman oğullar qan yuvasını
Dövrəyə alıblar üzük qaşı tək.

Bugünkü döyüşdə bir əzəmət var,
Topları yönəltdik Berlinə sarı.
Düşdü Reyxstaqa projektorlar,
Şəfəqlə boğdular yarasaları.

Etdi qan yurdunu talan şəfəqlər –
Basılmaz ağ günlər yaradan ölkə.
Düşməni lərzəyə salan şəfəqlər
Xalqın ürəyinin nuruydu bəlkə?!

**13.07.1974. Qubadlı**



## XATINLILARIN İNAMI

Hər ev bir ocağa döndü
1942-ci ilin 22 martında.
Novruz bayramını
belə qarşıladı
Dirlet Vaqner Xatında.
Bu il bahar şimşəkləri yerinə
Güllələr dinir...
Cızhacızla yanır
Kəndin 149 sakini.
Bir qoca yanmayıb
ocaq daşı kimi.
Od içindən salamat çıxıb
Səməndər quşu kimi.
Ancaq o necə çəksin bu dərdi?
Bu yanğı o yanğıdan da betərdi.
Dəhşətə bax,
Vaqner insanlardan
ocaq çatıb isinir...
Bəlkə də qoca sağ qalıb
bütün dünyaya danışa
Xatınlıların faciəsini?!
Gözləri önündə alov dilimləri,
Xəyalında ötən günlərə uçar...
Elə bil xatınlıların
od içindən salamat çıxan
ümididir bu qoca...

**07.07.1974**

## MƏN ZƏFƏR ÇALMIŞAM

Gəldi xəyalıma alovlar, odlar,
Alova çevrildi ürəyimdə kin.
Günahsız körpələr, ərsiz arvadlar
Qanlı misrasıdır müharibənin.
Döyüş meydanıdır sanki masam da,
Eşitdim dünyanın ahü-zarını.
Hərb şeir yazanda mən olmasam da,
Əzbərdən bilirəm yazdıqlarını.
Torpağa qarışan qanlar, cəsədlər,
Xaraba şəhərlər, xaraba kəndlər.
«Davadır», göynədir bu söz sinəmi,
Fikirlər axışır od-alov kimi.
Masanın üstündə mən öz sinəmi
Qabağa verirəm Matrosov kimi.
Qəlbimdə alışır sönən mərmilər,
Ağrı yaş gətirib yaşımız üstə.
Zamanın nəbzimi dinən mərmilər?
İnfarkt qorxusu var başımız üstdə.
Elin sinəsinə çəkildi min dağ,
Bu ağrı sümükdən iliyə keçdi.
Mən zəfər çalmışam otuz il qabaq,
Nə olsun ki, yaşım iyirmi beşdi...

**07.12.1974**



## NAMƏLUM ƏSGƏRİN QƏBRİ ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Torpaq lərzəyə gəlib
Güllələrin səsindən.
Vurublar bir igidi
Namərdlər sinəsindən.
Ömrünün bahar çağı
Baharından ayrılıb.
Elə bil ki, durnadır,
Qatarından ayrılıb.
Bəxtiyardır, ölsə də
O gənc cavan yaşında.
Vətəninə atılan
Bir gülləni saxlayıb
Ürəyinin başında.
Qəbrinin üstündəki
Çiçəkləri tərpədir
Yel əscək sərin-sərin.
Torpağın sinəsində
Özü də bir qəlpədir
Bu naməlum əsgərin.

***

El-aləm axıb gəlir
Onun ziyarətinə.
Bu müqəddəs məzara
Baxan var həsrət ilə.
Qəlbi daş gəlsə bura,
Gözləri dolasıdır.

Birinin atasıdır,
Birinin balasıdır.
Birinin nişanlısı,
Birinin... Eh, nə sayım?
Bəlkə də elə mənim
Ya əmimdir, ya dayım?
Ürəyinin atəşi
Ürəkləri isidir.
Hamının doğmasıdır,
Hamının ezizidir.
Ömrünün bahar çağı
Baharından ayrılıb.
Elə bil ki, durnadır
Qatarından ayrılıb...

07.02.1975

## BİR GÜLLƏNİN YARALARI

Bir sinəyə tuşlandı
Bir silahın lüləsi.
Bir ömrə nöqtə oldu
Düşmənin bir gülləsi.
Yaralar sağalmayıb
Ötsə də qanlı illər.
Bir gözəlin sirdaşına,
Bir uşağın atasına,
Bir bacının qardaşına,
Bir ananın balasına
Dəymişdi bu güllə...

17.02.1975



## ÖLƏNLƏRİN QƏZƏBİ

Bir xatirə danışdılar dünən mənə.
Lənətlədim o günləri dönə-dönə.
Eliza Kox adlı bir qız dava vaxtı,
Əsrlərə zülm eləyib, –
Eşidəndə qəzəbimiz şahə qalxdı.
İki əsir öldürməsə o hər səhər,
Bal da yesə olub zəhər.
Pələnglərə atmaq üçün
Güclüləri seçərmiş o.
Ölüm-dirim vuruşuna baxa-baxa
Sərin pivə içərmiş o.
Pələng ilə bir qəfəsdə
Cəng eləmək deyil asan.
Məhv olarmış məsum insan...
Deyirlər ki, o qız işıq düymələri
düzəldibmiş
Ölənlərin dırnağından.
Evi nura qərq olurmuş
Barmağını dırnaqlara basan
zaman.
İnsan ölüb, arzuları
Sönməyibdir, qafil, hələ:
Bu ki adi işıq deyil,
Əsrlərin qəzəbidir yanır belə.
Yandıracaq bu od səni,
Heç olarmı belə insan?
Söylə görüm nə cürətlə

Barmağını dırnaqlara uzadırsan?
O ki adi işıq deyil,
Evin nura dönməyəcək.
O işıqlar ölənlərin qəzəbidir,
Sönməyəcək, sönməyəcək…

28.11.1975

## ƏSGƏR NƏĞMƏLƏRİNDƏN

Təzə gələnlərə sən aciz demə,
Çəkinər, sıxılar onlar bir qədər.
«Qoca» əsgərlərsə «dönüb həkimə»,
Yaralı təqvimi iynələyərlər…

Elə ki, göylərdə ulduzlar sönər,
Ayaqlar urvata salar yolları.
Əsgər çəkmələri mizraba dönər,
Dindirər yolları, çalar yolları…

1974

## BU NECƏ OLAN İŞDİ

Əsgərliyə gedəndə kefsizləyən
atamdan, gözü nəmli anamdan çox
özümü düşünürdüm.
Qayıdanda evləndim,
Təlim məşqinə çağırdılar,
İndi mən özümü yox, qızımı
düşünürdüm…

09.01.1976



## ÖLMƏZ ZƏFƏR

Pardaqlanmış qızılgül
Həya edər, yaşınar.
Bənövşəbığ cavanlar
Dolub on beş yaşına.

Vətən çağırır, haydı!
Bu nə hay, nə haraydı?!
Ayrılıq necə qıydı
O gözlərin yaşına?

Düşmən, əbəsdir arzun,
Əzmi var ordumuzun.
Göz dikmə yurdumuzun
Torpağına, daşına.

Gör neçə nəfər gedir,
Oğul gedir, ər gedir,
«Oğlanlar əsgər gedir,
Kül qızların başına!»

Ölsə də neçə nəfər,
Qazandıq ölməz zəfər.
Qəhrəmanlar səpdilər
Gül qızların başına…

18.01.1976

## SÜLH GÖYƏRÇİNİ

Ağ rəngli libas geyir
Qışda əyninə dağlar.
İnsanlarsa baharda
Geyir qar rəngli paltar.

Ancaq sülh göyərçinim
Ağ donludur həmişə.
İstəmirəm o rəngin
Üzərinə qan düşə...

## ARZU

Anaların qəlbindən yox olaydı təlaşlar,
Təzə nəğmə qoşaydıq təbiətə, günəşə.
Topların lüləsində yuva quraydı quşlar,
Dünyanı nəğmə ilə tutaydılar atəşə...

## YAŞIM AZ OLSA DA

–Neçənci ildənsən?
–50-dən.
–Yox bir!
İnana bilmərik, bu ola bilməz.
–Yaşım o qədər də böyük deyildir,
Cavan olduğuma inanmır heç kəs.
İllərin üstündə ucalmışam mən,
İllər gedibsə də, izi qalıbdır.



Yaşım az olsa da, qocalmışam mən,
Zaman bənizimə qırış salıbdır.
Üzümdə gənclikdən de, əsər hanı?
Bir dostum: –Qəmini gəl unut dedi!
Yaşlı bir şair də söhbət zamanı
Zarafatla mənə «qoca qurd» dedi.
Qayğılar üzümdə silinməz bir iz,
Ağrılar qəlbimə elə deyir ki!...
Evli bir dostumla görüşəndə biz
Gözlərində təlaş mənə deyir ki,
Vaxt ötür, bir azca gəldimi xoşa,
Kim olsa, dayanma, köksündən oxla!
İçi qızıl olsa, yenə daz başa
Qızlar yaxın düşməz, yadında saxla!
Dostum, bu təlaşlar bil ki, hədərdi,
Məni tərk etməyib cavanlığım da!
Elə bu özü də bir növ hünərdi,
Qoca sayılıram cavanlığımda...

**17.10.1970**

## KÖNLÜMÜN PƏNCƏRƏSİ

Dalğalar könlümdə yatan ilhamın
Dinləmək istəyir hər vaxt səsini.
Mənsə tələsmirəm, köksüm yananda
Açıram qəlbimin pəncərəsini...

**03.07.1975. Qubadlı**

## UÇAN YUVALAR

Ev-eşik qurmağın öz aləmi var,
Bir quş yuva qurdu, bala çıxartdı.
Dünyaya təzəcə gələn «zılğa»lar
Səsini quşların səsinə qatdı.

Titrədir yuvanı xoş bahar yeli,
O hansı bəxtiyar quşun səsidir?
Yuva – quşcığazın obası, eli,
Yuva – quşcığazın yer kürəsidir.

Qanadlar titrəyir, ürək tələsir,
Göydə qanad çalmaq
necə də xoşdur!
Bir uçan yuvaya döndü hərəsi,
Hər yuva beş-altı quş olub uçdu...

**23.11.1975**

## QIRMIZI KİTAB

*Nəsli tükənmək təhlükəsi qarşısında olan heyvanların, quşların və bitkilərin adları «Qırmızı kitab»a yazılır...*

Dağların başına yenə qar düşüb,
Dağların dərdini duyan gərəkdir.
Qırmızı kitaba çox adlar düşüb,
Qırmızı – əl saxla, dayan! - deməkdir.



Ürək döyünməyir eyni ahənglə,
Könlümə bir eşqin odu düşübdür.
Qırmızı kitaba qırmızı rənglə
Alagöz ceyranın adı düşübdür.

İtən nəsilləri gətirək yada,
Gözəllik dünyadan qopub getməsin.
Ən ağır itkidir axı dünyada
Nəslin tükənməsi, nəslin itməsi?!

**23.11.1975**

## İNSANLARA

İnsanlar, mehriban olaq bir qədər,
Biz ləkə yaxmayaq heç vaxt təmizə.
Dünyanın dərdləri kifayət edər,
Gəlin dərd verməyək bir-birimizə...

Nə qədər dəyişib bu günkü insan,
Batıb nadanların səsi, ünü də.
Bizim zəmanədə həssaslığından
Ürəklər itirib dözümünü də.

Gərəkli bir işin qulpundan tutaq,
Dediyə-qoduya qoy vaxt olmasın.
Qərəzli tənqidi biryolluq ataq,
İclasın qərarı «infarkt» olmasın...

**10.01.1974**

## İŞIQ KÖRPÜSÜ

Gözdən qiymətli şey varmı adamda?
Qəribə gəlməsin sizə sözlərim.
Gözəl dünyamızla mənim aramda
İşıq körpüsüdür nurlu gözlərim.

Onsuz tanımaram pisi, yaxşını,
Onsuz insan necə arayar, seçər?
Mənim varlığıma işıq qoşunu
Gözlərim olmasa bəs hardan keçər?

Şəfəqlə yoğrulub həyat elə bil,
İşıqlı dünyadan hamı pay umur.
Gözlərim təkcə öz ömrümə deyil
Bütün ömürlərə daşıyaydı nur...

02.02.1975

## ŞİR

Heyvanlar içində məğrur şirə bax,
Meşələr sultanı düşüb çətinə.
Özü bir qəfəsə sığışıb, ancaq
Qəfəs darlıq edir əzəmətinə.

Qotazlı quyruğu yerlə sürünür,
Oynayır gözündə boranlı bir qış.
Qəfəsdə nə qədər yazıq görünür,
Şiri şir eləyən azadlığıymış...

14.11.1974



## SƏHƏR QAYĞILARI

Hələ toranlıqdır, işıq deyildir,
Burda səhərlərin öz qayğısı var.
İşıqlar göz vurur iki bir, üç bir,
Yuxudan oyanır demək adamlar.

Tələsir, tələsir nə qədər insan,
Tinlərdə taksini güdənlərə bax.
Tutub avtobusun qapılarından
Sallana-sallana gedənlərə bax.

Küələkdə bir ana nəvazişi var,
Oyadır Xəzərin ləpələrini.
Tələsə-tələsə ata-analar
Bağçaya aparır körpələrini...

05.11.1976

## MƏN BİR BALIQ İDİM

Arabir dənizin sahilinə çıx,
Balıqqulağıyla hər yan dolubdur.
Mən balıq olmuşam, adi bir balıq,
Qibləm, qibləgahım dəniz olubdur.

Mənim ən müqəddəs arzularım da
Dənizdə alışıb, sahildə sönüb.
Yadımdan çıxarmı, könül tarımda
Hər ləpə bir titrək mizraba dönüb.

Dayazı sevmədim, üzdüm dərində,
Şirin xatirələr könül oxşayır.
İşıqlı dünyadan köçənlərin də
Həmişə dünyada ruhu yaşayır.

Qırılıb simləri könül tarımın,
Vətən həsrətini duyub getmişəm.
Dənizdən gedəndə qulaqlarımı
Dəniz sahilində qoyub getmişəm.

O dadlı nəğməyə həsrətəm axı? –
Ləpələr oxusun qoy xısın-xısın.
Balıq həsrətdisə, balıqqulağı
Dəniz nəğməsinə həsrət qalmasın…

17.06.1975

## MİLLİLİK

Elə yerlim var ki, yadlar yanında
Söyləyə bilmirəm bizim ellidi.
Adi çaylaq daşı hayanda olsa,
Obası bəllidi, eli bəllidi…

05.07.1975. Qubadlı

## BAR AĞACI

Başımda dumana çevrilib fikir,
Dərdli bir ağacın getdim yanına.
Şaftalı o qədər bar gətirib ki,
Sınıb budaqları düşüb yanına…

20.07.1974. Qubadlı



## ONA YANIRAM Kİ…

Göylər nərə çəkdi yenə: "Gum-gurum"…
İki bulud bir-biriylə toqquşdu.
Ona yanıram ki, qopan ildırım
Günahsız ağacın başına düşdü…

## İŞIQ ADASI

İşıqlarımız sönüb,
Girmişəm qaranlığın qoynuna.
Gecə qara qollarını
Dolayıb boynuma.
Xəyalım qaranlıqdan
almaqmı istəyir kamını?
Heç kəs məni görmür,
Gözlərimi yumub
Şəfəqlərin altında
Görürəm hamını.
Ürəyimin, arzumun işığını
Nə vaxtsa işıqlara qatasıyam.
Elə bil qaranlıq dənizində
Kəşf olunmamış
Bir işıq adasıyam…

24.01.1976

## ÇÖRƏYİN NAĞILI

Dən-dən səpdilər torpağa,
Sünbül-sünbül qalxdı.
Bafa-bafa biçib,
Dərz-dərz bağladılar.
Taya-taya vurdular,
Xırman-xırman yığıldı
Torpağın bərəkəti, elin varı.
Fırlandı dəyirman daşı,
Üzü kimi ağ oldu
Dəyirmançının üst-başı.
Ələk-ələk ələndi,
Kündə-kündə düzüldü dəstərxana.
Təndirə od saldı anam. –
Alnındakı tər damlaları
muncuqladı ulduzlar tək.
Elimizin sərvəti,
Gözümüzün işığı,
Qolumuzun qüvvəti
Çörək doğuldu, çörək...

28.02.1975

***

Eşqi bulaq kimi coşur, çağlayır,
Həyatda qazanır özünə ad-san.
Dünyaya gələndə özü ağlayır,
Dünyadan gedəndə ağladır insan.

05.06.1973



## ÇATMA

Əl uzatdım, heç əlim çatmadı,
Nehrənin dar ağacı – çatmadı.
Nehrəyə mat qalmışam,
Edib işləri ağ o.
Asılmasa çatmadan,
Heç kəsə vermir yağ o...

01.07.1973

## XƏLBİR

Zir-zibilin üzünə bağlı,
Yaxşılar üçün açıq qapı.
Divin həqiqət sandığı oyuncaq –
Cırtanın su qabı.
Pisi yaxşıdan seçənlə əlbir,
Ələyin böyük qardaşı – xəlbir...

05.07.1973. Qubadlı

***

Deyirlər dünyada haqq-ədalət var,
Düzlərin üzünə açıqdır qapı.
Ədalət beləmi olur, insanlar,
Büllur kül qabıdır, saxsı gül qabı?!

19.12.1973

***

Özünə çatırmı aldığın maaş,
Yoxsa özgələrdən umursan kömək?!
Qonşunun toyudur, səs salma, qardaş,
Ağır günlərimiz başlanır demək…

**23.09.1973**

## ALOVA DÖNÜR

*«Ulduz» jurnalının redaktoru Əhməd Cəmil biz cavanları redaksiyaya çağırıb tapşırdı ki, istehsalat mövzusunda şeirlər yazaq.*

Hər yerdə qəribə bir əzəmət var,
Əməyin sevinci ayrı aləmdir.
Göylərə dirənən nəhəng sobalar
Zavodun əlində sanki qələmdir.

Bəlkə siqar çəkir bütün fəhlələr,
Tüstüsü bir nəhəng bacadan çıxır?
Əl-ələ verəndə, dostlar, bir qədər
Səsimiz daha da ucadan çıxır.

Hayana baxırsan alovdur, oddur,
Hər kəsi işinin üstündə tanı.
Zavod elə bil ki, bir «paraxoddur»,
Baş alıb gəzəcək bütün dünyanı.



Fəhlə qardaşımdan sən hünər istə,
Elin arxasında durub dağ kimi.
Sobada, zavodun başının üstdə
Alov dalğalanır al bayraq kimi…

**22.04.1974**

## QOCA GÜLBƏSLƏYƏN

Demə ki, gözünün işığı sönüb,
Qoca ürəyində gülür ilk bahar.
O titrək barmaqlar dırmığa dönüb,
Çiçək ləklərini hamarlayarlar.

Arabir düşünər gənclik çağını,
Qartalın ürəyi uca dağ istər.
Qoca gülbəsləyən cavanlığını
Açılan güllərlə qaytarmaq istər.

Gülləri sulayar o, cərgə-cərgə,
Könlündən bir həzin bayatı keçər.
Sanki gül kolları su ilə birgə
Şirin layla içər, zümzümə içər.

Zəhməti gətirdi bahar qocanın,
Ömrün qürubunda işə yaradı.
Adicə gül deyil, bunlar qocanın
Yerdən baş qaldıran arzularıdı.

**23.04.1974**

## DƏNİZ SUYU

*Alimlər dəniz suyundan istifadə etmək haqqında düşünürlər.*
*Qəzetlərdən*

Səhralar susuzdan fəğan qoparıb,
Babalar məzahla deyiblər hərdən:
Səni dəniz ilə susuz aparıb,
Susuz da geriyə qaytararam mən.

Yenə qoca alim gedib xəyala,
Coşur düşüncəsi, gülür arzusu.
Dəniz qulağının dibində ola,
Susuzdan dodağın çat-çat,– nədir bu?!

Eh neçə ürəkdə düyünlər, dağlar,
Dərdli bir ər kimi düşünür Xəzər.
Mənə elə gəlir şoran torpaqlar
Övladı olmayan qadına bənzər.

Səhrada bitməzmi əlvan çiçəklər? –
Bu yerlər həsrətdir ota, yarpağa.
İnsan zəkasından nur içən Xəzər
Həyat gətirəcək şoran torpağa.

Sona yetəcəkdir bu umu-küsü,
Ətirli çiçəklər boy atacaqdır.
Bəxtəvər atanın, Xəzərin səsi
Hər səhər onları oyadacaqdır…

**12.01.1976**



## YARATMAQ ARZUSU

Bilmirəm neyləyim, darıxıram mən,
İşsizlik adamın gəlir arına.
Qopub bir gündüzün adiliyindən,
Düşəm bir gecənin qovğalarına.

Sanki çərçivədə arzu kiçilir,
Düşünə bilmirik çox vaxt dərindən.
Söhbətim ölçülü, sözüm ölçülü,
Günlərim fərqlənmir biri-birindən.

Adilik ox kimi bağrımı deşir,
Qəlbimdən keçəni gərəkdir deyəm.
Gündəlik normanı, gündəlik işi
Yerinə yetirən cihazam, nəyəm?

Sıyrılım şaxtadan ilk bahar kimi,
Günlərim olmasın solğun, qoxusuz.
Hovuzda yaşayan balıqlar kimi
Bəsdir yaşadığım rahat, qorxusuz.

Elə düşünmə ki, naşükürəm mən,
Dinclik də adamın gəlir arına.
Qopub bir gündüzün adiliyindən,
Düşəm bir gecənin qovğalarına…

**30.01.1978**

***

Biçə-biçə biçənəyin otundan,
İçə-içə bulaqların suyundan.
Od almışam bu torpağın odundan,
Boy almışam çinarların boyundan.

Nağılını dinləmişəm nənəmin,
Öz anamın laylasına yatmışam.
İncidəndə bir nazənin sənəmi,
Mən atamın qınağını dadmışam.

Hey düşmüşəm adamların dilinə,
Neçə görüş həsrətiylə yanmışam.
Əlim dəyib bir gözəlin əlinə,
Eh, özümü nə bəxtəvər sanmışam!

İndiki tək anlamazdım əzəllər,
Sanki indi anlamıram heç nəyi.
Ürəyimdə at oynadıb gözəllər,
Arzularım köhlən kimi kişnəyib...

29.07.1978

## ZAMANIN İMZASI

İllər calandıqca yaşımın üstdə,
Qayğım gündən-günə çoxalır, artır.
Görünməz əl gəzir başımın üstdə,
Qara saçlarıma ağ imza atır...

11.02.1978



***

Könlüm dostu, yarı arayar, seçər,
Heyf, aramızda xəbislər də var.
Yaxşımın üstündən sükutla keçər
Pisimi hay-küylə qarşılayanlar.

Cavan bir çinaram, qalxıram təzə,
Bədxahın qəlbinə həyəcan dolub.
Yaşıl budaqlarım görünmür gözə,
Bir quru yarpağım budaqcan olub...

28.01.1976

***

Dərdsizlər dərdimi çətin ki, duya,
Açılan bir zaman solacaq yəqin.
Məni bu həyata borc verib dünya,
Nə vaxtsa geriyə alacaq yəqin.

Əlli il, altmış il insan ömrümü? –
Gedir, hamı gedir göz görə-görə.
Necə çalışım ki, mənim ömrümü
Zaman xərcləməsin havayı yerə?!

04.03.1976

## İNSANLAR KİMİ

Bir vaxt kimsə ona düşmədi yaxın,
Görkəmi qışsa da, qəlbi baharmış.
Üzdən lüt görünən qocaman dağın
Sən demə qoynunda xəzinə varmış...

02.08.1976

***

Ürəyin peşəsidir gecə-gündüz döyünmək,
Dəm vururuq: ömrümüz getməyibdir havayı!
Saçın ağarmasıyla qürrələnmək, öyünmək
Özgə bir şey deyildir toxtaqlıqdan savayı...

04.08.1977. Qubadlı

## BU DÜNYADAN GEDƏNDƏ

Son nəfəsdə gözümdə
canlandı doğma yurdum,
Can atsam da cənnətə,
yollarım duman idi.
Bu dünyaya gələndə
heç kəsi tanımırdım,
Bu dünyadan gedəndə
hamı məni tanıdı...

28.02.1991 – 24.01.1992



***

Bir gün ölüm şərbətini
Öz əlinlə içəcəksən,
Heç darıxma, əvvəl-axır
Bu dünyadan köçəcəksən.
Necə uzun örkən olsan,
Doğanaqdan keçəcəksən.

31.01.1992

## QƏBİR

Bir beşikdir, orda yatan
durmaz bir də,
Cavan yatır, qoca yatır
hər qəbirdə.
Arzuları həqiqətə çevirməyə
ömür çatmır.
Nə yaxşı ki, qəbirlərdə
İnsan yatır,
Arzu yatmır...
Həyat hara, dinclik hara?
Vay o gündən ürək özü
Qəbir ola arzulara...

27.11.1975

***

Bir insan köçdü dünyadan,
Adamlar axışıb gəldilər.
Bir yası neçə yerə böldülər,
Hərə bir ağrı apardı ürəyində...

***

Yatırıq, dururuq,
Yatırıq, dururuq…
Bezirik yatıb-durmaqdan,
Yatırıq, ta durmuruq…

**1990**

## BU DÜNYANIN BİR OVUC TORPAĞI

Bu dünyanın otu çoxdu,
Biçməklə qurtarmaq olmaz.
Bulaqların suyu bumbuz,
İçməklə qurtarmaq olmaz.
Meyvələri neçə sayda,
Tükənərmi dərmək ilə?
Elə gözəl neməti var,
Nə çıxar tək görmək ilə? –
Gözüm doymadı, doymadı…

Gözəl-gözəl arzuların
Çoxuna çata bilmədim.
Şirin-şirin nemətlərin
Çoxundan dada bilmədim.
Bu dünyanın yeri çoxdu,
Gəzib qurtara bilmədim –
Zaman qoymadı, qoymadı…



Çəməni çiçək dənizi,
Dərməklə çiçəyi azalmaz.
Sevmək ilə bu dünyanın
Gözəli, göyçəyi azalmaz…
Bir ovuc torpağını
çox görməyin gözlərimə
bu dünyanın…

**05.12.1980**

***

Ay ana,
vüqar yaxşı şeydir,
ancaq
Məni öldürsələr,
ağla üstümdə!
Yoxsa düşmənlərin sevinərlər –
Elə bilərlər ki, öldürüblər
Qəlbindəki
analıq hissini də…

**19.05.1987**

***

Anıb ötən günləri
Hönkürdüm bütün gecə.
Dedin: – Kişi ağlamaz.
– Anam, bəs şair necə?!

**07.05.1988**

## GÜNƏŞ

Babalar zülmətdə işıq yandırıb,
O nurun şöhrəti tutub hər yanı.
Çıraq bir daxmanı işıqlandırıb,
Deyir: –Qərq etmişəm nura dünyanı.

Yeri tumarlayır şəfəq əliylə,
Çox boranlı ömrü döndərir yaya.
Nurlu ləhcəsiylə, işıq diliylə
Günəş öz sözünü deyir dünyaya.

İsidir hamını bu od, bu ataş,
Bayramdır o, göydə görünən vədə.
Dünyanı işığa qərq edən günəş
Özündən deməyir bircə kəlmə də...

13.11.1975

## CANLI HEYKƏL

O məhzunluq mənə nələr demirdi? –
Güldüyünü görməmişdim heç onun.
Temir kişi elə həmin Temirdi,
Bir tükü də ağarmayıb saçının.

Bu dağlarda udur təmiz havanı,
Baxışları elə hər an yoldadı.
Yola salıb neçə-neçə cavanı,
Neçə dəfə Əzraili aldadıb.



Xəyaldadır, görən anır haçanı?
Salam verdim, nə dindi, nə danışdı.
Kirpiyi də tərpənmədi heç onun,
Elə bildim canlı deyil, heykəldi...

12.08.1977

## AZADLIQ

Ölümdən çəkinmə, ağ günlərə çıx,
Qorxağı mərmi də oyatmayacaq.
Elə bir ağaca bənzər azadlıq,
Qanla sulanmasa, boy atmayacaq...

30.07.1974

## İÇƏRİŞƏHƏR

Qədəm qoydum qoynuna,
dindi qəlbimin simi.
Nə qədər arzu, istək
hər daşında qalıbdır.
Uşaqkən öyrənilən
bir gözəl şeir kimi
Bu şəhər Bakımızın
yaddaşında qalıbdır.

28.07.1976

## DOĞMA DAŞLAR

Qoy öpüm bu daşları,
Onlar necə dağmadır! –
Kim deyir daş yadlaşır?
İnsanlıq tarixini
Yaşatmaq olardımı
Olmasa daş yaddaşı?

12.08.1977

## BAKI

Mənim doğma şəhərəim,
Qoy sənin gələcəyin
Şeirimin baxtı olsun!
Deyirəm Bakı adlı
Elə şeir yazım ki,
Bütün şeirlərimin
Doğma paytaxtı olsun!

## DAN ULDUZU

Göydə par-par parıldayır,
Hünərin var dan ulduzu.
Nurlu, aydın bir səhərdən
Xəbər verir dan ulduzu...

29.08.1977



***

Deyir görən Ay necədir?
Nə var Marsda, Yupiterdə?
Tay-tuşuyla maraqlanır
Elə bil ki, bizim Yer də.

Şairəmsə, insanların
Arzusunu gərək biləm.
Hər insan bir planetdi,
Hər könül bir sirli aləm.

11.02.1975

## GÜNƏBAXAN

Günəbaxan boy atdı,
Göyə ucaldı, qalxdı.
Əvvəl günə baxırdı,
Böyüdü, yerə baxdı.

Ömrünün son çağında
Həyatı dərk elədi.
Boğazını üzdülər,
Dünyanı tərk elədi...

15.08.1988

## SAZ

*Aşıq Ədalətə*

Sinəsinə sazı basıb,
Ürəklərə od ələdi.
Dağ çayıdır saz havası,
Simlər sanki şəlalədi…
Ulu Qorqud zamanından
Məclisləri bəzərdi saz.
Yerdə sönmüş kösöv idi,
Ədalətin sinəsində
Yavaş-yavaş közərdi saz.
Tellər titrək, əllər titrək,
Ürəyinin hərarəti
Odlu bahar günəşi tək
Dili donmuş sədaların
Dilini açdı.
Yenə coşdu,
çağladı saz.
Atasına həsrət qalan
bir qız kimi
Ədalətin sinəsində
ağladı saz…

**03.09.1975**



## MUĞAM

Muğam elə ağacdır ki,
Neçə-neçə budağı var.
Bir budağı «Çahargah»dır,
Biri «Şur»dur, biri «Qatar»…

## YETİM SEGAH

O, duyğular çırağıdır,
Əsrlərlə yanasıdır.
Bu dünyada ona
ölüm-itim olmaz.
Odlar yurdu Azərbaycan
O kəsin ki, anasıdır,
Yetim olmaz, Yetim segah,
Yetim olmaz!
Bir ürəyin harayını
Min ürəyə yetirmisən,
Yetim segah!
Söylə, kimin yetimisən,
Yetim segah?!
Bircə gün də yaşamazdın
Ürəklərin arzusuna
tən olmasan.
Muğamımız yetimləşər
sən olmasan…

## MƏN İNSANAM

Quşsan əgər uç göyünə,
Daha dənizlə nə işin?
Balıqsan get dənizinə,
Daha göylərlə nə işin?
Torpaq sənə bəs etmirmi,
Get taxıl ək becər, kişi...
Ağlım məni uca edib,
İnsanam, hər şey mənimdi.
Hava mənim, torpaq mənim,
Dəniz mənim, göy mənimdi...

**12.06.1985**

## HAMININ ÜRƏYİ VAR

Həsrətdən göynəmirsə,
Neynirəm o qəlbi mən?
Gözlərim pəncərədi,
O pəncərədən keçib,
İşıq düşür qəlbimə,
Sevgi düşür qəlbimə...

O adam bədbəxtdi ki,
Heç kəsə könlü yoxdu.
Hamının ürəyi var,
Hamının könlü yoxdu...

**05.06.1985**



## ACI HƏQİQƏT

Biri gec gedir,
Biri erkən.
Ölüm doğanaqdı,
Ömür örkən.
Uzun ömür istəyərsən
Yaşamağa üzün olsa!
Doğanaqdan keçəcəkdir
Örkən necə uzun olsa...

**30.08.1977**

## KİTABXANA

Qarşımda bir yığın kitab
xəyala dalmışam,
Deyirəm: qəribə dünyadı...
Kitabın cildi qapıdır elə bil,
Üstündə müəllifin adı...
Elə bil çırpılır təpəmə
Həqiqət deyənək olub...
Kasıbın qapısını açan yoxdu,
Zənginin qapısı döyənək olub...

**04.11.1977**

***

Təklikdən darıxma, gələcəyə bax,
Bu gün dənə olan sünbüldür sabah...

**19.07.1974. Qubadlı**

## FUTBOL TOPU

Meydançada mübarizə,
Meydançada haray-həşir.
Sanki vəzifədi futbol topu, –
Bunun ayağından qopub,
O birinin ayağına düşür.
Çoxunun damağından
getməyib hələ
qol vurmaq dadı.
Hünər bu topu özündə çox
saxlamaqda deyil,
Hünər qol vurmaqdadı...

**17.12.1981**

## AVRORA

Kül elədi xəstəliyi
«Avrora»nın sönməz odu.
Siqar aldım, dünən siqar,
«Avrora»ydı onun adı.

Bilmirəm heç kimdi nadan? –
Siqaretlər hey satılır...
Sən işə bax, «Avrora»dan
Sağlamlığa top atılır...

**15.08.1970. Qubadlı**



## KAMAN

Dadlı xatirələr geri dönəndə
Özümü sayıram qəhrəman kimi.
Kaman çalınanda, kaman dinəndə
Qaşlarım çatılır bir kaman kimi.

Zili nalə çəkər, yandırar bəmi,
Tikanmı çıxarar o yarasından?
Sanki əsrlərin həsrəti, qəmi
Çıxar kəmanəylə sim arasından.

Bir ürək alışar, çəkib zəbanə,
Göz yaşı qəlbimi sel-sel yandırar.
Simlərin üstündə gəzən kəmanə
Duyan ürəkləri tel-tel yandırar.

Kiminsə qanına hopar zəlzələ,
Bax onun səsində yatan nisgilə.
Elə bil, elə bil qopar zəlzələ,
Kəmanə ətrafa alov püskürər.

Nakam insanları düşünəndə mən
Habil kaman çalar titrək əliylə.
Dünyada ilk dəfə qanı tökülən
Habilimi anar kaman diliylə?

**28.03.1971**

## ADSIZ ŞEİRLƏRİM

Sizə ad tapmadım qoymağa düzü,
Durub-dayandınız səssiz-səmirsiz.
Adsız şeirlərim, həyatın özü
Sizə ad verəcək, darıxmayın siz...

1970

## ARAZ DƏRDİ

Dərd hesab eləmə hər az dərdini,
Dərdsizlər ah-fəğan qopara bilməz.
Mənim sinəmdəki Araz dərdini
Arazın özü də apara bilməz...

1970, iyun, Bilgəh.

## ARAZ

Araz nur olub axsa da,
O sahilə, bu sahilə.
Həsrət qoyub bu insafsız,
O sahili bu sahilə...

1978



## MEYVƏLİ MİSRALAR

Çıxacaq önünə yüz təzə fikir,
Bacar təbiətin qılığına gir.
Dünyada ən böyük şair odur ki,
Dünən yazdığını bu gün bəyənmir.

Şair tək hər cövrə dözüb təbiət,
Heç nə birdən-birə olmayıb hazır.
Çiçək misraları pozub təbiət,
Yerinə meyvəli misralar yazır.

20.06.1973

## OCAQ YERİ

Yenə damğalayıb anamız yeri
Kim vurub düzlərə bu süni xalı?
Dəydikcə gözümə ocaq yerləri
Sanıram deşilib güllü bir xalı.

Təbii olubdur hər an təbiət,
Çəmən neyləyir ki, süni «bəzəyi»?
Yenə də sağ olsun loğman təbiət,
Yağış ilmələrlə onu gözəyir...

11.06.1973

## TƏBİƏT DONUNU DƏYİŞDİRİR Kİ...

Hər fəslin çaları bir sevinc olur,
Ana təbiətin qüdrətinə bax.
Yazda yaşıl olur, yayda tunc olur,
Payızda sapsarı, qışda ağappaq.

Arzular sayrışır ulduzlar təki,
Ürəyim pay umur qışdan, bahardan.
Təbiət donunu dəyişdirir ki,
Gözlər yorulmasın eyni çalardan.

**31.01.1974**

## FƏSİLLİ ARZULAR

Baharda söylədim tez gələydi yay,
Yayda arzuladım qızıl payızı.
Payızda şaxtalı qışdan umdum pay,
Qışda xatırladım ətirli yazı.
Hələ duymamışdım indiyə qədər
İnsanda fəsilli olurmuş arzu...

**17.08.1973**



## FƏSİLLƏRİN NƏRDİVANI

Gəldi torpağıma gül üzlü bahar,
Yurdumda bu təzad bilmirəm nədir?
Düzlərdə gül-çiçək, dağ başında qar,
Qışın bir ayağı zirvələrdədir...

Lövhələr qəlbimi salıb heyrətə,
Yayda qoca dağlar bir cavan olur.
Mən heyran qalmışam bu təbiətə,
Dağlar fəsillərə nərdivan olur.

Hardasan, ay şaxta, vədə yetişib,
Zirvəyə ələnir ağ yavaş-yavaş.
Qış göydən dağların çiyninə düşüb,
Arana yeriyir bax yavaş-yavaş...

**30.11.1975**

## TƏBİƏT

Yazda qıza bənzəyir,
Təravətli, ətirli.
Yayda dönür gəlinə,
Hərarətli, xətirli.
Eh, təbiətin işi
Qəribəymiş nə qədər!
Payızda ana olur, –
Övladları meyvələr.

**29.08.1974**

## RƏSSAM BAHAR

Qış ağ kətan saldı sanki,
Dümağ etdi yeri qəsdən.
Bahar günəş fırçasını
Gəzdirdi ağ kətan üstdə.

Ağacların çiçəyini
Elədi ağ.
Sonra çəkdi budaqlara
Yaşıl yarpaq.

Fırçasının hərarəti
Şəlaləyə ahəng verdi.
Boya seçdi səxavətlə,
Hər çiçəyə bir rəng verdi.

O, qurtarıb öz işini
Qüdrətini duyur indi.
Rəssam bahar fırçasını
Bulaqlarda yuyur indi...

15.01.1976

## NƏ OLAYDI

Nə olaydı, dönüb kiçik yarpağa,
Budağında yellənəydim, ay Vətən.
Güllüyündə gül dərincə qürbətin,
Küllüyündə küllənəydim, ay Vətən.

19.04.1977



## BAHAR LÖVHƏSİ

Dərəyə bir həzin səs dolub, nədir? –
Şəlalə inləyən kaman olubdur.
Güllərin ətrindən məst olub, nədir? –
Dağların başını duman alıbdır.

20.02.1973

***

Dağların, düzlərin loğmanı bahar,
Tez gəl, sətəlcəmdir anamız torpaq.
Gün çıxsın, dağlarda qoy ərisin qar,
Xəstə tərləməsə, ayılmayacaq...

24.12.1973

## YAĞIŞDAN SONRA

Şehə bax, üstündə sanki zər gülür,
Hər kiçik damlanın çaları mindi.
Kəsib narın yağış, şəfəqlər gülür,
Elə bil yamaclar təpiyib indi...

16.06.1973

***

Şəfəqlər altında min rəngə çalar,
Güllərin mirvari sırğasına bax.
Sellənə-sellənə çağlayır sular,
Buğlana-buğlana dincələr torpaq...

24.02.1974

***

Torpaq yağışı da uddu sevincək,
Yerə həyat verdi göylərin qəmi.
Çəməndə boy atan hər ot, hər çiçək
Dikəldi yağışın baş daşı kimi...

20.01.1976

## YAYIN GİLEYİ

Nəfəsi od qoxulu yay
Bir gün mənə etdi giley:
–Fəsillərin arasında
Elə mənəm sənə ögey?

Nə deyim ki, arifsənsə
Elə bu da bəsdi sənə.
Bu soyuqluq nədir axı
Fəsillərin istisinə?!

–Sənin kimi atəşlidir
Günüm mənim, ayım mənim.
Axı odun istisini
Od nə bilər, yayım mənim?

***

Yayın qızmar çağında
Ehtiyac var buza da.
Yay odlu bir dənizdir,
Soyuducu buz ada.



Qışın oğlan çağında
Ehtiyac var oda da.
Yay odlu bir dənizdir,
İsidici od ada...

14.11.1975

## PAYIZ LÖVHƏSİ

Meyvələrin yanaqları qırmızı,
Ürəyinə düşən bir şey var, istə.
Qaynanası nə çox istər payızı,
Nə vaxt gəlsə, gəlib çıxar bar üstə...

15.02.1973

## PAYIZ NOTLARI

Yarpaqlar hərəsi bir oda döndü,
Kövrək duyğuları yandırdı, yaxdı.
Lüt qalan hər budaq bir nota döndü,
Baxdım, ürəyimə xoş səda axdı...

Dinlədim xəzəlin xışıltısını,
Bir xoş səda gəldi eh, hər addımdan.
İşdəki danlaq da çıxdı yadımdan,
Evdəki giley də çıxdı yadımdan...

1973

## PAYIZ TOYLARI

Əzgillər budaqdan asıla qaldı,
Yazgüllər böyüyüb düşdü sevdaya.
Ağacın qəlbinə hicran od saldı,
Uçuşan yarpaqlar can atdı toya.

Bir arpa boyu da artdı boyları,
Gözəllər seçilib sonalandılar.
Dağlara səs saldı payız toyları,
Meşələr həsrətlə xınalandılar...

16.12.1976

## PAYIZIN SONUYDU

Payızın sonuydu, endim sahilə,
Məni göynədirdi uğursuz eşqim.
Qəmgin görməmişdim dənizi belə,
Sahildə gözümə dəymirdi heç kim.

Dənizi, sahili qınamıram mən,
Sanki adamları gözləyir onlar.
Oğulu, uşağı çəkilib gedən
Ataya, anaya bənzəyir onlar...

04.01.1976



## QAR YAĞIR

Qar yağır, qar yağır vermədən ara,
Qar yağır, qar yağır uca dağlara.
Demə unudulmur payızın qəmi,
Meydan şaxtanındı, qarındı bu gün.
Təmiz qar bir anda ağ tənzif kimi
Yaralı torpağa sarındı bu gün.
Şaxta at oynadır yenə o yanda,
Bəs bahar nə zaman haya çatacaq?
Torpağın yarası qaysaqlayanda
Açıb o tənzifi çaya atacaq...

17.01.1972

## QAR YAĞIR E, QAR YAĞIR

Torpaq qarsız darıxıb,
Yerə ilk nübar yağır.
Mənimsə ürəyimə
Şirin duyğular yağır,
Qar yağır e, qar yağır...

Kamanmı çalır yellər?
Dilə gəlir könüllər.
Çılpaq qalmışdı çöllər,
Dağlara paltar yağır,
Qar yağır e, qar yağır...

Qonur yerə ahəstə,
Torpağın, daşın üstə.
Hər titrəyiş bir bəstə,
Təzə mahnılar yağır,
Qar yağır e, qar yağır…

Əllərində yun əlcək,
Oynayırlar sevincək.
Körpələrin qəlbinə
Elə bil bahar yağır,
Qar yağır e, qar yağır…

Buludlar noğul tökür,
Daşda kəkliklər səkir.
Təbiət tablo çəkir,
Neçə cür çalar yağır,
Qar yağır e, qar yağır…

Eh, nə edir o nadinc?!
Ürək onsuz deyil dinc.
Bu gün hamıya sevinc,
Mənə intizar yağır,
Qar yağır e, qar yağır…

**12.12.1973**



## QIŞ LÖVHƏSİ

Tar bağlayıb yolları,
yaradıbdır qar təpə,
Külək qoymaz yeriyəm,
gözlərimə qar təpər.
Yoldan dönmərəm, məndə
qoymasa da qar təpər…

**08.01.1977**

***

Lopa-lopa qar ələnər,
Yaza qalmaz.
Topa-topa güllər açar,
Düzə qalmaz…

**1976**

## BU QIŞ

Bu qış fürsət axtarırdı
havaxtdan,
Bu qış meydanı bahara verib,
saldı onu sərvaxtdan.
Havalar birdən-birə soyudu…
Bu qış bahardan sonra gəlib,
Payızı yetim qoydu…

**28.02.1981**

***

Yarpaq düşdü, ot soldu,
Çöllər yetim göründü.
Qar yağdı, dağlar, düzlər
Ağ kəfənə büründü.

Kükrəməyin, daşmağın
Gəldi vədəsi, vaxtı.
Yaz gələndə təbiət
Kəfəni deşdi çıxdı…

**08.12.1975**

## QIŞDAN YAZA

Endi torpağın başına
Qarlı qışın buz qılıncı.
Bahar gəldi, sındırıldı
Bu torpağın buz qıluncu.

Ana yurdun qış donunun
Buz düyməsi açılan tək,
Göründü əlvan sinəsi,
Yaxasında min rəng çiçək.

**31.01.1980**



## GÜNƏŞ BİRCƏ DƏNƏDİR

Ürəyimdən keçənlər
Bu dünyada deyil az.
Nə istəsən tapılar,
Ancaq hamıya çatmaz.
Günəş bircə dənədir,
Şəfəqləri sularda
Gör nə qəşəng rəqs edir?!
Meşəyə də, dağa da,
Səhraya da, bağa da,
İnsana da, quşa da,
Torpağa da, daşa da
Bircə günəş bəs edir…

**24.04.1974**

## MEŞƏ

Bu gün qonaq gəlmişəm mən
Meşələrin sinəsinə.
Düz yerimək mümkün deyil,
Yeriyirəm sinə-sinə…

Elə bil ki, yaşıl meşə
Gedib səhər yuxusuna.
Yemşan ətri qarışıbdır
Həmərsinin qoxusuna.

Əzgil, fındıq, quşarmudu
Meşələrin bəzəyidi.
Yarpaqlara sığal çəkən
Sərin səhər küləyidi.

Hey gedirəm, yorulmuram,
Qəlbimdəki həvəsə bax!
Cökəylə qol-boyun olan
Fısdığa bax, vələsə bax!

Ağcaqayın əl eləyir,
Vən ucalır buludlara.
Heyran-heyran göz qoyuram
İri, nəhəng palıdlara.

Bilmirəm üstümə düşən
Hansı ağac kölgəsidi.
Sanki meşə ağacların
Beynəlmiləl ölkəsidi...

**1971**

## YAŞIL DƏNİZ

Doğmadır, əzizdir
Meşəmiz.
Yaşıl bir dənizdir
Meşəmiz.
Qoynunda neçə cür
Heyvanlar gəzirlər.



Bu yaşıl dənizdə
Balıq tək üzürlər.
Dörd yana baxıram,
Çəkilib qırağa.
Hər yarpaq bir ləpə,
Hər budaq bir dalğa.

**16.12.1973**

## SU ATA, TORPAQ ANA

Bir ağac quruyarsa,
Anamız torpaq üçün
Ağır itki deyilmi?
Ana torpaq, ata su,
Övlad bitki deyilmi?!

Quraq yeri qurudub,
Yenə də ana torpaq,
Çalışıb ki, solmasın
Bircə gül, bircə yarpaq...

Oğlunu quraqlığın
Odundan keçirib o.
Sevimli əri sudan
Qalan son qətrələri –
Şirin xatirələri
Ağaca içirib o...

**12.01.1976**

## TƏK AĞAC

Bir düzün ortasında
Bir dənə düz ağac var.
Onun kölgəliyində
Sərinlənir yolçular.

Burda dincələnlərə
Yelpik olur hər yarpaq.
Bu ağacın dibindən
Qaynayır bir buz bulaq.

Çəmənin sərin suyu
Gecə-gündüz çağlayır.
Sanki tək qaldığından
Qoca palıd ağlayır.

İstiyə bax, istiyə,
Alışıb yanır hər yan.
Bəlkə tərləyib ağac? –
Tər axır dabanından…

Saralıbdır çöl-çəmən,
Bu il yaman quraqdı.
O ağacı saxlayan
Yaxşı ki, bu bulaqdı…

**11.07.1975. Qubadlı**



## MEŞƏBƏYİ

Aşa bilməz bir baltalı öz həddini,
Səməd kişi seyirdəndə səməndini.
Ağaclar da şux saxlayar öz qəddini,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Qoymaz əli baltalılar əl-qol aça,
Övlad kimi qiymət verər hər ağaca.
Meşədəki bütün quşlar toxtaq uçar,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Vüqarlıdır bir qocaman palıd kimi,
O olmasa, haraylasın palıd kimi?
Ağac kəssən, dolacaqdır bulud kimi,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Elə bil ki, darı dəlir qulaqları,
Qartal kimi seyr eləyir uzaqları.
Qanadıdır ağacların budaqları,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

**14.07.1974. Qubadlı**

## PALID ƏZƏMƏTİ

Heç bir şey gəlməyir eyninə,
Bürünüb bir topa buluda.
Dibçəkdə boy atan ağacı
Tay tutma qocaman palıda.

02.09.1973

## LİMON AĞACI

Ağ libasda görəydiniz kaş onu,
Solar, özgə baxışına dözməyir.
Bir gəlindi, sanki qışdan yaşınıb,
Sevgilisi ilk baharı gözləyir...

27.03.1981. Astara

## ÇINAR KÖLGƏSİNDƏ

Gün qalxdı, yamaclar nura bələndi,
Yel əsdi, üstümə çiçək ələndi.
Uzandım ağacın kölgəsində mən,
Çəkdim ciyərimə dağ havasını.
Sənin qucağında, Vətən, ay Vətən,
Duydum yaşamağın xoş mənasını.
Yarpaq əllərini açıbdır çinar,
Elə bil ovcunda süzür günəşi.
«Torpaq soyuq olur» deyən adamlar
Torpaqdan almırmı odu, atəşi?
Duydum ulu yurdun sədaqətini,



Arzular közərdi, çırpındı ürək.
Torpaq soyuq deyil, hərarətini
Bizə bəxş eləyir son qətrəyədək.
Dedim: – Boylu çinar, biz ki həmyaşıq,
Bir söz de, dilləndir könül tarımı.
Yerdəki hərarət, göydəki işıq
İsitdi arzumu, duyğularımı...

02.07.1976. Qubadlı

## MEŞƏ BULAĞINDA

Endim bulaq üstə mən su içməyə,
Bir qız daranırdı baxıb çeşməyə.
Utandı, əlindən düşdü darağı,
Güzgüsü qırıldı ayna bulağın...

11.07.1976, Qubadlı

## TƏBİƏTİN QORUĞU

Bir vaxt bu yerlərdə quş yox idi heç,
Uzaqdan baxanın sevinir gözü.
Sel oyub, hünərin var qabağa keç,
Qoruq düzəldibdir təbiət özü.

Dərələr açıbdır iri ovcunu,
Düşən çıxa bilməz elə dərindi...
Quşlar görən kimi köhnə ovçunu,
Yandıq verə-verə oxuyur indi...

11.07.1976, Qubadlı

***

Elimi, obamı seyrə çıxmışam,
Yaya təhvil verib öz yerini yaz.
Doğma kəndimizə gəldim bu axşam,
Gəldim həzinləşim, kövrəlim bir az.

Əski yaraların göynəyir yeri,
Qorxuram ürəyim təzədən sına.
Nəğməkar qəlbimin döyüntüləri
Qarışıb qatarın taqqıltısına…

Axır yanağıma göz yaşı dən-dən,
Sevincək olmuşam, bu gün sevincək.
Baxıram qatarın pəncərəsindən,
Ürəyim açılır bir pəncərə tək.

Haraya köçürüm duyğularımı? –
Təbiət düzləri önümə sərdi.
Mənim kökdən düşən könül tarımı
Kökləyən yaralı xatirələrdi…

**03.07.1975. Qubadlı**

***

Könlüm istəyir
Uça dağlara.
Uca dağlara.

**29.08.1975**



## DAĞLARIN MEDALI

Göylər qaşqabaqlı, buludlar kövrək,
Damcılar ələndi üstümə tək-tək.
Üzümə dağların havası dəycək,
Könlüm havalandı bir qartal kimi.

Leysana təşnədir, yer cadar-cadar,
Şıdırğı yağışın öz aləmi var.
Damcı əlləriylə sanki buludlar
Daşları çalırdı bir qaval kimi.

Dağ ürəkli oğul dağa qısılıb,
Yerin sinəsində nələr yazılıb?
Elə bil işıqlı evlər asılıb
Dağların döşündən bir medal kimi…

**10.07.1974. Qubadlı**

***

Bir xoş səda enib gələr,
Sular coşar, sular çağlar.
Dodağında gur çeşmələr
Tütək çalır sanki dağlar.

Xəyalım bir lövhə çəkdi,
Hara baxsan gül-çiçəkdi.
Dağ elə bil bir inəkdi,
Məmələri buz bulaqlar…

**27.02.1975**

## DAĞ VƏ ÇAYLAR

Bulaq gücünü dağdan,
Çay gücünü bulaqdan
Alıb axır çöllərə,
Obalara, ellərə.
Ətirli gül-çiçəklər
Yamacları bürüyüb.
Dağ sanki bir gözəldir,
Çaylar onun hörüyü...

10.12.1975

***

Gəlmişəm mən kəndə
Düşmüşəm kəməndə.
Ətirli çəməndə
Az qalır gül daşa.

Sevir bir qız məni,
Deyir ki, üz məni.
O sanır buz məni,
Tuş olub gül daşa.

Eşqini danma gəl,
Ey gözəl, yanma gəl,
Məni daş sanma gəl,
Dolanaq gəl qoşa.



Oxuyur küləyim,
Naz satır çiçəyim.
Sevincdən ürəyim
Dönübdür bir quşa.

Odlardan keçmişik,
Ağ günlər seçmişik,
Xalqımın keçmişi
Yazılıb hər daşa.

Yorğunsan, nəfəs dər,
Oturaq bir qədər,
Şəhərdən gələnlər
Gülməsin bardaşa.

Ürəkdə min həvəs,
Hər yana düşdü səs,
Kim xəbər verdi bəs
Qohuma, qardaşa?

Arzular boy atar,
Burda min büsat var,
Yaradan insanlar
Layiqdir alqışa.

Nur – dağın selində,
İş insan əlində.
Güllü yaz əlində
Yer olmaz sərt qışa.

Unutma sən barı,
Bu şirin çağları.
Seyr elə dağları,
Veriblər baş-başa.

Boşalmaz dolmayan,
Güllər ək, solmayan.
Heç şair olmayan
Bu yerdə söz qoşar...

13.12.1975

## YAYLAQ

El qayıtdı, yaylaqlarda
Sürü qalmadı, qalmadı.
Nur çeşməli bulaqlarda
Pəri qalmadı, qalmadı.

Oxuyardı bulaqların,
Hanı, hanı o çağların?
Qar ələndi, ocaqların
Yeri qalmadı, qalmadı.

Pay umdular baharından,
Yayda buzundan, qarından.
Dar günündə dostlarından
Biri qalmadı, qalmadı.

16.01.1977



***

Gözümün önündə dayanıb dağlar,
Xəyal ayaq tutub ora yeridi.
Zirvələrə qalxan cığırlar ki var,
Elə bil alpinist kəndirləridi...

1975

## BULAQ

Onu qorxutmadı nə qar, nə sazaq.
Qışın şaxtasında isindi bulaq
Açıq-açığına.
Üç aylıq ağanın kefi pozuldu,
Günün qızmarında dönüb buz oldu
Yayın acığına.
Həmişə ürəkli olmaq istədi,
Palaza bürünmək istəməsə də,
El ilə sürünmək istəməsə də,
El üçün gərəkli olmaq istədi...

25.02.1977

## DAĞ SELİ TƏK

Zaman keçir sürətlə, hisslər yuvası ürək
Təzə üzünü görür ayın da, günəşin də.
Kövrək xatirələrim qışın qarı, buzu tək
Əriyib selə dönür qəlbimin atəşində.
Təzəcə qurşanmışam mən kağıza, qələmə,
Cavanam, dağ seliyəm, bulanığam hələ mən.

Vaxt gələr ki, suyumun lili, qumu yox olar,
Coşqunluğum azalar, duruluğum çoxalar...

21.04.1977

## AĞAC KİMİ

Düşünürəm, ağacların nə qəribə taleyi var? –
Mən bir ağac tanıyırdım, yarpaqları yandı, soldu.
Yoxa çıxdı kölgəsi də, onu kəsib yandırdılar.
İstisinə isindilər, külü isə gübrə oldu.
Əgər dara düşən olsa, harayına gələ biləm.
Deyirəm kaş öləndə də ağac kimi ölə biləm...

1975

## DAĞ ÇAYI

Çeşmə-çeşmə paqqıldayan gözü var,
Onun üçün maneələr heç nədi.
Axıb gedir, çöllər, düzlər, tarlalar
Dağ çayının nəğməsinə təşnədi.

Zirvədəyəm, unutmuşam özümü,
Könül açır zümrüd donlu yamaclar.
Dağ şairdi, çyalar onun sözümü? –
Oxucumu otlar, güllər, ağaclar?!

01.02.1980



## NUR ÇAYI

Nəhəng əjdahanı ram edib insan,
Göstərib dünyaya mahirliyini.
Həyata, insana gərək olandan
Kür yerə qoyubdur öz kürlüyünü.

Vahimə yaradan sonsuz harayı
İndi ən müqəddəs arzuya dönüb.
Dağda haray salan neçə dağ çayı
Onun qucağında quzuya dönüb.

Aşır bərələri, aşır bəndləri,
Elə doğmalaşıb, demə qəribdir.
Bir göz həkimidir sanki, kəndlərin
Qaranlıq gözünə işıq veribdir.

Geriyə qayıtmır ömür-gün kimi,
Axır, dayanmadan axır Kür çayı.
Nura qərq edirsə eli gün kimi,
Gərəkdir adını qoyaq Nur çayı...

13.07.1974. Qubadlı

***

Nur gətirib səhər mehi
Arzuların bəbəyinə.
Kim doldurub büllur şehi
Lalələrin göbəyinə?

1975

## GÖYGÖLLƏ SÖHBƏT

Suyun büllür imiş, cumdum dərinə,
Gördüm duruluğun hamıya çatar.
Sənin o nazbalış ləpələrinə
Kövrək duyğularım baş qoyub yatar.

Sənsiz keçən günlər hədərmiş, hədər,
Vuruldum özünə, təbiətinə.
Göy gölüm, bağışla, bu vaxta qədər
Gələ bilməmişəm ziyarətinə.

Suyundan bir ovuc götürməmişəm,
Bu ömrə bəs necə ömür deyim mən?
- Ay oğlan, mən heç nə itirməmişəm,
Neyləyim, özün küs öz taleyindən.

**28.04.1977**

## GÖYGÖL

Şairlər hüsnünə nəğmə qoşarlar,
Gözəllik önündə coşub-daşarlar.
Səndən söz açanlar büllurlaşarlar,
Səni anmayanı kim andı, Göygöl?!

Günəş dağ belində qızılı bir yəhər,
Bəs kimi gözləyir bu azman kəhər?
Gəldim görüşünə mən səhər-səhər,
Qonağın gözəllik umandı, Göygöl.



Adi göl sanmadım axı mən səni,
Azmı istəyirəm dənizdən səni?
Qorumaqmı istər yad gözdən səni? –
Kəpəzin ətəyi dumandı, Göygöl.

Yüyür qabağıma, daşınma məndən,
Sənə gül ataram, daş umma məndən,
Özgəsi deyiləm, yaşınma məndən,
Gizləmə üzünü, amandı, Göygöl.

Ürək bir ləpəyə – bir simə bənddi,
Mən Göygölə vurğun, o kimə bənddi?
İndicə dinəcək, bir himə bənddi,
Elə bil köklənmiş kamandı Göygöl.

Hər qırçın ləpəndə ürəyim qalıb,
Mənə elə gəldi günlər qısalıb.
Xoşbəxtlik zirvəsi olub vüsalın,
Sənin ayrılığın yamandı, Göygöl.

**28.04.1977**

***

Dənizə gedirəm hər səhər tezdən,
Dənizlə başlayır mənim iş günüm.
Ürəyim, gözlərim doymur dənizdən,
Susdura bilmirəm dəniz eşqini…

**18.05.1977**

## DƏNİZ LÖVHƏSİ

Nəğmələrin hər çaları
ürəkləri oda salır,
Nəğmələrin xoş ahəngi
ruhumuza nur səpələr.
Mən sahildə dayanmışam,
dəniz sanki kaman çalır,
Ləpədöyən kamandısa,
kəmanəsi göy ləpələr…

22.06.1975

## GÖYLƏR SANKİ DƏNİZDİR

Göylər mənə əzizdir,
Orda nələr, nələr var?!
Göylər sanki dənizdir,
Dalğaları buludlar.

Sehrli bir aləmlə
Dayanmışam üz-üzə.
Ulduzlar gözəllər tək
Baş vurublar dənizə.

Buludlar tərpənəndə
Mənə elə gəlir ki,
Dalğalar coşub-daşır.
Dalğalar ulduzların
Başı üstündən aşır.



Bu laciverd göylərin
Seyrindən doymur ürək,
Yuxu getmir gözümə.
Yağışlar dalğaların
Saçlarından qoparaq
Gümüşü dalğalar tək
Səpələnir üzümə…

15.08.1975

***

Dalğalandı, yenə də dindi Xəzər,
Dənizi seyr elədim, coşdu ürək.
Mavi bir don geyinib indi Xəzər,
Dalğalarsa bu donun qırçını tək.

Suya gircək o gözəl gəldi dilə,
Kükrədi, mavi sular döndü qara.
İstədim mən də qoşam həsrət ilə
Qəlbimin dalğasını dalğalara.

Bu qədər ayrılığa qəlbmi dözər?
Dənizin qoynuna cümdüm yenidən.
İltimas eyləyərək mavi Xəzər
Donunun altına aldı məni də…

20.05.1976

***

Lövhələr tükənən deyil,
Baxırsan soluna, sağına.
Külək bir çobandır elə bil,
Dalğaları qoyun-quzu kimi
qatıb qabağına...

29.08.1974

## XƏZƏRDƏ BİR DALĞA ÖPDÜ ÜZÜMDƏN

Xəzərdə bir dalğa öpdü üzümdən,
Kövrəldim, yaş axdı mənim gözümdən.
Dalğa dilə gəlib dedi: –Ay qardaş,
Salam gətirmişəm dağlardan sənə.
Ötən çağlarımız qayıdaydı kaş,
O doğma yerlərə dönəydik yenə.
Bir dağ çayı idim, sanki quş olub
Şığıdım, dağlardan düzlərə endim.
Araza qoşulub, Kürə qoşulub,
Xəzərə qovuşdum, dalğaya döndüm.
Xoşbəxtdir özünə doğru yol seçən,
Səni gördüyümə xeyli şadam mən.
Sizin evinizin önündən keçən
O büllur köynəkli Bərgüşadam mən.
Özünə yol tapıb axıbdır mənə
Sənin su içdiyin sərin çeşmələr.
Fikirli-fikirli baxıbdır mənə
Məktəbə gedəndə anan o səhər...
Sən düşçək yadına o gəldi dilə,



Baxışı hər şeyi danışdı mənə.
Kövrəldi, gözündən çıxan bir gilə
Özü də bilmədən qarışdı mənə.
...Öpdüm o dalğanı mən əsə-əsə,
Elə ki o mənə adını verdi.
Onun üz-gözümdən aldığı busə
Ana öpüşünün dadını verdi...

26.02.1977

## DƏRƏDƏN ZİRVƏYƏ

Onun tərifinə nə desən azdır,
Hər yana xoş ətir gətirir külək.
Elə bil təbiət füsünkar qızdır,
Onun görüşünə can atır ürək.

Hayana baxıram güllük, çiçəklik,
Sanki gözəllikdən məst olmuşam mən.
Endim bir talaya, bir topa kəklik
Bir atım qırma tək qalxdı dərədən.

Belə qonaqlığa de, kim bəs deyər?
Təbiət səninçin get süfrə açsın.
Dərədən zirvəyə qalxan dəstəyə
Ürəyim az qaldı qoşulub uçsun.

22.06.1973

## QAQQILDAYA-QAQQILDAYA

Bilməzdi ki, bir vaxt nədir kədər, təklik,
Qaqqıldaya-qaqqıldaya oxuyardı.
Xoş səsinə səs verərdi neçə kəklik,
O nəğmədə bir dünyalıq sevinc vardı.

Qayalara səpir indi göz yaşını,
Axı təkdir, indi könül dağlayır o.
Ovçu vurub onun ömür yoldaşını,
Qaqqıldaya-qaqqıldaya ağlayır o.

**25.07.1973**

## NƏĞMƏYƏ ATILAN GÜLLƏ

Talada güllənі atan kim idi? –
Bir həyat tükəndi, bir kef duruldu.
Elə bil kəkliklər qoşa sim idi,
Atılan gülləylə biri qırıldı.
Təbiət qınayır bizi elə bil,
Bir sükut götürüb dərəni, dağı.
Atılan adicə bir quşa deyil,
Nəğməyə atılan gülləydi axı?

**15.09.1973**



## NƏ DEYİM

Dağı göstərdi mənə:
-Heç ora çıxmaq olar?
Yəqin ki, zirvəsində
Qarğaların tükü var.

Məni götürüb fikir,
Axı ona nə deyim?
Zirvədə qarğa tükü
Axtarana nə deyim?!

**04.08.1974**

## DAĞLARA BAŞ SAĞLIĞI

Çiynində bu dərdin yükü qalıbdır,
Qartalın dərdini qartal kimi çək.
Zirvədə yupyumşaq tükü qalıbdır
Dağlar övladının xatirəsi tək…

**04.08.1974**

## QUŞLAR VƏ İŞIQ XƏTTİ

Quşlar işıq xəttinə düzülüb kəhrəba tək,
Od rəngli bir örtüksə düşüb yerin üstünə.
Elə bil ki, quşları məftil şişə çəkərək,
Qoyublar köz-köz olan lalələrin üstünə…

## ƏSİRGƏMƏZ

Açıb qızılgüllər, sanki bağ yanır,
Meyvəli budaqlar bar əsirgəməz.
Ağac kölgəsində axtar bağbanı,
Heyva əsirgəməz, nar əsirgəməz.

Özün öyrədərsən, atı xam istə,
Bulaqlar oxuyar hey muğam üstə,
Xəyala dalanda bir muğam istə,
Tarzən əsirgəməz, tar əsirgəməz.

Sən çıxmaq istəsən zirvəyə kəsə,
Nəhəng uçurumlar yolunu kəsər.
Yayın ortasında, könlün istəsə,
Səxavətli dağlar qar əsirgəməz...

**19.07.1974. Qubadlı**

## BİLİNMƏZ

Od-su arasında qalan bir insan
Ağlayar, gözünün yaşı bilinməz.
Köpürən çayların, daşan çayların
Ayağı bilinməz, başı bilinməz.

Çalışar, vuruşar hər oğlan, hər qız,
Artar ildən ilə bizim varımız,
Elə dərindi ki, dəryalarımız
Dibinin çınqılı, daşı bilinməz.



Çaylar damarında axar qan kimi,
Dayanıb yenilməz pəhləvan kimi,
Gözə görünsə də bir cavan kimi,
Bizim bu dağların yaşı bilinməz.

Çatar buludlara əli dağların,
Nə vaxt açılacaq dili dağların?
O qədər çoxdu ki, gülü dağların
Səhərdən axşama daşı, bilinməz...

**15.07.1974. Qubadlı**

## QAYNAĞA DÖNDÜ

Mən qonaq gələndə bu doğma kəndə
Sevincdən ürəyim yarpağa döndü.
Ətirli çəməndə, güllü çəməndə
Qaçışan uşaqlar oğlağa döndü.

Seyrə çıx gərəksiz işə uyunca,
Ağaclar düzülüb yollar boyunca.
Bulağın suyundan içdim doyunca,
İlhamım qaynayan bulağa döndü.

Lövhələr ürəkdən silinən deyil,
Budağa dəyərsən, aşağı əyil.
Ulduzlar titrədi, əsdi elə bil
Elə ki, ay göydə orağa döndü.

Hünərin çatırsa, bu lövhəni çək,
Kəpəzdə qar qalıb, ətraf gül-çiçək.
Zirvəyə dırmaşdım bir alpinist tək,
Dağlarda ürəyim bir dağa döndü.

Doğma oylaqlarda doğmalar yaşar,
Sevincdən ürəyim kükrəyər, daşar.
Əriyib qarışdım torpağa, daşa,
Burdakı gözəllik qaynağa döndü...

22.07.1974. Qubadlı

## ÇAYLAR

Yaşamağa səsləyir bizi
Həyatın qadir səsi.
Ömür çaydır,
Hər gün onun bir qətrəsi...
Çaylar bir-birinin
Görüşünə tələsir.
Yolda batanı da olur,
Vüsala çatanı da...

10.12.1975

## QƏRƏNFİL

Axşam zanbaqla
bir qaba qoydum
Qərənfili mən.
Səhər soldu o,
Bilmirəm nədən?



Ayrı qoyaydım
Onları gərək.
Birgə yaşamaq
Çətindir, çətin
Sevmirsə ürək...

10.01.1976

## DUYĞULARIM

Ürəyimdə yuva salıb
Ən müqəddəs arzu kimi.
Üzdən bənzər bir pələngə,
Sakitsə də quzu kimi.

Doğmalaşıb sevgilimin
Toxuduğu çələng qədər.
Görünsə də quzu kimi,
O qorxuncdur pələng qədər.

Mənim adi görkəmimdə
Uzaq yaşar, yaxın yaşar.
Üzdən sakit nəhrlərdə
Daxili bir axın yaşar.

Ürəyimdə neçə-neçə
Deyilməmiş söz yatıbdır.
Buz altında şəlalə var,
Kül altında köz yatıbdır...

01.08.1974

## DÜŞÜNCƏ HAQQINDA DÜŞÜNCƏLƏR

Düşünürük həmişə,
Düşünürük hər zaman.
Düşüncələr olmasa
Necə yaşayar insan?
Ac yaşamaq mümkündür,
Mümkün olmayıb ancaq
Düşüncəsiz yaşamaq.
Atam köçdü dünyadan,
Çarə yoxdu ölümə.
Nə vermişəm görəsən
Vətənimə, elimə?
Öz alnımın təriylə
Gül balamı böyüdüm.
İşıq saçsın ömrünə
Nəsihətim, öyüdüm.
Göz yumaraq yaşamaq
Söylə insan ömrümü?!
Düşüncələr bəzəyir
Həyatımı, ömrümü.
Niyə rüşvət var hələ,
Niyə nadan var hələ?
Dünya dağıla bilər
Düşüncəsiz uzanan
Titrək bir barmaq ilə.
Həyatdakı hər şeyi
Gərək dərindən duyum.



Düşünürəm həmişə,
Düşüncə havam, suyum.
Dünyamızın işləri
Qaydasına düşüncə,
Hamımıza gərəkdir
Hava kimi düşüncə...

***

Şair miz arxasında
Gecə-gündüz düşünür.
Hər şeir bir maşındır,
Fikirlər sərnişini...

Gözlərimin nurunu
Misralara qatıram.
Hər şeiri top kimi
İnsanlara atıram.

Hamı qəbul eləmir
O harayı, o səsi.
Yaxşısı geri dönmür,
Geri qayıdır pisi.

Gözlərimdən çıxan yaş
Gözümə qayıdarmı?
Sözüm ürəkdən qopsa,
Özümə qayıdarmı?!

**23.10.1975**

***

Şeytan balam dəcəlləşir
İldən-ilə.
Elə bil ki, kəpənəkdir
Uçub qonur güldən-gülə.
Çiçəklərin arasında
İtib qızım,
Çiçəklərin arasında
Bitib qızım.
Bir çeşmədir bağ içində,
Nəğmə axır dodağından.
Gözəlləşər su içəndə
Qızım qızlar bulağından…

**17.08.1974**

## QIZIM

Bir təyyarə meydanıdır ona
Ana ağuşu – isti bir qucaq.
Əllərini vurur bir-birinə,
Az qalır sevincindən uça.
Böyüyür gözlərimdə
Onun körpə dünyası.
Qızımın sevincinin
bir qanadında mən uçuram,
bir qanadında anası…

**20.08.1974**



# KİTABIN İÇİNDƏKİLƏR

## Dünya gözəldi


Ulu Yaradanım ........ 3
Min şükür ........ 4
Dünyanın işindən bəndə baş açmaz ........ 5
Möcüzəli, sirli dünya ........ 6
İyul yağışı ........ 7
İşığa bələnmiş ağrı ........ 9
Bircə günahım var ........ 11
Mənim düşüncəm ........ 12
Həyat gözəldi ........ 13
Payız xəzan qoşunuyla ........ 13
Sevgi və ölüm ........ 14
Şərq və Qərb ........ 14
Günəş ........ 14
Sükut ........ 15
«Sevgi üfüqlərində» ........ 15
«Sevirəm gecəni, qaranlığı mən» ........ 15
«Baharın ilk günü» ........ 15
«Dirinin ölüyə» ........ 16
«Bilirsən ki» ........ 16
Cangüdən ........ 17
«Elə bil uçqunun» ........ 17
Tülu, qürub ........ 18
Qürubla sübh arasında ........ 18
«Bir gün gələn» ........ 19
Nəvələr ........ 19
Tənhalıqla baş-başa ........ 19
Qəm ........ 20
«Acizik» ........ 21
«İynədən barmaq qoruyan» ........ 21
Şahdağı şahlıq eləyir ........ 22
Zirvədən o yana… ........ 22
«Necə qalxdım bu yolu» ........ 23
«Bakıya güllər gəlib» ........ 23
Köhnə il ........ 23
At belində ........ 24

Buz saray....26
Niyə donub Niyaqara....26
Qar yağanda....27
Ədalətli qış....27
«Od yağır göylərdən»....28
«Mən məni sadəlövh»....28
Payızın çəkdiyi ah....29
Ulduzlar....29
«Atalar deyib ki»....29
Allahın sevgi payı....30
Bundan da gözəl ömür olurmu....31
Şairdən yaş soruşarlar?....32
«Mən tarixin o başından»....33
«Arzularım cilvələnir»....33
Neçə ki göz yaşı var....34
«Bu dünyada nə varsa»....35
Həyatın əsl ləzzəti....35
Şeir buludu....36
«Yamanca kövrək olmuşam»....36
«Ötən günlərə»....36
Eldar Baxışa məktub....37
«Bir toppuş»....40
«Neçə ki var haqsızlar»....40
Bülbül və bağa....41
«Bir söz deməmişdən əvvəl»....41
«Zatıqırıq olan kəslər»....42
Yanğın....42
Xaricdən gələn dana....42
Heyvan heykəlləri....43
«Bilmir ki, bu millətin»....43

## Türkiyədə keçən günlər

«Məni göyüm-göyüm»....44
«Çox şükür»....44
«Görəsən niyə»....45
Tanrının saldığı yol....45
Dalğalı Egey....46
Qəribə qədəh....47
«Ürəyimdə sevgi»....47
«Quş kimi»....48



Vətəndə qəlbimə çəkilən dağlar....49
Min şükür....50
Kim olacaq....50
Qürbətdə vətən ağrıları....51
Ağrı toxumları....51
«Arabir hicran külәkləri»....52
Sevgi zəmisini biçən suallar....53
Bodrumda tikilən evlər....54
«Sahildə dayanıb»....54
Təyyarədən baxıram....55
«Təyyarədən»....55
«Sanki Egey»....56
«Yolları var dolama»....56
«Yoxa çıxan»....56
İçmələrə gedən yol....57
Sevgi dili....58
«Marmarisi gözəlləşdirən»....59
Min illərdi....59
İndən belə....60
Dimdik-dimdiyə....60
Cənnət adası....60
«Yaxınlıqda olanda»....62
Marmaris....62
Egey dənizi və dağlar....63
İşıqlı mağara....64
Yaşıl dəniz....65
Gəlib çıxdıq Marmarisə....65
Marmarisdə gəzirəm....66
Bu dəniz....67
Dağlara sığının dəniz....68
«Marmaris bu dağlara»....69
Yayda yığdığım işıq....69
Marmaris gecələri....70
«Ağ günlər müjdəsidi»....71
«Su həyatdı»....71
Ağ dəniz....72
Bələk....73
Daş və çiçək....73
Təyyarədə düşüncələr, yaxud göylə yer arasında....74
«Adın nədir, ay dəniz»....75
Arzular kəhkəşanı....76

Ağdənizlə üz-üzə ........ 77
Ağdəniz, nə təmizsən ........ 77
Bələyə bax ........ 78
Ağdəniz bəxtəverdi ........ 78
Bələk bələk içində ........ 80
«Bu dünyada sevinclə qəm qoşadı» ........ 80
Gəmi səyahəti ........ 81
Şəkil ........ 81
«Atalar deyib ki» ........ 82
Ruhlar diyarı ........ 82
Günəş və mən ........ 83
Müğənni və boş yer ........ 84
Sara nəsə düşünür ........ 85
Bu gün ........ 86

## Havada eşq qoxusu var

Səni mənə qaytaracaq bu yağış ........ 87
Sənin günahını bağışladım mən ........ 88
Xoşbəxtlik zirvəsi ........ 89
Biz yenə də göz-gözəyik ........ 90
«Dərmək mənə qismət olub» ........ 90
«Mənim sevdalı ömrümdə» ........ 90
«Mənimçün darıx» ........ 91
«Taleyin qisməti güldü üzümə» ........ 92
«Səndən ayrılmağım» ........ 92
«Nəhayət bir gün qızışıb» ........ 93
«Elə bil ki, mənim» ........ 93
«Bu günüm elə bil» ........ 94
Qurumaqda olan ağac və ona doğru axan su ........ 94
Çəmən, dəniz, sən və mən ........ 95
Yalan məlhəmləri ........ 96
«Bu qədər» ........ 97
Mən olmasam ........ 97
«Həyatına gələn bir yad» ........ 98
«Yalanları don tək necə geyirsən?» ........ 98
Taleyin iztehzası ........ 99
Dağ və külək ........ 99
Köhnə yurdun qədri ........ 100
Qəribə duyğular ........ 101
Bir gün ........ 102



Uğrunda ölə biləcəyim eşq ........ 103
Tənhalıq ........ 103
Get ........ 104
«Sən mənim açdığım» ........ 105
Qorxuram ........ 106
Sənə zəng gələndə ........ 107
Sehrli yumaq ........ 108
Xoşbəxtlik zirvəsi… ........ 109
«Acı olsa da» ........ 111
«Mənim sevgi gülzarımın» ........ 111
«Bir gün boğazından» ........ 111
«Səndəmi tarixə döndün» ........ 112
«Sevdiyin, güvəndiyin» ........ 112
«Məni qorxudan» ........ 113
«Məhəbbət yolunda» ........ 113
Qoca və cavan ........ 113
«Səbr diləyirəm» ........ 114
«Üz-üzə, göz-gözə» ........ 114
«Layiq olan yer tapmadın» ........ 115
«Heyranam sədaqətinə» ........ 115
«Sənə sevinmək yaraşır» ........ 116
Ölən sevgi ........ 117
İlin ən uzun gecəsi… ........ 117
Bu qışın ilk günü ........ 118
«Öz yolundan sapmağın» ........ 118
«Məndən intiqam» ........ 119
«Adam gec-tez öyrəşir» ........ 119
«Qəlbimi ələ almaq» ........ 119
«Kiminlə olursansa ol» ........ 120
«Qəlbimin sevgiyə ehtiyacı var» ........ 120
«Gücün çatsaydı» ........ 121
«Bir şey dəyişəcəkmi» ........ 122
«Demirəm ki» ........ 122
«Sevgisinə xəyanət edən» ........ 123
«Sap kimi» ........ 123
«Bu üzündən baxanda» ........ 124
Hər anı qənimət biləsən gərək ........ 124
«Fikrin uzaqlarda» ........ 125
«Deyəsən kimliyimi» ........ 125
«Yolunu gözləyənin var» ........ 125
«Gözlərimi» ........ 126

Bu eşq hekayəsi ........ 126
Quzu, çoban və çəmən ........ 127
«Bu get-gəl dünyasında»... ........ 128
«Dönüb göydə suala» ........ 128
«Lüzum yox fəğana, aha» ........ 129
Mənsiz dünya ........ 129
«İnsan» ........ 130
Sən yoxsan daha ........ 131
Başını kola soxan quş ........ 132
«Dilimi dinc saxlaya bilərəm» ........ 132
«Bu günün işini qoyma sabaha» ........ 133
«Qəlbimə dağlar çəkdi» ........ 133
«Heç nə qurbansız ötüşmür» ........ 134
«Dağılıb sevgi qalam» ........ 134
Sən ........ 134
«Ürəyin çat-çat olacaq» ........ 135
Çıx mənim həyatımdan ........ 136
Çıx get...... ........ 137
Olur ........ 138
Ehtiyac qalmır yalana ........ 138
«İçindəki ağrıları» ........ 139
«Nəydi axı qəsdi, keçdi» ........ 139
«Bəslədiyim çəmənzara» ........ 140
«Sən mənim keçib gəldiyim» ........ 140
Sənin bircə sözün ........ 141
Yuxu ........ 142
«Gözlərin kimi nur saçan» ........ 143
«İnsanların doğması var, yadı var» ........ 143
Həzz zirvəsindən təskinlik vadisinə ........ 143
Ən uca zirvə ........ 144
İntiqam və həzz umacağı ........ 144
Belə getsə ........ 145
Şeytanla nəfəs-nəfəsə ........ 146
Məhəbbət əzabı ........ 147
Sevgi dəyirmanı ........ 147
Cüt laçın ........ 147
Xatirələr səltənəti ........ 149
«Ürəyimə nur saçır»... ........ 150
«Sevgimi» ........ 150
«İçində çayırlar bitdi» ........ 150
«Gözlər öz-özünə dolmur, bilirsən» ........ 151



Eşq qoxusu ........ 151
«Hisslərə, duyğulara» ........ 152
«Gözlərinə həsrət» ........ 152
«Bir də əllərin» ........ 153
«Bir təmiz sevginin axırına» ........ 153
«Mənim payızımda, yazımda sənsən» ........ 153
Sevgi xəzanı ........ 154
«Qalxa biləcəksənmi...» ........ 154
Vaxtım hanı darıxmağa ........ 155
Bir dəstə gül olsaydım ........ 155
İntizar gülləri ........ 156
Rübailər... ........ 157
Əgər ........ 159
«Gör hardan haraya ətir saçmısan» ........ 159
«Gözlərini bir yol görən» ........ 159
Oy, nə qəşəng qızdı bu ........ 160
«Nə vaxtdandır dəli könlüm» ........ 161
Xoşbəxtlik qatarı ........ 161
«Tufan alsa bu sevginin üstünü» ........ 162
Ümman təşnəsi ........ 163
Tez ol, gəl yanıma ........ 163
Nəfəs-nəfəsə ........ 164
«Dərd hərdən ayaq tutub» ........ 164
«Bir gör nə biçimdəsən» ........ 164
«Kim eşqdən güc almır» ........ 165
«Bu gün yoxdu çay verənim» ........ 165
«Əvvəl-axır qəlbimizdə» ........ 165
«Şükür» ........ 165
«Mən sənin üçün» ........ 166
Nifrət və məhəbbət ........ 166
«Sən mənsiz heç nəsən» ........ 166
İşıq sürəti ........ 167
«Yayın bu cırhacırında» ........ 167
Hüzn adası ........ 168
Yer ........ 168
Qısqanclıq ........ 169
Toy ........ 170

## Üzü gələcəyə

Altmış beş ildi ki ....171
Gedirəm ....173
«Lümlüt qalan budaqlarda» ....173
«Külək vıy-vıy vıyıldayır» ....173
Dünyanın minnəti olsun ....174
Budaqlardan ulduz axır elə bil ....174
Ağ saçlar ....175
«Dünyanın yaşını» ....176
«Xanımını da» ....176
Gələcəyin səsi ....177
«Şahdağının qarlı zirvəsi» ....178
«Şaxta qırova çevrilib» ....179
Gözəllik karvanı ....179
Qusardan qayıdıram ....180
Sən mənim ömrümü uzat, Allahım ....182
Gül və bülbül ....184
Mən bir ağacam ....186
Payız düşüncələri… ....187
Bu gün dünya çox gözəldi ....188
İş-güc ....188
«Min şükür» ....189
İşığa doğru ....190
İbadət ....191
«Həyatın dolanbac» ....191
«İşğal altındakı Şuşada» ....191
«Ulu yurd, məni bağışla» ....192
Yoldan çəkənlər ....192
Qərib misralar ....192
«Dünyadan dost-tanış köçür» ....193
Dünya ....193
Atasız, anasız dünya ....194
Qocalar ....195
Pillələr ....196
Əl çəkin yaxamdan… ....197
Ömürdən düşən yarpaqlar… ....198
Səbr ağacı ....199
Ruhlar ....200
Adamsız ev və evsiz adam… ....202
«Yorulmaq bilmədən yol gedənlər»… ....202



Yaşayır ....203
Dilimdə söz puçurlayır ....203
Deyimlər ....204

## Ötən günlərdən yadigar nəğmələr

Özümlə söhbət ....206
Varaqlar üstündə ....207
İmzam ....209
«Demirəm o qadın dünyada təkdir» ....210
Mənə elə gəlir ....210
İnamın gücünə ....211
«Pozulubdur yaşıdların sırası» ....211
«Sözlərim kimisə gətirib dilə» ....212
Qaradağ ....214
«Şirin hesab elə hər vaxt acını» ....214
Kişilik ....215
Sərhədsiz məhəbbət ....216
«Şəbi-hicran»ı dinləyərkən ....216
«Karvan gedir» ....217
«Kimsə unudub varlığını» ....218
Mənim dilim ....218
«Böyük fikir» ....219
«Şeir quşdur» ....220
Təriflərin çiynində ....220
«Gecə yazmaq istəmirəm» ....220
Sənət yollarında ....221
«Çoxdandır heç kimi salmıram yada» ....221
«Mən bir fikir ağacıyam» ....222
«Xışıldaya yarpaq kimi» ....222
Kaş qatar olaydım ....223
Bir gündə ....223
Darıxıram ....224
Döyüşən şeirlər ....224
Kipr ....225
İki muncuq ....226
Dünyanın nəbzi ....226
Özünüz yaradın ....227
Zənglər ....228
Bir günün qiyməti ....229
Şekspra ....229

Xalqın ürəyinin nuru ....................230
Xatınlıların inamı....................231
Mən zəfər çalmışam ....................232
Naməlum əsgərin qəbri önündə düşüncələr....................233
Bir güllənin yaraları....................235
Əsgər nəğmələrindən ....................236
Bu necə olan işdi ....................236
Ölməz zəfər ....................237
Sülh göyərçini....................238
Arzu ....................238
Yaşım az olsa da ....................238
Könlümün pəncərəsi ....................239
Uçan yuvalar ....................240
Qırmızı kitab....................240
İnsanlara....................241
İşıq körpüsü....................242
Şir....................242
Səhər duyğuları…....................243
Mən bir balıq idim ....................243
Millilik....................244
Bar ağacı....................244
Ona yanıram ki....................245
İşıq adası....................245
Çörəyin nağılı ....................246
«Eşqi bulaq kimi coşur, çağlayır»....................246
Çatma....................247
Xəlbir....................247
«Deyirlər dünyada haqq-ədalət var....................247
«Özünə çatırmı aldığın maaş»....................248
Qoca gülbəsləyən....................249
Dəniz suyu....................250
Yaratmaq arzusu ....................251
«Biçə-biçə biçənəyin oğundan» ....................252
Zamanın imzası....................252
«Könlüm dostu, yarı arayar, seçər»....................253
«Dərdsizlər dərdimi çətin ki duya»....................253
İnsanlar kimi....................254
«Ürəyin peşəsidir…»....................254
Biz dünyadan gedəndə ....................254
«Bir gün ölüm şərbətini»....................255
Qəbir....................255
«Bir insan köçdü dünyadan» ....................255
«Yatırıq, dururuq»....................256
Bu dünyanın ğir ovuc torpağı....................256
«Ay ana»....................257
Günəş....................258
Canlı heykəl....................258
Azadlıq ....................259
İçərişəhər ....................259
Doğma daşlar....................259
Bakı....................259
Dan ulduzu ....................259
«Deyir görən ay necədir» ....................261
«Günəbaxan»....................261
Saz....................262
Muğam ....................263
Yetim segah ....................263
Nəğməli ömürlər ....................264
Yeni il axşamı....................265
Otuz beş yaşım ....................265
Mən insanam....................266
Hamının ürəyi var....................266
Acı həqiqət....................267
Kitabxana....................267
«Təklikdən darıxma»....................267
Futbol topu....................268
Avrora....................268
Kaman....................269
Adsız şeirlərim....................270
Araz dərdi ....................270
Araz ....................270
Meyvəli misralar....................271
Ocaq yeri ....................271
Təbiət donunu dəyişdirir ki....................272
Fəsilli arzular ....................272
Fəsillərin nərdivanı ....................273
Təbiət ....................273
Rəssam bahar....................274
Nə olaydı ....................274
Bahar lövhəsi ....................275
«Dağların, düzlərin loğmanı bahar»....................275
Yağışdan sonra....................275

«Şəfəqlər altında min rəngə çalar» 275
«Torpaq yağışı da uddu sevincək» 276
Yayın gileyi 276
«Yayın qızmar çağında» 276
Payız lövhəsi 277
Payız notları 277
Payız toyları 278
Payızın sonuydu 278
Qar yağır 279
Qar yağır e, qar yağır 279
Qış lövhəsi 281
«Lopa-lopa qar ələnir» 281
Bu qış 281
«Yarpaq düşdü, ot saraldı» 282
Qışdan yaza 282
Günəş bircə dənədir 283
Meşə 283
Yaşıl dəniz 284
Su ata, torpaq ana… 285
Tək ağac 286
Meşəbəyi 287
Palıd əzəməti 288
Limon ağacı 288
Çinar kölgəsində 288
Meşə bulağında 289
Təbiətin qoruğu 289
«Elimi, obamı seyrə çıxmışam» 290
«Könlüm istəyir» 290
Dağların medalı 291
«Bir xoş səda enib gələr» 291
Dağ və çaylar 292
«Gəlmişəm mən kəndə» 292
Yaylaq 294
«Gözümün önündə dayanıb dağlar» 295
Bulaq 295
Dağ seli tək 295
Ağac kimi 296
Dağ çayı 296
Nur çayı 297
«Nur gətirib səhər mehi» 297
Göygöllə söhbət 298



Göy göl 298
«Dənizə gedirəm hər səhər tezdən» 298
Dəniz lövhəsi 300
Göylər sanki dənizdi 300
«Dalğalandı, yenə də dindi Xəzər» 301
«Lövhələr tükənən deyil» 302
Dərədən zirvəyə 303
Qaqqıldaya-qaqqıldaya 304
Nəğməyə atılan güllə 304
Nə deyim 305
Dağlara baş sağlığı 305
Quşlar və işıq xətti 305
Əsirgəməz 306
Bilinməz 306
Qaynağa döndü 307
Çaylar 308
Qərənfil 309
Duyğularım 309
Düşüncə haqqında düşüncələr 310
«Şair miz arxasında» 311
«Şeytan balam dəcəlləşir» 312
Qızım 312

## RAFİQ YUSİFOĞLUNUN ÇAP OLUNAN KİTABLARI

1. Yurdum-yuvam (şeirlər). Bakı, Gənclik, 1983.
2. Ətirli düymələr (şeirlər). Bakı, Gənclik, 1986.
3. Ocaq yeri (şeirlər). Bakı, Yazıçı, 1989.
4. Aylı cığır (şeirlər və poemalar). Bakı, Gənclik, 1992.
5. Qəm karvanı (şeirlər və poema). Bakı, Sumqayıt, 1997.
6. Həsrət köçü (şeirlər). Bakı, Sumqayıt, 1998.
7. Sladkiy dojd (şeirlər, rus dilində). Bakı, Şuşa, 1998.
8. Dünya xalqlarının nağılları (tərcümələr). Bakı, Azərbaycan, 1998.
9. Azərbaycan poeması: axtarışlar və perspektivlər (monoqrafiya). Bakı, Elm, 1998.
10. Xatirə kəcavəsi (elmi-publisistik məqalələr). Bakı, Elm, 1999.
11. Bahar qatarı (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 1999.
12. Kitabi-Dədə Qorqud (komikslər). Bakı, İşıq, 1999.
13. Böyük arzuya gedən yol (şeirlər). Bakı, Azərbaycan, 2000.
14. Möcüzəli xəzinə (tərcümələr). Bakı, Azərbaycan, 2000.
15. Təzə sevdalara doğru (şeirlər və tərcümələr) Bakı, Şuşa, 2000.
16. Çiçək yağışı (şeirlər və poemalar). Bakı, Şuşa, 2000.
17. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Sabah, 2001.
18. Söz çəməni (şeirlər). Bakı, Azərbaycan, 2002.
19. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Təhsil, 2002.
20. Ayrılığın qəm hasarı (şeirlər). Bakı, Təhsil, 2002.
21. Günlərimiz, aylarımız (şeirlər). Bakı, Azərbaycan, 2000.
22. Bir sevdalı ürəyim var (məqalələr). Bakı, Çaşıoğlu, 2003.
23. Ədalətli hakim (tərcümələr). Bakı, Azərbaycan, 2004.
24. Şirin yuva (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2004.
25. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2004.
26. Min dovşan otaran çoban (tərcümələr). Bakı, Azərbaycan, 2005.
27. Zamanın qatarı (şeirlər). Bakı, Azərbaycan, 2005.
28. Həsrət sazağı (şeirlər). Bakı, Şirvannəşr, 2005.
29. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Şirvannəşr, 2005.
30. Dəniz səviyyəsi (nəsr əsərləri). Bakı, Şirvannəşr, 2005.
31. Meymunlar ölkəsi (tərcümələr). Bakı, Azərbaycan, 2006.
32. Yollar (şeirlər). Bakı, Azərbaycan, 2006.
33. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Şirvannəşr, 2006.
34. Daha uşaq deyiləm (şeirlər). Bakı, Şirvannəşr, 2006.
35. Sevdalı sabahlar (şeirlər və poema). Bakı, Şirvannəşr, 2007.
36. Namuslu oğru (tərcümələr). Bakı, Azərbaycan, 2007.
37. Ana dilim (şeirlər). Bakı, Azərbaycan, 2007.



38. Tanrının ömür payı (məqalələr). Sumqayıt, 2007.
39. İlahi qazlar (tərcümələr). Bakı, Azərbaycan, 2008.
40. Sehrli üzük (tərcümələr). Bakı, Azərbaycan, 2008.
41. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2008.
42. Eşqin qarlı yollarında (şeirlər). Bakı, ADPU, 2008.
43. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2009.
44. Dəniz, sən və mən (şeirlər). Bakı, ADPU, 2009.
45. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, ADPU, 2009.
46. Qızıl balıq (tərcümələr). Bakı, Lider-press, 2009.
47. Ulu yurd yerlərimiz (məqalələr). Bakı, Lider-press, 2009.
48. Azərbaycan dili – 2. İkinci siniflər üçün dərs vəsaiti. Bakı, Çaşıoğlu, 2009.
49. Çiçək yağışı (şeirlər). Bakı, Çaşıoğlu, 2009.
50. Pamela Trevers. Meri Poppins (tərcümə). Bakı, Çaşıoğlu, 2009.
51. Möcüzəli ağac (tərcümələr). Bakı, Azərbaycan, 2010.
52. Elm və helm (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2010.
53. Qoruq və yasaqlıqlarımız (məqalələr). Bakı, Azərbaycan, 2010.
54. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri (monoqrafiya). Bakı, ADPU, 2010.
55. Qızıl saçlı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2011.
56. Quşlar dünyası (şeirlər). Bakı, Azərbaycan, 2012.
57. Qurbağa libaslı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2012.
58. Xoşbəxt günlər yolçusu (tərcümələr). Bakı, Azərbaycan, 2012.
59. Könül səltənəti (şeirlər və tərcümələr). Bakı, ADPU, 2012.
60. Tapmacalar ölkəsi (nağıllar və hekayələr). Bakı, Azərbaycan, 2013.
61. Həyat ağacı (tərcümələr). Bakı, Azərbaycan, 2013.
62. Kiçik siçanən böyük sərgüzəştləri (tərcümələr). Bakı, Azərbaycan, 2013.
63. Qızılı məktublar (şeirlər). Bakı, ADPU, 2013.
64. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2004.
65. Ağıl sınağı (tərcümələr). Bakı, Azərbaycan, 2014.

# Rafiq Yusifoğlu

(Rafiq Yusif oğlu Əliyev)

# ARZULAR KƏHKƏŞANI

(Şeirlər)

Rəssamlar: İlqar Tofiqoğlu

Kübra Əkbərova

Korrektor: Günel Almaz

*Çapa imzalanmış 03.02.2015-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 20,5*
*Sifariş 33, sayı 200*

---

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyov küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E.mail. ADPU@Box.az*



87222
000000005058